**KAMRAN ƏLİYEV (İMRANOĞLU)**

# QIRMIZI XƏTT

**(Roman)**

**"Elm və təhsil"**

**Bakı –2020**

**Redaktorlar:** **Fərid HÜSEYN**
*şair-tərcüməçi*

**Gülnar OSMANOVA**
*filologiya üzrə fəlsəfə doktoru*

**Kamran Əliyev (İmranoğlu). Qırmızı xətt (roman).** Bakı, "Elm və təhsil", 2020, 136 səh.

Kitabda təqdim olunan romanda AMEA Folklor İnstitutunun "Folklor və yazılı ədəbiyyat" şöbəsinin müdiri, AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Kamran İmran oğlu Əliyev tələbəlik həyatını əks etdirmişdir.

**© Kamran Əliyev, 2020**

# PROLOQ

Bu kənd çox balaca kənddir; tanıyanlar üçün xəritədə nöqtə boyda görünür, tanımayanlar üçün yox kimidir. Çox uzaqları deyə bilmərəm, amma əlli il bundan qabaq, yəni ötən əsrin 60-cı illərində bu kənddə cəmi-cümlətanı 27 ev var idi. Uzun illər səssiz-səmirsiz qalan bu kənd sanki Allah-taalanın əmri ilə sərhəd dirəklərinə tərəf sıxılmışdı, sərhəd dirəklərinin o tərəfində nazlı-nazlı axan bir çay vardı – Araz çayı. Hər gün gördüyümüz və səsini eşitdiyimiz Araz çayına gəldikdə yalnız onun adı bizim idi, çünki bu çaydan istifadə etmək müşgülə düşmüşdü. Onun sularında gözəl-gözəl balıqlar üzürdü və min təəssüf ki, həmin balıqlardan tutmağa heç kəsin ixtiyarı yox idi, çünki tikanlı məftillər vardı, əsgərlər vardı və bu maneələri keçib Arazdan balıq tutmaq, sadəcə, mümkün deyildi. Mən balıq xiffəti eləmirəm, bizim tərəflərdə balığa meyil göstərənləri barmaqla sadalamaq olar. Düzünə qalsa, bizim kənd adamları balıqların adını da heç əməlli-başlı bilmirlər, haradan balıq tutulursa, elə həmin yerlə də adlandırılır: Arpaçay balığı, Araz balığı, qobu balığı və sair. Mənim nisgilim onunla bağlıdır ki, uzun illər sərhəd boyda Araz kəndimizin böyründən axsa da, onunla lap yaxından təmasda ola bilməmişəm. Buna görə də mən Araz çayı haqqında Sakit Don, Dəli Kür barədə yazılanlar kimi yaza bilmirəm.

Bir vaxtlar Arazın sol sahilindən bütün kənd boyu uzanan bir arx çəkmişdilər və onun adını da camaat özü Motor arxı qoymuşdu. Ona görə Motor arxı deyirdilər ki, hər tərəfə səs

salan nasoslar Arazdan həmin arxa su vurur və bu su ilə də əkilmiş zəmilər suvarılırdı. Sonralar hündürlüyü iki adam boyda olan Motor arxı da dağılıb getdi, bu boyda arx elə bil birdən-birə göyə çəkildi. Motor arxının tar-mar olması ilə onun döşündəki qumsallıqda oynadığımız evcik-evcik oyunu da yoxa çıxdı.

Amma adamın üstündə Allah var, uzun müddət kəndin qız-gəlini Arazdan vedrə-vedrə içməli su daşıyırdılar. Belə ki, kəndə yaxın sərhəd dirəklərini söküb adamların keçməsi üçün kiçik bir qapı düzəltmişdilər. Bu qapı da taxtadan, dəmirdən deyildi, elə sərhəd kimi tikanlı məftillərdən toxunmuşdu. Hər gün axşamçağı, təxminən saat 5-də əsgərlər gəlib həmin sərhəd qapısını açar, kəndin qız-gəlini də əsgərlərin nəzarəti altında Araza tərəf gedərdi. Sonra onlar kənd camaatı tərəfindən düzəldilmiş torpaq pilləkənlə çayın aşağısına enər və gətirdikləri qabları Arazın bəzən duru, bəzən də bulanıq sularından doldurub geri qayıdardılar. Hələ də yadımdan çıxmayan bir məqam var ki, oradakı pillələrin sayı 30-a çatırdı. Həmin pillələr bir tərəfə qalsın, qız-gəlinin əsgərlərin müşayiəti ilə Araza gedib-gəlmələri sonralar müharibə mövzusundakı kinolarda gördüyüm əsir qadınların cərgə ilə bir yerdən başqa yerə aparılmasına çox oxşayırdı.

Günlərin bir günü əsgərlər camaatı Arazdan su gətirməyə buraxmadılar. Səbəbi yadımda deyil, amma kənd camaatı ilə əsgərlər arasında nəsə xoşagəlməz hadisə baş vermişdi. Beləliklə, onsuz da problem olan bizim içməli suyumuz da müşgülə düşdü. Kəndimizin qadınları içməli sudan ötrü dad-aman çəkirdilər. Hətta elə olurdu ki, uşaqlar köynəklərinin ətəyini gölməçələrdəki bulanıq suyun üzərinə tutub lilli sudan içirdilər. Bunu eşidib bilən valideynlər isə uşaqların kəpənək xəstəliyi tutacağından qorxurdular.

Amma kəndə işıq gələndən sonra içməli su problemimiz xeyli düzəldi. Kəndin ortasında bir artezian quyusu qazdılar və insafən oradan əsl içməli su çıxdı. Bu su o qədər saf idi ki, hətta qonşu kəndlər də xeyir-şər işləri olanda çay qoymaq, xörək bişirmək üçün lazım olan suyu gəlib bizim kənddən apardılar. Bir müddət keçəndən sonra artezianın ətrafı tamam dağıldı. Baxımsızlıq onu tam təhlükə qarşısında qoydu. Bunun bir səbəbi də başqa kənddən içməli suyun borular vasitəsilə bizim kəndə çəkilməsi oldu. Yəni camaat təzəni görüb köhnəni yaddan çıxardılar. Gələcək təzə suyun boruları küçəbəküçə, həyətbəhəyət çəkilsə də, həmin borulardan içməli su gəlmədi ki, gəlmədi.

Bu kəndin bəxtindən idi, elektrik işığı da gec çəkilmişdi. Mənə elə gəlir ki, bu kənd ötən əsrin 60-cı illərində rayonda elektrik işığı görən axırıncı kənddir. Fəhlələr qonşu kənddən başlayaraq hündür elektrik dirəklərini yerə basdıra-basdıra bizim kəndə yaxınlaşırdılar. Bu iş də yaman uzun çəkdi. Uzun çəkdi deyəndə ki, dörd-beş aya dirəkləri basdırıb qurtardılar, amma məftillərin çəkilməsi xeyli vaxt apardı. Həmin dirəklərə, məftillərə baxmaqdan biz uşaqların gözünün kökü saralmışdı. Niyə böyüklərin yox, məhz uşaqların? Ona görə ki, lampa işığında dərs oxumaq uşaqları cana-boğaza yığmışdı. Mən yazı yazanda, kitab oxuyanda lampanı evdəkilərin əlindən alıb stolun sol küncünə qoyardım. Çünki müəllimlərimiz öyrətmişdilər ki, yazı yazanda işıq soldan düşməlidir, əks halda adamın əlinin kölgəsi dəftərin üstünə düşüb yazmağa maneə olardı. Vay o gündən ki, lampanın piltəsi bir az köhnələydi, onda işıq çox zəifləyərdi. Lampanı da yaxına çəkəndə dəftərin üstünə elə lampanın özü boyda və öz şəklində yekə bir kölgəsi düşərdi. İndi biri qalxıb soruşar ki, bəs təzə piltə almaq olmazdı? Almaq olardı, amma piltə harada idi ki, alasan. Piltə deyilən şey

dükanlarda tapılmazdı. Əslində lampa şüşəsi də qəhətə çıxmışdı. Gərək piltəni də, lampa şüşəsini də kəndə gələn alverçidən alaydın. Alverçi də kəndimizdə 2-3 aydan bir görünərdi. Çox vaxt camaat Ablonu gözləyərdilər. Onun əsl adı ya Abdulla, ya da Allahverdi idi, düzü, yadımdan çıxıb. Xırdavat şeylərin hamısını Ablo gətirərdi. Onu da təəssüflə bildirim ki, Ablonun gözləri görmürdü. Buna görə də o, bir uşağın əlindən tutub gələrdi, daha doğrusu, uşaq onun əlindən tutub gətirərdi. Ablonun gözləri görmədiyinə görə uşaqlar saqqız alanda onu yoxlamaq üçün, yəni bilə-bilə qəpiklərlə aldatmaq istəyərdilər. Amma o da əlini sürtən kimi uşağın verdiyinin neçə qəpiklik olduğunu o dəqiqə bilərdi. Uşaqlar da Ablonun mahirliyinə heyran olub əllərində saxladıqları başqa bir qəpiyi də ona verərdilər. Sonra isə həm evlərində, həm də məktəbdə gözlərini yumub qəpikləri özləri tanımağa çalışardılar. Elə bil bu da bir uşaq oyununa çevrilmişdi.

Lampa dövrünün xeyli qəribəlikləri olardı. Məsələn, Məşədi Vəli kişi deyərdi ki, gecə kəndin o biri başından evimizə qayıdırdım. Xeyli diqqət yetirib gördüm ki, daha kənddə gecələr lampaları söndürən yoxdur. Belə getsə 5-6 ildən sonra məktəbə göndərməyə uşaq tapılmayacaq. Məşədi Vəli kişi yenə deyərdi ki, bir vaxtlar bizim kənddə çənəsi əyri olan bir İbiş yaşayırdı. Gecə yatmaq vaxtı gələndə arvadı naz-qəmzə ilə ona deyir ki, dur lampanı söndür. Çənəsi əyri olduğuna görə o da ağzı ilə nə qədər üfləyirsə, lampanı keçirə bilmir. Dönüb arvadına hirslənir: “Harada çətin iş var, elə mənə tapşırırsan”.

Lampadan elektrik dövrünə keçəndən sonra da bu işıq məsələsi bizim başımıza çox oyunlar açdı. Bu oyunlardan biri külək əsən kimi məftillərin sınması idi. Mən də o vaxt rayon qəzetinə məqalə göndərmişdim və yazmışdım ki, bizim kənddə pişik asqıran kimi işıqlar sönür. Onu da elə beləcə çap eləmiş-

dilər. Bu bir cümləlik yazı çap edildikdən sonra rayonda işıq idarəsində işləyən kimsə atama şikayətlənmişdi ki, bəs sənin oğlun bizi biabır eləyib. Atam da cavab verib ki, boşlayın getsin, uşaqdı, bilməyib yazıb.

O vaxtlar qırılıb tökülən elektrik məftillərindən, yəni alüminium simdən oyuncaq maşınlar düzəldib kənd içərisində sürərdik. Bu maşın sürmək əhvalatı bizim gələcək şirin arzularımızdan xəbər verərdi. Amma böyüklər bu yalançı maşınlarımızı görüb bizə altdan-altdan gülərdilər.

Qırılıb yerə düşən elektrik məftilləri bir faciənin də səbəbi oldu: bir ucu yerdə olan məftili görən məktəbli uşaq fürsəti fövtə verməyib ona tərəf qaçır. Demə, məftilin o biri ucu elektrik xəttinə bağlı imiş. Məftili götürmək istəyən andaca uşağı "tok" vurur. Böyüklər nə qədər çalışırlarsa, uşağı xilas edə bilmirlər. O vaxtlar "adamı tok vuranda torpağa basdırarlar" sözləri el məsəlinə çevrilmişdi. Hətta mənim gözlərimin qarşısında yeri qazıb məktəblini torpağa basdırdılar. Yenə faydası olmadı.

Kəndin ortasında qoyulmuş bir yamangünlü transformatorumuz da var idi. Onu da sərhəd dirəkləri formasında tikanlı məftillə mühasirəyə almışdılar. Hamı təşviş içərisində idi ki, uşaqlardan kimsə gedib ona əl vurar, yenidən bir faciə törəyər. Küləklərin elektrik məftillərini sındırması, məftilləri bir-birinə dolaşdırması, uşağın faciəli ölümü, transformatorun yamangünlü olması uzun müddət kəndin üzərindən çəkilməyən bir vahiməyə çevrildi.

Kəndin ötən əsrdəki yollarından heç danışmağa dəyməz. Çünki uzun müddət heç bizim kəndin yolu olmayıb. Ötən əsrin 60-cı illərində rayon mərkəzindəki taksi sürücülərindən, demək olar heç biri bizim kəndi tanımırdı. Tanıyan olanda da onun elə bir faydası yox idi, yəni bizim kəndə baha qiymətə

gedirdilər. Bakı şəhərindən rayon mərkəzinə qatarla on manata gəlirdinsə, taksi sürücüləri rayon mərkəzindən kəndə də həmin qiymətə aparırdılar. Bunun bir səbəbi balaca kəndin o qədər də tanınmaması idisə, digər mühüm səbəbi də kəndin yolunun olmaması idi. Bəziləriniz təəccüb edəcəksiniz, bəziləriniz də güləcəksiniz ki, necə yəni, kənd də yolsuz olar? Bəli, elədi ki var, kəndimizin yolu yox idi. Bizim kəndlə qonşu kənd arasında uzanıb gedən çöllərin hər tərəfi yolumuza çevrilərdi. Yağış yağdımı, qar əridimi yol hökmən dəyişəcəkdi. Kəndimizdə olan iki "QAZ-51" maşınının sürücüləri çəmənlik yerlər tapıb həmin çöllərdən yeni yol salacaqdılar. Bunun nə qədər çətin olduğunu indiki kənd cavanlarına başa salmaq heç də asan deyil. Amma həqiqət belədir: soyuqda-sazaqda "QAZ-51" maşınının üstündə qonşu kənddəki məktəbə oxumağa gedərdik. Günorta geri qayıdanda da həmin 3-4 kilometrlik yolu hökmən piyada gələrdik. Ta ötən əsrin 70-cı illərinin sonunadək kəndimiz avtobus görmədi. Adamın üstündə Allah var, həmin vaxtlarda bizim kəndə çınqıllı yol salındı. Amma yaz vaxtları tez-tez daşıb kəndə təhlükə törədən daşqınların qarşısını almaqdan ötrü Araz çayının sahilinə tökmək üçün dəmir-beton daşıyan ağır yüklü maşınların ayaqları altında qalan həmin yol da yavaş-yavaş sıradan çıxdı və çala-çuxur nişanələri uzun müddət yoldan çəkilib getmədi.

Şagird olduğumuz vaxt həmin 3-4 kilometrlik yolu boş-boşuna gedib gəlmirdik. Məktəbdən çıxıb kəndə qayıdanda yol boyu dərslərimiz barədə sual-cavab eyləyərdik. Bir az fərasətli uşaq həmin sual-cavablardan xeyli mətləbləri öyrənə bilərdi və öyrənirdilər də. Amma həmin yolda təkcə dərs barəsində danışmırdıq. Məsələn, klubda baxdığımız kinoları müzakirə edərdik. Bir-birimizə kinonun ayrı-ayrı hissələrindən maraqlı suallar verərdik. Aktyorların adlarından tutmuş müxtəlif hadisələrə

qədər olan süjetlər həmin sualların canını təşkil edərdi. "Əhməd haradadır?" kinosuna baxıb kəndə qayıdırdıq. Yuxarı sinif şagirdlərindən biri sual verdi ki, bəs Əhmədin sürdüyü maşının nömrəsi neçədir? Çox çətinliklə olsa da, biz həmin nömrəni aydınlaşdıra bildik. Maşının nömrəsi indi də yadımdadlr: 46-44 AZQ!

Su, işıq, yol kimi məsələlər nə qədər çətinliklər törətsə də, oxumaq, təhsil almaq məsələsində heç bir problem olmurdu. Oxumaq bizim kəndin əsas yarışı idi. Pambıq, üzüm yığırdıq, tənbəki düzürdük, ot çalırdıq, quzu otarırdıq, amma oxumaqdan da heç vaxt geri qalmırdıq. Cavanlara, lap elə övladlarına nümunə üçün, mənim atam 50 yaşında 3 il həftədə 4 dəfə qonşu kəndə gecə məktəbinə gedib kamal attestatı almışdı. Bu, evimizdə oxumağa həvəs yaratmağın əməli nümunəsi idi.

# I FƏSİL

## QƏBUL

Son zəngə bir neçə həftə qalmış geyim-keçimimi qaydaya saldım. Mənim geyim-keçimim İrəvandan aldığım ağ neylon köynəkdən, rayon mərkəzində işləyən dərziyə tikdirdiyim trapes şalvar və bir də bazarın içərisindəki mağazadan güclə tapdığım 42 ölçülü qara ayaqqabıdan ibarət idi. Amma Bakıya qəbul imtahanına gedəndə onların heç birini götürmədim. Əvvəlki paltarlarımın içərisindən xoşuma gələnlərini seçib çamadanıma yığdım. Anamın: "niyə təzə köynəyk-şalvarını götürmürsən?" – sualına "universitetə qəbul olandan sonra geyəcəm", – cavabını verdim. O, adəti üzrə "inşallah" dedi.

İmtahanlara 15 gün qalmış yır-yığış eləyib atamla birgə Bakıya yollandıq. Müvəqqəti bir yer tapıb qalmaq o qədər də problem olmayacaqdı, çünki şəhərdə yaşayan qohumumuz qaldığı həyətdə bizim üçün otaq kirayələmişdi. Həyətin sağ tərəfində – küncdə yerləşən üç pəncərəli otağımız geniş və rahat idi.

Səhəri gün hazırladığım sənədləri götürüb universitetə getdim. Məqsədim sənədlərimi filologiya fakültəsinə vermək idi, amma həmin fakültəyə sənəd verənlərin sayı getdikcə çoxalırdı. Universitetin girişində asılmış göstəricilərə baxanda diqqətimi şərqşünaslıq fakültəsi cəlb etdi. Orada üç ixtisas var

idi: türk, fars, ərəb. Hər bir ixtisas üzrə 9 plan yeri ayrılmışdı ki, bu ixtisaslara verilən sənədlər də plan yerlərindən bir az, – təxminən üç-dörd sənəd, – artıq idi. Sənədlərin azlığı məni həmin ixtisaslardan birinə sənəd verməyə həvəsləndirirdi. Ona görə də birdən ağlıma gəldi ki, bəlkə, şərqşünaslıq fakültəsini seçim, mənim üçün oraya qəbul olmaq heç də çətin olmazdı. İnanırdım ki, bir yer uğrunda 2-3 abituriyent mübarizə aparsa da, lazımi qiymətləri alıb qəbul olardım. Fikrimi qohumumuza dedim, o da xeyli düşünəndən sonra bildirdi ki, bu məsələni məsul katiblə məsləhətləşmək lazımdır. Günortadan sonra məsul katiblə görüşdük. İstəyimi ona deyəndə o, sual verdi ki, həmin fakültəyə sənəd verməkdə məqsədin nədir? Cavabım belə oldu: oraya sənəd verənlərin sayı azdır.

Məsul katib fikrə getdi, sonra azca gülümsündü və soruşdu:

– Sən buraya gəlməmişdən qabaq sənədlərini hansı fakültəyə vermək istəyirdin?

– Filologiya fakültəsinə.

– Get, sənədlərini elə həmin fakültəyə də ver.

– Axı, orada sənəd verənlərin sayı çoxdur? – yenə dilləndim.

– Oğlum, elə burada da çoxdur! – deyə cavab verdi.

Mən bir şey anlamasam da, deyəsən, qohumum nəsə başa düşdü və mənə işarə elədi ki, gedək. Biz sağollaşıb çıxdıq. Bayıra çıxan kimi qohumum bircə cümlə dedi: “ora məsləhət deyil”.

Sənədlərin götürüldüyü idman zalına gəldik. Axşamüstü olduğuna görə xeyli sakitlik idi. “Filologiya fakültəsi” yazılan stolun ətrafı isə tamam boşalmışdı. Yaxınlaşıb sənədlərimi təqdim etdim. Oradakı xanım bütün sənədlərə diqqətlə baxandan

sonra "Pioner" jurnalının bir vərəqi üzərinə yapışdırdığım məqalələri mənə qaytarıb dedi:

– Bunların əhəmiyyəti yoxdur.

Mən əvvəlcə jurnalistika fakültəsinə hazırlaşırdım. Jurnalistika fakültəsində oxuyan və sonra bütün ömrü boyu rayon qəzetində məsul katib işləyən dostum Cəfər Əliyev demişdi ki, qəbul zamanı həmin fakültədə məqalələri çap olunan uşaqlara üstünlük verirlər. Ona görə də müxtəlif mövzularda xeyli məqalə yazıb rayon və respublika qəzetlərində çap etdirmişdim. Həm də bu müddətdə rayon qəzetinin əməkdaşları ilə yaxşı ünsiyyətim yaranmışdı. Onuncu sinifdə oxuyanda redaksiya ilə bağlı bir qəribə hadisənin şahidi oldum. Qəzetin jurnalist redaktorunu çıxarıb oraya bir ədəbiyyat müəllimini təyin etdilər. O vaxta qədər heç ağlıma gəlməzdi ki, jurnalistləri kənara qoyub ədəbiyyat müəllimini redaktor təyin edərlər. Elə həmin vaxtdan da fikrimi dəyişdim, sənədlərimi filologiya fakültəsinə verməyi qərarlaşdırdım. Düşündüm ki, filologiya fakültəsini qurtarsam, iki ixtisas qazanaram. Yəni həm dil-ədəbiyyat müəllimi olaram, həm də jurnalist, amma jurnalist ixtisasına yiyələnsəm, dil-ədəbiyyat müəllimi işləyə bilmərəm.

Sənəd götürən müəlliməyə (sonralar öyrəndim ki, adı Bilqeyis xanımdır) üzümü tutub dedim:

– Xahiş edirəm, götürün, bəlkə, xeyiri oldu.

Bilqeyis xanım yalvarış dolu sifətimə çox diqqətlə baxaraq nəzərlərini mənə yönəltdi, – o zaman boyca çox balaca idim, məktəbi vaxtından əvvəl qurtarmışdım, – sonra isə nə düşündüsə "yaxşı" deyib məqalələrimi sənədlərin içərisinə qoydu. 50 yaşım tamam olanda universitetin arxivinə gedib həmin məqalələri istədim. Arxiv işçiləri səliqə ilə qorunub saxlanan məqalələri mənə verəndə zarafatla: "Məndə olsaydı, indi çoxdan itib-batmışdı", – deyib minnətdarlığımı bildirdim.

Bir-iki gün sonra bizimlə qonşuluqda kirayə qalan və əslən Borçalıdan olan Milisioner Söhbətin əmisi və əmisi oğlu gəldi. Əmisi oğlu Politexnik İnstitutuna sənəd verəcəkdi. Atası xeyli pul gətirmişdi, pulu da gizlədib eləməmişdi, açıq-açığına o vaxtlar dəbdə olan hamam çamadanının içində sandığın üstünə qoymuşdu, oğlu haçan istəyirdi çamadanın qapağını qaldırıb pul götürürdü, adamın üstündə Allah var, bizə də icazə vermişdi, amma biz gözütox adamlar idik. Bir gün sonra eyni sinifdə oxuduğumuz Məmmədin də buraya gəlişi heç bir problem törətmədi, Məmmədin gələcəyini əvvəlcədən bilən qohumumuz onu da yerləşdirdi.

Mənim dərs oxumağa o qədər də həvəsim yox idi, gop olmasın, dərsi təkrar eləməyə ehtiyac duymurdum, il boyu yaxşı hazırlaşmışdım. Bunu hiss edən Milisioner Söhbət ara-sıra mənə gəzmək təklif edirdi, bu da, əsasən, onun istirahət günlərinə düşürdü, çünki bir gün işləyib iki gün evdə qalırdı. Mən də tərəddüdsüz və sevinclə onun təklifi ilə razılaşırdım. Milisioner Söhbət əvvəlcə dükan-bazara girər, yemək üçün ayın-oyun alar, sonra yaşadığımız yerdən çox da uzaq olmayan Yasamaldakı Qanlı gölün ətrafındakı tək armud ağacının altına gedərdik. O, hərdən özünə çaxır götürərdi. Biz həmin armud ağacının altında göy çəmən üzərində uzanıb istirahət edər və göldəki qurbağaları tapança ilə vurardıq. Milisioner Söhbət bir qutu ehtiyat patron götürərdi, mənə deyərdi ki, tapançayla göldəki qurbağaları vur. Əvvəllər dəqiq ata bilməsəm də, yavaş-yavaş öyrəndim. Ağacdakı quşları vurmaq istəyəndə o, ciddi görkəm alıb: “qətiyyən olmaz”, – dedi. Sonra izah elədi ki, quşları vursan, səsi kənardan eşidib biləcəklər ki, haradasa tapança açılıb və onu axtaracaqlar, qurbağanı vuranda su tapança səsini udur. Sonralar universitetin dördüncü kursunda bizi iki aylıq hərbi hazırlıq üçün Neftçalaya aparmışdılar, orada tapançadan atəş

açmağıma və hədəfi dəqiq vurmağıma hərbi hazırlıq müəllimimiz mayor Maneviç xeyli təəccüblənmişdi, inana bilmirdi ki, mən bu qədər dəqiq ata bilərəm.

Milisioner Söhbət ən maraqlı əhvalatlar danışırdı, danışdıqca da həyəcanlanırdı. Sovet hökumətini çox istəyirdi, hətta elə həmin günlərin birində Amerika kosmonavtı Armstronqun Aya enməsi onu yandırıb-yaxmış və əməlli-başlı təbdən çıxarmışdı. Deyirdi ki, kosmosa ilk dəfə biz uçaq, amma Aya ilk dəfə onlar adam göndərsinlər, bu, kişilikdən deyil. Milisioner Söhbətlə axşam evə qayıdanda atam üstümə hirslənərdi ki, bax, bu uşaqlar bütün günü oxuyur, sən oxumursan, imtahanlardan kəsiləcəksən, gedib kənddə biabır olacağıq.

İlk imtahanımız ədəbiyyatdan yazılı imtahan oldu. Bizi böyük bir zala yığmışdılar, 200-300 nəfər olardıq. Qarşıda bir neçə yazı taxtası qoyulmuşdu. Yazı taxtalarının çoxluğu variantların çox olacağından xəbər verirdi. Doğrudan da, üç zərf açıldı, hər zərfdə iki variant var idi. Variantlar bütün yazı taxtalarına yazıldı və qayda müəyyənləşdirildi ki, hansı sırada oturanlar yazacağı mövzuları hansı variantlardan seçə bilərlər. Mən belə bir mövzu seçdim: “Cəfər Cabbarlı Azərbaycan sovet dramaturgiyasının banisidir”. Mövzu mücərrəd mövzu olmasa da, ona çox oxşayırdı. Çünki orta məktəbdə Cəfər Cabbarlının üç əsərini keçmişdik: “Almaz”, “Yaşar”, “Sevil”. Onların hər hansı birindən yazsaydım, asan olardı, amma indi üç əsəri əhatə eləməli idim.

Yanımda oturan qızın adı Samirə idi, Yevlax rayonundan gəlmişdi. Yaxşı şparqalkalar hazırlamışdı, mənə də təklif etdi, amma mənim mövzumla bağlı heç bir şparqalka yox idi. Bir də ədəbiyyat müəllimimiz bizi müstəqil şəkildə yazmağa öyrətmişdi, güman edirdim ki, çətinlik çəkməyəcəm. Samirə corabının içərisində gizlətdiyi kağızlar arasından seçdiyi möv-

zuya aid şparqalkasını tapandan sonra əlindəki kağızları harasa atmaq istəyirdi. Mən onları alıb partanın kitab-dəftər yerinin sol tərəfindəki küncə sıxdım. Samirə narahatlıqla dedi ki, müəllim gəlib onları tapsa, – əvvəldən hamıya şparqalkadan istifadə qadağan olunmuşdu, – səni imtahandan çıxarar, axı! Dedim, qorxma, müəllim heç vaxt bunu etməz, çünki o, yaxşı bilir, mənim yazdığım mövzu bir əsərə aid olmadığından ona şparqalka hazırlamazlar.

Yazı prosesi başlamışdı. Hamı başını aşağı salıb öz işi ilə məşğul olurdu. Bir müəllim mənə yaxınlaşıb yazıma diqqətlə baxdı, amma heç nə demədi. Beş-on dəqiqə keçəndən sonra o, yenə gəldi, bu dəfə yazdığım vərəqi götürüb gözünün önünə daha da yaxınlaşdırdı, inanmağı gəlməyən adamlar kimi başını o tərəf bu tərəfə tərpətdi. Dedi ki, nə üçün bu mövzunu seçmisən, bax, burada 300-ə qədər şagird var, onların heç biri bu mövzunda yazmır. Özünü çox çətinə salmısan, yaza biləcəksən? Asta səslə cavab verdim ki, müəllimimiz öyrədib, yazacağam. Onda vərəqi partanın üstünə qoyub dedi:

– Qaralamanı yazıb qurtarandan sonra gözlə, gəlib yoxlayacağam, sonra köçürərsən!

Yazımı tamamlayıb dərindən nəfəs aldım. Elə bil uzaqda dayanan müəllimin diqqəti məndə idi, o qurtarmağımı hiss edib birbaşa mənə tərəf gəldi. Yazdığım inşanı partanın üstündən götürüb diqqətlə oxumağa başladı. Bitirəndən sonra bir cümləni göstərib soruşdu ki, burada nida işarəsi olar, ya olmaz? Cümlə belə idi: "Sevil" əsəri ilə müəllif demək istəyirdi ki, ey Azərbaycan qadını, sev, Sevil!" Dedim ki, olar.

– Yaxşı, səliqə ilə köçür, – bunu üzünü birinci dəfə gördüyüm müəllim dedi. Həmin müəllim sonralar mənə universitetdə "Söz yaradıcılığı" fənnindən dərs deyən Samət Əlizadə idi.

Bir neçə gündən sonra inşa yazıların qiymətləri elan olundu, inşaya "dörd" yazmışdılar. Fakültəyə sənəd verənlərin on iki nəfərindən birinin qəbul olacağını bildiyimizə görə artıq mənim üçün müəyyən bir problemin yarandığını hiss etdim. Anladım ki, o biri imtahandan "dörd" alsam qəbul ola bilməyəcəyəm. Ərizə verib yazıya baxmaq məqsədilə universitetə getdim. Günortadan sonra məsul katibin qəbuluna düşə bildim. O dedi ki, sənəd verdiyiniz yerə yaxınlaş, bir azdan oraya gələcəm. Gedib orada gözləməli oldum. Heç on dəqiqə keçməmişdi ki, məsul katib gəldi və mənə ilk sualı belə oldu:

– Yazına niyə baxmaq istəyirsən?

– Düz yoxlamayıblar, qiymətimi aşağı salıblar.

– Nədən bilirsən?

– İmtahan verən günü inşanı yazıb qurtarandan sonra oradakı müəllimlərdən biri yazımı oxudu və sonra dedi ki, səhvin yoxdur.

– O müəllim kim idi?

– Tanımıram.

– Yaxşı, indi aydınlaşdırarıq.

Bilqeyis xanım sənədlərin içərisindən yazımı çıxarıb məsul katibə verdi. Məsul katib yazıya diqqətlə baxandan sonra mənə uzatdı. Birinci abzasda dörd sözün altından qırmızı xətt çəkilmiş, kənar hissədə qırmızı qələmlə sual işarəsi qoyulmuş, yazının axırında "dörd" yazılmışdı. Həmin abzas belə idi: "Cəfər Cabbarlı bahar ayında dünyaya gəlib. Onun ilk şeiri "Bahar" olub. Cəfər Cabbarlı həmin şeiri bahar ayında "Məktəb" jurnalında çap etdirib. Cəfər Cabbarlı Azərbaycan sovet dramaturgiyasına bahar gətirib". Bu cümlələri bizə orta məktəbdə ədəbiyyat müəllimimiz öyrətmişdi, universitet müəllimi isə hər cümlədə işlənən "bahar" sözünün altından xətt çəkərək mənə "dörd" qiymət vermişdi. Bu əhvalatı bizə üçüncü kursda dərs

deyən zaman Bəxtiyar Vahabzadəyə danışanda o dedi ki, gərək müəllim bu cümləni oxuyandan sonra yazının qalan hissəsinə heç baxmadan sənə “beş” yazaydı.

Gözüm məsul katibin üzündə idi, həyəcan keçirirdim, o da fikrə getmişdi. Bilqeyis xanım da yazımı nəzərdən keçirib heç nə demədən qovluğun içərisinə qoydu.

Məsul katib dilləndi:

– Sən haqlısan, oğlum, amma gəl, belə bir şərt kəsək. Sən qalan imtahanları da verirsən, əgər qəbul olmaq üçün bir balın çatmasa, sənin bu ərizəni qaldırıb nəticənə bir bal əlavə edərik.

Məsul katibə “çox sağ ol” deyib sevincək oradan aralandım. O zaman universitetdə qəbul imtahanlarının məsul katibi professor Şirməmməd Hüseynov idi.

İkinci imtahan ədəbiyyat fənnindən şifahi olacaqdı, çalışıb bu fəndən “beş” almalıydım. Əgər belə olsa, qəbul olmaq şansım da artacaqdı. Kirayə qaldığım həyətdə də məni “beş” almağa həvəsləndirirdilər, deyirdilər ki, sən “beş” al, qoy atandan bir qonaqlıq qoparaq, hətta Borçalıdan gələn kişi “qonaqlığı mən verəcəm” söyləyib irəli dururdu, amma atam heç nə danışmırdı, özümü sakit aparmağım atama müsbət təsir eləmiş, ona rahatlıq gətirmişdi.

Ədəbiyyatdan şifahi imtahanda bizimlə bir yerdə olan şagirdlərin, demək olar, üçdə biri yox idi, on nəfərə qədər uşaq yazılı imtahandan kəsilmişdi. Amma Samirə imtahan verənlərin içərisində idi. Ədəbiyyat imtahanında hər biletə üç sual yazılmışdı: ikisi ədəbiyyatdan, biri isə Azərbaycan dilindən idi. Mən biletlərimin suallarını danışmağa başlayanda Azərbaycan dili müəllimi harasa getdi, qadın müəllimə ilə üz-üzə qaldım. Birinci sualım M.Ə.Sabirin həyat və yaradıcılığı haqqında idi. Dərslikdə Sabir haqqında nə yazılmışdısa, hamısını danışdım.

Əslində müəllimə də buna şərait yaradırdı, o, birinci sualı qurtaranda mənə belə bir sual verdi:

– Sabirin şeirində işlənən "qare" sözü nə deməkdir?

– "Oxucu", – deyə cavab verdim.

– İkinci suala keç, – müəllim dilləndi.

İkinci sualım rus ədəbiyyatından idi və Qoqolun "Müfəttiş" əsərindəki Xlestakov surəti haqqındaydı. Mən bu suala cavab kimi beş-altı cümlə hazırlamışdım: "Qoqol rus ədəbiyyatının görkəmli nümayəndəsidir. Onun ən məşhur əsəri "Müfəttiş" pyesidir. Xlestakov rus ədəbiyyatının məşhur surətlərindən biridir. Onun yaradıcılığı Cəlil Məmmədquluzadənin əsərlərinə təsir göstərmişdir. Cəlil Məmmədquluzadə "Qurbanəli bəy" hekayəsində belə bir epiqraf vermişdi: "Allah sənə rəhmət eləsin, Qoqol!"

Bunları söyləyəndən sonra dayandım. Müəllim mənə baxır, mən də gözlərimi onun üzündən çəkmirdim. Ağlıma gəldi ki, o, mənim bapbalaca boyuma baxır, ya da əynimdəki qolu qısa dama-dama köynəyimin qəhvəyi rəngindən duyğulanırdı, çünki o da qəhvəyi rəngli paltar geymişdi. Mən də düşünürdüm ki, mənim universitetə qəbul olunmaq taleyim elə indicə burada həll olunacaq. Ağlıma gəlirdi ki, Sabir haqqında danışığımı ürəyində saf-çürük edir, çünki bəzi məsələləri söyləyəndə çox məmnunluqla başını tərpədirdi. Mən də düşünürdüm ki, bu müəllimə rəhmli olmalıdır. Elə bu vaxt soruşdu:

– Bəs niyə danışmırsan?

– Müəllimimiz məktəbdə bu mövzunu bizə keçməyib, – çox sakit bir səslə dilləndim.

– Nə üçün?

– Deyirdi ki, qəbulda rus ədəbiyyatından sizə sual düşməyəcək, – səsim elə bil lap kallaşdı.

Müəllimə xeyli fikrə getdi. İndi artıq onun nə barədə düşünməsini tapmaq çox çətin idi. Elə bil arxayın idim ki, mənə lap aşağı qiymət yazmaz, çünki ortada Mirzə Ələkbər Sabir var idi, yazsaydı işlər korlanacaqdı. Yəqin müəllimə Azərbaycan ədəbiyyatına aid imtahanda rus ədəbiyyatından sual düşməsinə təəccüb edirmiş.

Müəllimə dilləndi:

– Onda sənə başqa suallar verəcəyəm.

Suallar həddindən artıq çox oldu və onların çoxluğunun əsas səbəbi Azərbaycan dili müəlliminin gəlib çıxmaması idi. Müəllimənin verdiyi sonuncu sual beləydi:

– Səməd Vurğunun şeirləri nə üçün bizə xoş gəlir?

Dərslikdə Səməd Vurğunun yaradıcılığına aid qara şriftlə yazılmış bir cümləni əzbər dedim: “Səməd Vurğunun yaradıcılığında yüksək ideyalılıqla yüksək bədiilik birləşir”. Müəllimə də elə bil əzbərdən “əhsən” dedi. Doğrusu, cümlə müəlliməyə də, mənə də xoş gəldi, amma yüksək ideyalılığın və yüksək bədiiliyin nədən ibarət olması haqqında dəqiq təsəvvürüm yox idi, o, bu barədə soruşsaydı cavab verə bilməyəcəkdim. Xoşbəxtlikdən qapı açıldı, Azərbaycan dili müəllimi içəriyə daxil oldu. O, hələ uzaqda ikən müəllimə başını mənə tərəf əyib yavaşca dedi.

– Sən iki sualın ikisini də danışmısan.

Azərbaycan dili müəllimi stula oturan kimi soruşdu:

– Ədəbiyyatdan necə danışdı?

Müəllimə dedi:

– Hər iki suala əla cavab verdi.

– Onda cümləni təhlil eləsin.

Biletimdə olan cümlə belə idi: “Evlərin bacasından çıxan tüstü burula-burula kəndin üstündən uzaqlaşırdı”. Cüm-

ləni sintaktik təhlil eləyib qurtaran kimi Azərbaycan dili müəllimi "əla" dedi və mənə "əla" yazdılar.

Mən beşinci kursda oxuyanda universitetin böyük akt zalında professor Fəridə Vəzirovanın anadan olmasının 50 illiyini qeyd edirdilər. Fakültə dekanı əvvəlcədən mənə demişdi ki, sən tədbirdə çıxışa hazırlaş, həm də gül alarsınız, sənin çıxışından sonra qızlardan biri gülü Fəridə xanıma təqdim edər.

Səhnədə qoyulmuş kürsünün yanına gəldim. Tədbiri aparan rektor və Fəridə xanım səhnənin bir tərəfində kresloda oturmuşdular, qarşılarında isə üstü kitabla dolu miz var idi. Fəridə xanımın müəllimlik keyfiyyətlərindən danışdım, sonra isə dedim:

– Hörmətli rektor və tədbir iştirakçıları, sizə bir sirr açmaq istəyirəm.

Rektorla Fəridə xanım diqqətlə mənə baxırdılar, zal susqun vəziyyətdə idi. Qəbul imtahanındakı hadisəni olduğu kimi danışdım və çıxışımı bu sözlərlə qurtardım:

– Əgər Fəridə xanım olmasaydı, mən indi sizin qarşınızda çıxış edə bilməzdim.

Fəridə xanım kreslodan qalxıb mənə tərəf gəldi, gözləri yaşarmışdı. O, məni qucaqladı və kürsüyə yaxınlaşıb kövrək səslə bu sözləri dedi:

– Mən beş ildir ki, auditoriyalarda səni axtarıram, sən harada idin?

Alqış səsləri az qalırdı salonu yerindən qoparsın.

Tarix imtahanına ciddi hazırlaşmışdım və universitetə qəbul olmağım da bu imtahandan çox asılı idi. Biz imtahan otağına toplaşanda cəmisi 12-13 uşağın qaldığının şahidi oldum. İmtahan başladı. Uşaqlar biletlər üzrə hazırlaşıb cavab verirdilər. Arxa sırada Samirə ilə yanaşı oturmuşdum. İmtahan verən abituriyent müəllimin hər hansı bir sualına cavab verə

bilməyəndə yerimdən mən cavab verirdim. Müəllim mənə xəbərdarlıq eləmədiyi üçün danışmağa daha da həvəslənirdim. Fikirləşirdim ki, yəqin bu cavabların qiymətimə müsbət təsiri olar. Dördüncü abituriyentin bilmədiyi sualın cavabı haqqında danışanda elə bil müəllim fikirləşdiyimi duyub üstümə qışqırdı:

– Bəsdir, tərbiyən olsun, qoymayacaqsan imtahan götürək?! Gəl, özün bilet çək!

Heç bir müəllim indiyə qədər mənim üstümə belə qışqırmamışdı. Onda yüksək qiymət alacağım haqqındakı bütün ümidlərim çilik-çilik oldu, müəllimin birdən-birə qəzəblənməsi məni çətin vəziyyətə saldı. Əgər tarixdən "üç" alsaydım, universitetə qəbul olmağım yenə sual altına düşəcəkdi.

Müəllimin stoluna yaxınlaşıb bilet çəkdim. Suallar çox asan idi, birbaşa cavab vermək üçün müəllimin qarşısındakı boş stulda oturdum. Öz-özümə fikirləşirdim ki, hazırlaşmadan cavab versəm, qiymətimə müsbət təsiri olar. Müəllim soruşdu:

– Nə üçün burada oturdun.

– Birbaşa cavab vermək istəyirəm, – dedim.

– Ay bala, görürsən bu ağ kağızları, – stolun üstündəki kağızları göstərdi, – bunlar möhürlüdürlər, cavablarını həmin kağıza yazmasan, sənə qiymət verə bilmərik.

Həmin kağızlardan ikisini götürüb biletlərini hazırlayan uşaqların yanına keçdim. Müəllimin sağ tərəfində ona yaxın olan partada oturdum. Hər bir sualı necə danışacağımın planını yazdım, sonra isə imtahanın gedişinə qulaq asmağa başladım. Qarşısındakı uşaq cavab verib qurtaran kimi müəllim üzünü mənə tərəf tutub soruşdu:

– Niyə yazmırsan?

Kağızları göstərib dedim ki, hər bir sualın planını tutmuşam, burada nə qədər otursam da, ondan artıq heç nə yazmayacağam. O, eyhamla baxıb hirslə dedi:

– Gəl, danış!

Müəllimin qarşısındakı stulda oturub sualların üçünü də heç bir fasilə vermədən dalbadal danışdım. Hər sualın cavabından sonra da xüsusi şəkildə deyirdim ki, sualın cavabını qurtardım. Bunu ona görə edirdim ki, müəllim mənə aşağı qiymət versə, etirazımı bildirib deyəcəkdim: mənə aşağı qiymət verə bilməzsən, çünki biletin bütün suallarını danışmışam.

Birdən müəllim dilləndi:

– İndi sənə əlavə suallar verəcəm.

Müəllimin suallarının hamısına cavab verdim. Sonra dedi:

– İndi sənə axırıncı bir sual verəcəm, bilsən “beş” yazacağam, bilməsən “dörd” alırsan. Bayaq fikirləşdiyim məsələ işimə yaradı, etiraz edib dedim ki, niyə “dörd” yazırsınız, biletin bütün suallarına axıra qədər cavab vermişəm.

Müəllim dediyindən dönməyib bildirdi:

– Yox, bu sualıma cavab versən “beş”, cavab verə bilməsən “dörd” yazacağam.

Mən dedim:

– Sualınızı verin.

– Müəllim bir qədər düşünəndən sonra mənə qəribə-qəribə baxaraq soruşdu:

– İmperialist müharibələri hansılardır?

Mən də müəllimin üzünə çox qəribə şəkildə baxaraq cavab verdim:

– Müəllim, mən SSRİ tarixindən imtahan verirəm, amma siz mənə Yeni tarixdən sual verirsiniz.

– Nə dəxli var, sən tarixdən imtahana gəlmisən, öyrənməliydin, – deyə müəllim xeyli ciddiləşdi.

– Axı, mən tarix fakültəsinə imtahan vermirəm, – deyib yenə də etirazımı bildirdim.

Müəllimin əlinə fürsət düşmüşdü, elə fikirləşirdi ki, mən sualı bilmirəm, ona görə də daha sərt şəkildə üstümə gəlib ucadan, bir az da qəzəblə soruşdu:

– Demək, bilmirsən!

Bıçaq sümüyə dirənmişdi, müəllim qələmi də əlində tutmuşdu, hiss edirdim ki, "dörd" yazmaq istəyir. Ona görə də çox rahatlıqla dedim:

– İmperialist müharibələri Rus-Yapon və İngilis-Bur müharibələridir.

Müəllimin qələmi əlindən stolun üstünə düşdü, ağır bədənini yavaş-yavaş stolun altına çəkdi və o an gözümdə çox kiçildi. Buna baxmayaraq, yenə dilləndi:

– İngilis-Bur müharibəsi nə üçün baş vermişdi?

Bu zaman onun yanındakı assistent müəllimin qolundan tutub dedi:

– Müəllim, axı, sən bir sual demişdin!

– Yox, qoy bu suala da cavab versin, – müəllimin güclə eşidiləcək səsi gəldi.

Mən cavab verdim:

– Bur Afrikada bir ölkədir, orada çoxlu faydalı qazıntılar, xüsusilə əlvan metallar, qızıl, brilyant olduğuna görə ingilislər oranı tutmağa cəhd edirdilər.

Müəllim assistentə üz tutub astaca dedi:

– Beşini yaz getsin.

Çətin olsa da, imtahandan çox böyük uğurla çıxdım.

Xarici dil imtahanımız amfiteatra oxşar bir auditoriyada aparılırdı. Filologiya fakültəsinə sənəd verib kəsilməyənlər üç sıraya bölünmüşdülər. Birinci sırada ingilis, ikinci sırada alman və üçüncü sırada fransız dilindən imtahan götürülürdü. Mən fransız dilindən imtahan verirdim.

Müəllimə bilet çəkmək üçün uşaqlara səsləndi. Qarşı sırada oturanlardan üç nəfər gedib bilet çəkdi. O, dördüncü uşağın da gəlməsini istədi, amma heç kəs getmədi. Müəllimə bərk əsəbiləşdi və qızlardan birini əli ilə göstərərək bilet çəkməsini tələb elədi. Qız narazı halda ayağa qalxıb könülsüz-könülsüz irəliyə yeridi. Müəllimə bununla da kifayətlənməyib yenə bir nəfərin gəlməsini istədi. Onun çığır-bağırına baxmayaraq, hamı yerində oturmuşdu. Vəziyyətin gərginləşdiyini görüb oturduğum arxa sıradan qalxıb yavaş addımlarla bilet çəkməyə getdim. Ürəyimdə fikirləşirdim ki, hamının qorxub bilet çəkmədiyi bir vaxtda cəsarətlə getməyim müəllimədə mənə qarşı müsbət fikir yarada bilər.

Həmin vaxt məndən əvvəl cavab verən qızların vəziyyətini həmişə ürəkağrısı ilə xatırlayıram. Adını bilmədiyim birinci qız suallara yaxşı cavab verməmişdi, amma ona üç yazmaq olardı. Qız da ciddi cəhdlə üç almaq istəyirdi. Əslində müəllimə də tərəddüd içərisində idi. İmtahan verən qızın cəhdi müəllimədə xüsusi maraq yaratdı və o soruşdu:

– Axı, bu üçü neynirsən, onsuz da qəbul üçün sənin balın çatmayacaq!

Qız ağlamsınaraq: “Müəllimə, mən rayona gedən kimi hamı soruşacaq ki, kəsilmisən, yoxsa konkursa düşmüsən?” – cavabını verdi. (O zaman qəbul komissiyasının məsul katibi olan Şirməmməd Hüseynov “konkursa düşmək” ifadəsini eşidən kimi deyirdi ki, konkurs məgər boçkadır ki, oraya düşəsən?)

Müəllimə təəccüblə: “Ay qızım, bunun nə mənası var, müsabiqədən keçmədin, yaxud kəsildin?”, – soruşdu.

Qız yazıq-yazıq dilləndi:

– Bizim kəndimizdə kəsilənləri lağa qoyurlar. Bütün imtahanlardan qiymət alıb qəbul olmayanların isə az-maz hörməti olur.

Müəllimə fürsət gözləyirmiş kimi “qoy səni lağa qoysunlar, eybi yox, yaxşı hazırlaşıb gələn il təzədən gələrsən”, – deyib qıza iki yazdı. Ağlaya-ağlaya auditoriyanı tərk edən qızın hıçqırıqları hələ də qulaqlarımdadır.

İkinci qız Samirə idi. Samirənin vəziyyəti birinci qızdan acınacaqlı oldu: O, tam cavab verməsə də, ona üç yazmaq olardı, əslində o da üç istəyirdi. Qızlara üç vermək məsələsini belə qabartmağımın səbəbi budur ki, orta məktəbdə bizə fransız dilindən dərs deyən Əli müəllim şagirdlərə dörd, beş qiymətlərini çətinliklə versə də, bir az bilənə üç yazardı, özü də buna “tramvay altında qalmış üç” deyərdi.

Xülasə, fransız dili müəlliməsi: “Sən niyə üç almaq istəyirsən? Üç alsan da, sənin qəbul olmağa balın çatmır”, – deyib diqqətlə onun üzünə baxdı. O da gözlərinin yaşını axıdaraq üç almağın minnətini yaşayırdı. Çox güman Samirə: “Yaxşısı budur, heç danışmayım, qoy müəllimə özü qərar versin!” – düşüncəsinin altında əzilirdi. Fransız dili müəlliməsi bir az da qəzəblə soruşdu:

– Üç sənin nəyinə lazımdır? Deməsən, iki yazacağam!

Samirə müəllimənin sözlərində bir işıq görüb dilləndi:

– Müəllimə, mən ikinci ildir ki, qəbula gəlirəm. Keçən il kəsiləndən sonra kolxozda işləmişəm. Bir illik əmək stajım olduğu üçün mənə bir üç lazımdır, qəbul olacağam.

Müəllimə yanındakı assistentindən soruşdu:

– Uşaq doğru deyir? Elə qayda var?

Assistent başı ilə qızın fikrini təsdiqlədi. Müəllimə üzünü ayaq üstə dayanan Samirəyə tərəf tutub astaca dedi:

– Demək, üç alsan, qəbul olacaqsan?

Müəllimənin əvvəlki sözlərindən aldığı işığı hələ də ürəyində yaşadan Samirə bir az da cəsarətlə: “Bəli, müəllimə”, – cavab verdi.

Müəllimə hirslə dilləndi:

– Deməк, bizə kələk gəlirmişsən. İki alırsan, gedə bilərsən!

Müəllimənin qəfil dediyi bu sözlər Samirənin bir az bundan qabaq içində qoruyub saxladığı işığı zülmətə çevirdi. Dərs dediyim tələbələrə tapşırmışam ki, əgər Samirəni, yaxud onun uşaqlarını tanıyan olsa, mənə xəbər versinlər. Hələ də bir xəbər yoxdur. Kaş bu yazını o, özü oxuyaydı.

Sonra mən gəlib müəllimənin qarşısında oturdum. Əslində mənim növbəm deyildi, amma düşündüm ki, bu iki qızdan daha yaxşı cavab verə bilərəm və doğrudan da, belə oldu, müəllimə dedi ki, o qızlara baxanda sən əla danışdın, sənə “əla” yazıram.

Sevincimin həddi-hüdudu yox idi. Axşamüstü atam qonaqlıq verdi, qonaqlıqda on-on beş adam iştirak edirdi. Şad, xürrəm evə gəldik. Birdən qohumum mənə sual verdi ki, sən özün gördünmü fransız dili müəllimi sənin “beş”ini imtahan vərəqinə yazdı? Dedim yox. Müəllimə mənə dedi ki, “beş” alırsan, mən də sevincək auditoriyanı tərk etdim, imtahan vərəqi müəllimənin stolunun üstündə qaldı, çünki axırıncı imtahan olduğuna görə vərəqələri yığırdılar.

Bu söhbətdən sonra bütün gecəni yata bilmədim. Bir tərəfdən fikirləşirdim ki, əgər müəllim deyibsə, elə də yazacaq, çünki o vaxtlar müəllimin yalan danışmağı heç kəsin ağlına gəlməzdi, yəni müəllimin “çörək yeməyib, su içmədiyi” zamanlar idi. Fikrimdən keçdi ki, bəlkə, Bakıdakı müəllimlər bizə dərs deyən kənd müəllimlərindən fərqlənir? Həm də “bu ola bilməz” deyə bir az ürəkləndim.

Səhər saat 6-da yuxudan durdum. Əhvali-ruhiyyəm məni universitetə doğru sürükləyirdi. Əslində universitetin səhər saat 9-da işə başlayacağını bilirdim, amma evdə də qalmaq istəmirdim. Gəlib universitetin yataqxanalarının sol tərəfindəki iri-iri daşların səpələndiyi boş əraziyə çatdım. Pilləkənlərlə deyil, həmin ərazidəki cığırla üzüaşağı düşməyə başladım. Qəflətən qarşıma bir sürü it çıxdı. Onlar düz cığırın ortasında uzanmışdılar. İrəli getmək mümkün deyildi, geriyə də qaçmaq olmazdı, nənəm həmişə bizə öyrədirdi ki, əgər qaçsanız, it dalınızca düşəcək. Tüklərim biz-biz oldu. Yavaşca yanımdakı böyük bir daşın üzərində oturdum, daş hündür idi, ayaqlarım yerə çatmırdı, ağlıma gəldi ki, itlər hücum eləsə, daşın üzərinə qalxaram. Bu, sadəcə olaraq, özünə təsəlli vermək variantı idi. O qədər itin hücumundan yaxa qurtarmaq mənim üçün çətin olacaqdı. Başqa bir variantım kəmərimi açıb çıxartmaq, mümkün qədər itlərdən onunla müdafiə olunmaq fikri idi. "Can şirin olar" deyimini düşünmədən necə xilas olmağı planlaşdırırdım. Bir də məni narahat edən ciddi bir məsələ var idi: əgər itlər məni param-parça eləsəydilər, "İmranın oğlu universitetə qəbul olandan sonra Bakıda itlər onu parça-parça eləyibdir", – deyəcəkdilər.

Mənlə itlər arasında tam sükut var idi. Onların bəziləri gözlərini məndən çəkmirdilər. O qədər diqqətlə baxırdılar ki, sanki indi durub qaçacağam, onlar da mənim dalımca düşəcəklər. Biri bədəncə lap böyük idi, sərələndiyi yerə digər itlərdən ikisi-üçü yerləşərdi. Rəngi sapsarıydı, qalın tükləri vardı, tükləri səliqəli idi, elə bil daraqla daramışdılar. Boynu, boğazı kök bədəninə uyğun gəlirdi. Bir suyu da yaylağa getdiyimiz vaxtlarda gördüyüm çoban itlərinə bənzəyirdi. Həm də ağlıma gəlirdi ki, çoban itinin Bakıda nə işi var?

Mənə ən yaxın olan it ala-bulaydı, yekə itin yarısından da balaca olardı. Böyrü üstə uzanmışdı, qarın-qartası açıqca görünürdü. Başını yerə qoymuşdu, gözləri işıldayırdı, kənddəki qonşumuzun itinə oxşayırdı. Bu, mənim üçün tapıntı oldu. Belə ki, ayağı yerə tappıldadanda qonşunun iti dalına baxmadan qaçardı. Tam əmin oldum ki, mənə ən yaxın olan it üstümə gəlsə, ayağımı daşın üstünə bərk-bərk döyəcəm, qorxub qaçacaq, o birilər də onun dalına düşəcəklər. Birdən tappıltıya əhəmiyyət verməyib hücum eləsə, vəziyyətim necə olacaq? Yox, yox, o, hökmən qorxub qaçacaq, qonşumuzun itinin sortundandır, elə qorxaq olduğuna görə də sürünün ən axırında uzanmışdı.

Bir it də sürünün lap ortasında oturmuşdu, çünki uzansaydı o qədər hündür görünə bilməzdi. Rəngi qapqaraydı, bu rənglə o sürünün içinə necə düşdüyünü bircə Allah bilərdi. Elə bil itlərin keşiyini çəkirdi. Amma onun mənə hücum eləyəcəyi ağlıma gəlmirdi.

Bunları düşünürdüm ki, yekəpər it ayağa qalxdı, mən də özümü cərcəmlədim, amma ayağa durmadım. Yekəpər it üzünü sol tərəfə tutub getməyə başladı, qalanları da tənbəl-tənbəl ayağa qalxıb onun dalınca düşdülər. Cığır təmizləndi, ağlıma gəldi ki, itlər gecə nəsə tapıb yeyiblər, tox idilər.

Universitetin həyətinə çatıb binanın başına dolanmağa başladım. Binanın yan hissəsində qoyulmuş sarı rəngli skamyada oturdum, vaxt çox ağır gəlib keçirdi. Nəhayət, qapıların açıldığını güman edib sənəd verdiyimiz idman zalına yaxınlaşdım. Qəbul sənədlərini götürənlərin hamısı yerində idi. Bilqeyis xanıma yaxınlaşıb dedim:

– Müəllimə, mən imtahanları qurtarmışam, pulum da az qalıb, kəndə gedəcəyəm. Bilmək istəyirəm ki, qəbul olacağam, ya yox?

Əslində fransız dili imtahanından aldığım qiyməti öyrənmək məqsədimi gizlətdim. Bilqeyis xanım da “sən həmənki oğlansan?” deyib dəmir seyfə doğru getdi, əlifba sırası ilə düzülmüş qovluqlardan birini gətirib açdı, içindən imtahan vərəqini götürüb fənləri və qiymətləri bir-bir oxumağa başladı. Nəhayət, “Fransız dili – əla” deyib üzünü mənə tutdu:

– Artıq sən qəbul olubsan, əlavə bir bala ehtiyacın yoxdur. Sentyabrın birində dərsə gələrsən.

Mən “sağ ol” deyib aralandım. Axşamüstü qatarla kəndə yola düşdük.

# II FƏSİL

## DAĞLI MƏHƏLLƏSİ

Bu məhəllə Yasamalda yerləşirdi. İndi onun qalıb-qalmamağı haqqında heç bir təsəvvürüm yoxdur. Çünki son vaxtlar həyət evlərini alıb onların yerində çoxmərtəbəli binalar tikirlər. Yolumu o tərəfə salıb həmin məhəllənin qalıb-qalmadığını dəqiqləşdirmək də olar, amma qorxuram ki, məhəlləni öz yerində görməyəm və tələbəlik illərindən üzü bəri gizli bir həsrətlə qoruyub saxladığım xatirələrim bir andaca yaddaşımdan silinib gedə.

Yasamaldakı bu məhəlləni bir tərəfdən Qanlı göl, bir tərəfdən Universitetin və Politexnik İnstitutunun yataqxanaları, o biri tərəfdən isə bazar əhatəyə almışdı. Bu məhəlləyə getmək üçün ən qısa yol Musabəyovun heykəlinin yanından idi. İndi yerində olmayan bu heykəlin üzü dənizə baxırdı, arxasında isə heykəldən yüz-yüz əlli metr uzaqlıqda həmin məhəllə başlayırdı. Heykəlin yanından yol düz gəlib həmin məhəllənin üstünə çıxırdı.

Açığını deyim ki, Yasamalda belə məhəllələr çoxdu. Amma bu məhəllənin mənim üçün özəlliyi onda idi ki, mən özüm bir neçə ilimi orada yaşamışam. Yasamaldakı hamam düz həmin məhəllənin yanında yerləşirdi. Məhəllədə kirayənişin qalan tələbələr öz tanış-bilişlərinə qaldıqları yeri tapmaq üçün məhz həmin hamamı nişan verərdilər. Hamam da elə əslində tələbələrin hamamı kimi tanınırdı. Çünki Universitetin və

Politexnikin yataqxanalarında qalan tələbələrin əsas hamamı bura idi.

Hamamda həmişə tünlük olardı. Hamama gələnlərin növbəsi azalmırdı ki, azalmırdı. Hamamda işləyən dolubədənli, bir az da ayağını çəkə-çəkə yeriyən bəstəboy, xoşsifət kişi (onun adı, düzü, yadımdan çıxıb) buraya gələn tələbələrin çoxunu adbaad tanıyırdı. Hətta onlarla məzəli-məzəli söhbətlər də edərdi. Müharibəyə getməsə də, əsas söhbəti müharibədən olardı. Söhbətlərində Hitlerin atasını yandırardı. Ən çox Məmmədbağır Bağırzadəni sevərdi. Mənə danışardı ki, bir gün evdəki divanda uzanıb istirahət edirdim, uşaqlar da aynabənddə televizora baxırdılar. Birdən qulağıma elə bir müğənni səsi gəldi ki, gözlərim bərələ qaldı. Divandan dik atılıb oturdum. Yadıma salmağa çalışdım ki, bu, kimin səsidi? Əvvəl düşündüm ki, Xan əmidir, yəni Xan Şuşinskidir. Sonra aydınlaşdırdım ki, yox, o deyil. Düşündüm ki, bəlkə, Əbülfətdir. Əbülfət Əliyevi deyirəm. Sonra fikirləşdim ki, yox, o deyil. Axırda qərara gəldim ki, Seyid Şuşinskidir. Durub yavaş-yavaş aynabəndə keçdim. Baxdım ki, heç Seyid Şuşinski də deyil. Oxuyan bir cavan oğlandı. Uşaqlardan soruşub öyrəndim ki, onun adı Məmmədbağır Bağırzadədir. Xülasə, həmin hamamçı bu əhvalatı, bəlkə, yüz dəfə, min dəfə danışmışdı, amma Bakıya təzə gələn və birinci kursda oxuyan tələbələrə yenə eyni həvəslə danışardı və bu söhbətlərindən heç yorulmazdı, bezməzdi. Yataqxanada qalan yuxarı kurs tələbələri hamama ilk dəfə gedən uşaqlardan Məmmədbağır Bağırzadəni tanıyıb-tanımadıqlarını soruşar, onların müsbət cavablarından məmnun qalardılar.

Vay-vay, yadıma düşdü, hamamçının adı Sədulla idi. Amma yenə bilmirəm ki, bu, onun öz adıydı, yoxsa ləqəbi. Hər halda maraqlı kişiydi. Bir dəfə də Politexnikin tələbələri ilə davaya çıxmışdı. Səbəb də bu idi ki, universitetin tələbələrindən

ikisi, deyilənə görə, nömrəyə növbəsiz girmişdi. Politexnikin uşaqları da hay-həşir salmışdılar ki, bəs onlar növbəsiz giriblər, nömrədən çıxsınlar. İçəridən də uşaqların səsi gəlirdi ki, biz artıq soyunub çimirik, bədənimiz yaşdı, bayıra çıxa bilmərik. Xülasə, Sədulla kişinin nüfuzu Politexnikin uşaqlarını birtəhər ki, sakitləşdirə bildi. Amma, öz aramızdı, yaman qoçaqlıq elədi. Çünki onlar nömrədən çıxsa idilər, möhkəm dava-dalaş olacaqdı. Onsuz da yataqxanaları bir-birinə yaxın olan Politexnikin və Universitetin tələbələri aranı araya qatıb tez-tez dalaşardılar. Hər dalaşma bir bəhanə ilə baş verərdi, əsl səbəbi isə heç kəs deməzdi. İndi bu dava-dalaşdan xeyli vaxt keçdiyinə görə əsl səbəbini mən deyirəm, qoy sirr kimi qalmasın. Tələbələrin davası qız üstündə olardı. Politexnikdə oxuyan qızların sayı az olduğuna görə oranın oğlanları tez-tez universitetin qızlar yataqxanasının ətrafında hərlənərdilər. Bu da tələbələr arasında qalmaqala səbəb olardı. Universitetin oğlanları yataqxanadakı qızların təəssübünü çəkərdilər.

Hamamda hamının çimdiyi bir ümumi otaq vardı və oraya "obşi hamam" deyərdilər. Bu otaq çox böyük idi, otuz-qırx adam eyni vaxtda çimə bilərdi. "Obşi hamam"ın baş tərəfində isə balaca bir otaq vardı ki, həmişə onun içində buxar olardı. Ürəyi istəyənlər o buxarın içinə girib özlərini bərk tərlədirdilər. Ən çox da güləşçilər yarışdan qabaq bu otağa girib çəkilərini aşağı salardılar. Bu, onlara özlərindən az çəkili güləşçilərlə yarışmağa imkan verərdi. Bir dəfə tələbələrdən biri buxarın içərisində çox qaldığına görə halı pisləşmişdi. Sədulla kişi ilə köməkləşib onu dəhlizə çıxardıq, yardım göstərdik, üstünə soyuq su tökdük. Dəhlizdə gölməçə əmələ gəlmişdi. Sədulla ucadan qışqırıb mənə deyirdi ki, o boynuyoğuna əlli dəfə demişəm ki, bu buxar otağını bağlatdır. Gərək biri ölə, ondan sonra ağlı başına gələ. Sədulla "boynuyoğun" deyəndə hama-

mın müdirini nəzərdə tuturdu. Xülasə, o əhvalatdan sonra Sədulla kişinin yanında mənim hörmətim birə on qat artmışdı.

Hamamdan bir az o tərəfdə Höcətulla kişinin həyəti başlayırdı. Höcətulla və Sədulla adları qafiyə olsa da, onların bir-biri ilə heç bir əlaqəsi yox idi. Bu məhəllənin əsasını Höcətulla kişi qoyduğuna görə elə onun adı ilə də adlandırılmışdı. Əsasını deyəndə ki, bu yerlər vaxtilə bomboş imiş. Bakının ən uzaq nöqtələrindən hesab edilirmiş. Buralarda adam-madam yaşamırdı. Höcətulla kişi özünün dediyi kimi itə-qurda beş-üç manat verib itlərin hürüşdüyü bu yerdə özünə ev tikdirmiş, ağac əkmiş və həyətini də ala-babat hasarlamışdı. Sonra kənddən-kəsəkdən gələn qohum-əqrəbasını yavaş-yavaş başına yığıb əməlli-başlı məhəllə yaratmışdı. Əsas dolanacağı həyətdə tikdiyi balaca otaqları tələbələrə kirayə verməkdən çıxırdı.

Məhəllədə hamamın əks tərəfində Zeynəbin dükanı yerləşirdi. Zeynəbin dükanı Sədullanın hamamından heç də az məşhur deyildi. Məsələ burasındadır ki, Zeynəbin dükanı "gecə" dükanı idi və ona "naçnoy mağaza" deyərdilər. Bu ətrafda olan mağazalar saat 7-də, uzaqbaşı saat 8-də bağlanardı. Ondan sonra ətrafda yaşayanların nəyəsə ehtiyacı olanda məhz bu dükana gələrdilər. Tələbələr buradan daha çox çörək, çay, qənd, kolbasa, kibrit, bir də arabir araqdan-çaxırdan alardılar. Zeynəbin dükanı o qədər də böyük deyildi. Olsa-olsa, 7-8 kvadratmetr olardı. Hətta dükan o qədər kiçik idi ki, Zeynəb müştərilərlə dü-kanın pəncərəsindən alış-veriş edərdi.

Nəinki məhəllədə, hətta Yasamalın bu tərəfində hamının tanıdığı Zeynəbin dükanının bir özəlliyi də vardı. Zeynəb tələbələr üçün "nisyə dəftəri" açmışdı. Tələbələr də Zeynəbə sədaqətli idilər, borclarını gec də olsa, gətirib verirdilər. Bu, tələbələrin ya təqaüd aldığı, ya da evlərindən pul gəldiyi vaxtlara düşərdi.

Nisyə dəftəri tələbələrin tanınmasında Zeynəbə çox kömək edirdi. Zeynəb də tanıyandan sonra onları öz adları ilə çağırırdı. Hərdən ərki çatan tələbələrə ayama da qoşardı. Zeynəbin çox sevdiyi bir söz də var idi: Yetim! Tələbələrin bəziləri, xüsusən də atasız olanlar bundan umu-küsü eləsə də, Zeynəb öz şakərini tərgitmirdi, elə bil uşaqlarla öcəşirdi. Amma heç kəs bir dəfə də olsun onun üzünə qayıtmazdı. Zeynəbin sözündə bir məhrəmlik, mehribanlıq var idi.

Bir bazar günü Politexnikdə oxuyan tələbələrdən birinin atası şəhərə oğluna baş çəkməyə gəlir. Bu kişi kolxoz sədri imiş. Sədr yataqxanada qalan oğluna bir xeyli pay-püş də gətirir. Amma heç yerə getmir, günorta çörəyini də oğlunun dostları ilə yeyir. Necə olursa, sədr öyrənir ki, tələbələrin Zeynəbin dükanına borcları var. Bir dəstə tələbə ilə dar yollardan keçərək Zeynəbin dükanına gəlir. Zeynəb nisyə dəftərini açıb oradakı uşaqların borclarının nə qədər olduğunu söyləyir. Sədr dəftərdə olan bütün borcları hesabladır, hamısını ödəyir və nisyə dəftərini bağladır. Həmin gün tələbələrin də, Zeynəbin də bayramı olur. Borc çox yığılanda tələbələr zarafatla deyərdilər ki, bir sədr dədəmiz gəlsəydi, Zeynəbdən xəcalətli qalmazdıq.

Nisyə dəftərinin bağlanması əhvalatını yaddan çıxarsaq, Zeynəbin halı heç də həmişə yaxşı olmazdı. Çünki Zeynəb çox vaxt "rayondan gələn bu yetimlərə nisyə mal verim, verməyim?" düşüncəsinin altında əzilərdi. Nisyələrini vaxtında ödəməyənlərə bir də mal verməyəcəyinə and içsə də, yenə ürəyi durmazdı, uşaqlar nə istəyərdilərsə, verərdi. Zeynəb bu dükandan nə qazanırdısa, bilmirəm, amma bir iş var ki, o, nisyə mal alan tələbələrə daha çox bağlanmışdı. Zeynəbə elə gəlirdi ki, bu uşaqlar olmasa, özü yetim qalacaq. Bunun da səbəbi o idi ki, Zeynəb dul qalmışdı, tək-tənha yaşayırdı, heç kimi yox idi.

Yaşadığı həyət müharibəyə gedib qayıtmayan ərinin mirası, dükan onun yadigarı idi.

Məhəllənin başqa bir tərəfində isə təndir çörəyi satılırdı. Bura Zibeydə xalanın "obyekti" idi. Zibeydə xala çörəyi çox gözəl bişirirdi. Üstünə küncüt səpdiyinə görə ləzzətli olurdu, yeməklə adam doymurdu. Az adam tapılardı ki, çörəyi alan kimi qırağından bir tikə qoparmasın. "O az adam" da tələbə qızlara aid idi, çünki qızlar ətrafdakılardan utanıb çəkinirdilər. Amma ikisi-üçü bir yerdə olanda onlar da gülə-gülə çörəkdən bir tikə qoparıb ləzzətlə yeyərdilər. Hərdən evə çörəyin yarısı gedib çatardı.

Zeynəbin dükanından fərqli olaraq Zibeydə xalanın "obyektinə" getmək adamdan xüsusi səy tələb eləyirdi. Əvvəlcə böyük həyətə girirdin, sonra sola burulub divarın dibi ilə düz on-on beş addım atırdın, sonra sağa dönürdün, beş-altı addım atıb sola dönürdün, yenə sola dönürdün və düz təndirəsərin başına gəlib çıxırdın. Təndirəsərə də girmək üçün xeyli əyilməli idin, çünki qapısı alçaq idi. Əslində Zibeydə xalanın bu "obyekti"ndən yola Zeynəbin dükanındakı kimi balaca pəncərə açmaq olardı, amma açmırdılar, pəncərə açmaq müftə deyildi.

Mən Şamama ilə bu hisli, paslı, tüstülü təndirəsərdə tanış olmuşam. O da mən qaldığım həyətdə – Höcətulla kişinin həyətində kirayənişin idi. Amma qismət elə gətirdi ki, biz burada – çörək növbəsinə duranda yaxından tanış olduq və Höcətulla kişinin həyətinə də aldığımız çörəkdən qoparıb yeyə-yeyə bir yerdə qayıtdıq.

Mən atası ispalkomda işləyən bu tələbə qızın adını olduğu kimi, dəyişdirmədən yazıram. Kimsə fikirləşər ki, adını olduğu kimi yazıramsa, onu tanıyanlardan birisi bunları oxusa, bu qız haqqında nə deyər? Yox, arxayınam ki, bu, mümkün deyil, ona görə ki, indi kitab, qəzet oxuyan yoxdur.

Mən Şamama ilə ikinci dəfə Zeynəbin dükanına gedərkən yol yoldaşı oldum. Əslində bunu Şamama özü təklif etdi. Hava qaranlıq idi. Mən də Höcətulla kişinin həyətindən – kirayə qaldığım həyətdən çıxıb küçədə dayanmışdım, siqaret çəkirdim. Höcətulla kişi həyətdə və kirayə evlərdə siqaret çəkməyə icazə vermirdi. Onun özü də, oğlanları da siqaret çəkmirdilər. Höcətulla kişinin kirayə verdiyi bir neçə otaq var idi ki, onlarda da, əsasən, qızlar qalırdı. Mən təsadüfən gəlib buraya düşmüşdüm. Bəlkə, yeganə adam idim ki, siqaret çəkirdim. Əslində mənim buraya gəlib çıxmağımın səbəbkarı Zibeydə arvadın bizdən yuxarı kursda oxuyan, dərnəkdən tanıdığım nəvəsi olmuşdu.

Xülasə, Şamama küçəyə çıxdı və mənə Zeynəbin dükanına getməyi təklif etdi, qaranlıqda tək getmək istəmirdi. Həmin vaxt öyrəndim ki, Şamama həkim olmaq istəyirmiş, amma birinci ili kəsilib. İkinci ili isə sənədlərini Universitetin biologiya fakültəsinə verib və qəbul olub. Özü də səmimi şəkildə etiraf edirdi ki, məhz bilə-bilə biologiya fakültəsinə girmişəm. Biologiya müəllimimiz bizə dərsləri yaxşı öyrətmirdi ki, gedib biologiya müəllimi olub rayona qayıdarsınız, mənim dərslərimi əlimdən alarsınız. Orta məktəbdə sidq-ürəklə mənə dərs deyən, neçə riyaziyyatçı yetişdirən riyaziyyat müəlliminin dərslərini sonralar öz şagirdləri əlindən aldılar və yarım stavka dərsin ümidinə qalan riyaziyyat müəllimi də çıxıb öz kəndlərinə getdi.

Şamama Zeynəbin dükanından bəzi şeylər aldı. Qayıdıb evə gələndə Höcətulla kişini düz darvazanın qabağında gördük. Elə bil orada durub məxsusi bizi gözləyirdi. Onunla salamlaşıb həyətə keçdik. Qaranlıq olduğundan Höcətulla kişinin sifətini görmədim və əhvalından xəbərim olmadı.

Bundan xeyli keçmiş şənbə günlərinin birində Sədullanın hamamına getmişdim. Mən hamamın qapısından çıxmaq

istəyirdim ki, Şamamanın da oradan çıxdığını gördüm. Başına ağ yaylıq bağlamışdı, əlində böyük torba da vardı. Torbanın böyüklüyünün səbəbini bilirdim. Qızlar, adətən, hamama gedəndə bəzi paltarlarını, döşəkağını da aparıb orada yuyurdular. Şamama ilə söhbət edə-edə həyətə yollandıq.

Bir xeyli bundan əvvəl Höcətulla kişinin Xarici Dillər İnstitutunda oxuyan qızı ilə də beləcə hamamın qarşısında rastlaşmışdım. Amma mən onunla birlikdə həyətə getmədim. Ayağımı sürüdüm ki, o, məndən qabağa düşsün və qabağa düşdü də. Deyəsən, bunu o, özü də hiss elədi. Höcətulla kişinin qızı adamın ağlını aparan elə bir güllü və uzun paltar geymişdi ki, həmin paltar onun topuqlarını örtürdü. Mən belə bir paltarı ilk dəfə böyük qardaşımın evinə gəlin gələn Qönçə bacıda görmüşdüm. İndi onlar qalsın bir tərəfə, amma mən Şamama ilə həyətə çatanda işin tərsliyinə bax ki, Höcətulla kişi yenə darvazanın qabağında idi. Elə bil qəsdən bizi gözləyirdi. Salamlaşıb həyətə keçdik. Bu dəfə Höcətulla kişinin narazı sifəti açıq-aydın göründü. Salamımızı almadı.

Bazar günlərindən biri idi. Mən səhər tezdən Axundov kitabxanasına getmişdim. Günortaüstü işimi qurtarıb evə qayıdırdım. Avtobusla gəlib “Lalə” kafesinin yanında düşdüm. Bu, o vaxtlar idi ki, “İnşaatçılar” metrosunun hələ izi-tozu yox idi. Yolun digər tərəfinə keçəndə Şamamanın da başqa avtobusdan düşdüyünü görüb ona yaxınlaşaraq salamlaşdım. Xalasıgildən gəlirdi. Birdən haradansa özümdə cəsarət tapıb Şamamaya dondurma yeməyi təklif etdim, qəribədir ki, o da razılaşdı. Bazarın yaxınlığında dondurma satılan yerə üz tutduq.

İki dondurma sifariş etdim, üzərinə də qızılgül mürəbbəsi tökdürdüm. Oturub məktəb illərindən, rayondan, dərsdən, kitablardan şirin söhbət edə-edə dondurma yeyirdik. Bir də nə görsək yaxşıdır? Bazardan çıxan və hər iki əli dolu olan Höcə-

tulla kişi yükünü yerə qoymadan dayanıb bizə baxırdı. Baxdı, baxdı və sonra da çıxıb getdi.

Dondurmanı yeyib qurtarandan sonra Şamama evə tərəf yollandı, mən isə Universitetin yataqxanasındakı bir il birgə qaldığımız uşaqların yanına getdim. Bir-iki saat orada ləngidim. Mənə lazım olan kitabı tapa bilmədim. Məyus-məyus məhəlləyə döndüm. Höcətulla kişinin həyətinə girəndə gözlərimə inanmadım. Otaqda nəyim vardısa, hamısı həyətin ortasına tökülmüşdü. Təkcə paltarlarım görünmürdü. Bu an Şamama həyətə çıxdı, mənə yaxınlaşdı, astaca:

– Evə gələndə gördüm ki, paltarların və kitabların həyətin ortasına tökülüb. Paltarlarını götürüb şifonerdən asmışam. Höcətulla kişi deyib ki, dəftər-kitabını da götürüb buradan rədd olsun, gözlərimə görünməsin, axırıncı ayın kirayə pulunu da istəmirəm.

Məni Höcətulla kişinin həyətindən Şamama ilə Höcətulla kişinin qızı yola saldılar. Həmin axşam oradan köçümü çəkib yenidən yataqxanaya qayıtdım. Yolda hamamın qabağında oturmuş Sədulla kişi salamımı almadı. O gündən sonra Zeynəb də mənə nisyə mal verməyi tərgitdi.

# III FƏSİL

## 204 NÖMRƏLİ AVTOBUS

O zaman Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsi indi İqtisad Universitetinin yerləşdiyi binanın sol tərəfində – Baksovetin qəbul otağı ilə üzbəüz olan hissəsində yerləşirdi. Universitetin yataqxanaları isə buradan xeyli uzaqda – Yasamalda olduğundan tələbələrin əsas çətinliyi yataqxanalardan fakültəyə necə gəlib-getmək idi. İndi bu, çox asandı. Yasamaldan metronun "İçərişəhər" stansiyasına getmək üçün Yasamalın yaxınlığındakı stansiyalardan birində metro qatarlarına minirsən və bir neçə dəqiqəyə gedib oraya çatırsan.

Tələbələr yataqxanalara iki yolla gedə bilirdilər. Bunlardan biri Filarmoniyanın yanından başlayan və 5 nömrəli trolleybusun getdiyi yol idi. Bu trolleybusa tələbələrin az bir qismi minərdi. Səbəbi də bu idi ki, trolleybus oradan baş götürüb nazlana-nazlana indiki Mətbuat prospektinə doğru hərəkət edərdi və gəlib yataqxanaların aşağısında dayanardı. Buradan da gərək pilləkənlə Yasamalın dikinə qalxaydın. Dərsdən yorğun çıxan tələbələrə bu, sərf eləmirdi. İnsaf naminə demək lazımdır ki, pilləkənlərin də öz azarkeşləri var idi. Bunlar, əsasən, təzə tanış olan tələbə qızlar və oğlanlar idi. Onlar sayı-hesabı bilinməyən pillələri asta-asta qalxar, şirin-şirin söhbət edər, bu pilləkənlərin qurtarmasını istəməzdilər.

İkinci yol – Marks bağının (indiki Fəvvarələr meydanının) yanından başlayan 204 nömrəli marşrut üzrə gedən avtobus idi. 204 nömrəli avtobusda 5 nömrəli trolleybusdan fərqli olaraq, həmişə basabas olardı. Buna baxmayaraq, bu marşrutu seçən tələbələrin sayı daha çox idi. Bunun səbəbi

avtobusun yataqxanaların yuxarı tərəfində dayanması idi. Bu zaman artıq pilləkənlərin əzabını çəkmək lazım gəlmirdi.

204 nömrəli avtobusun dayanacağının 6-7 metrliyində, yəni Marks bağının içində ciyər peraşkisi satırdılar, qiyməti cəmi 5 qəpik idi, amma çox dadlı olardı. Oğlanlar hərdən o isti peraşkilərdən alıb dayanacaqda ləzzətlə yeyərdilər, qızlar isə aldıqları peraşkiləri yataqxanaya aparardılar.

Qarlı günlərin birində dərsdən çıxıb əllərimizi ovuşdura-ovuşdura 204 nömrəli avtobusun son dayanacağına gəldik. Bizdən qoçaqlar artıq avtobus üçün növbəyə dayanmışdılar. Gözümün ucuyla peraşki satılan tərəfə baxdım, satıcı arvad qapağı qaldırıb peraşkiləri alıcılara verəndə qazanın içindən ağ buxar qalxırdı. İnanın ki, buxar qışın bu qarlı çağında elə bil adamın içini isidirdi. Qəribədir, bu gün heç kəs peraşki satılan tərəfə getmədi. Təqaüdə hələ xeyli vardı.

Bir azdan biz də avtobusa minməyə imkan tapdıq. Mən arxa qapıdan içəri keçib adamların arası ilə sürücünün lap yaxınlığına qədər irəliləyə bildim. İçəri dolu olduğundan bir neçə tələbə avtobusun qapısından sallana-sallana qaldı. Sürücü avtobusu sürmədi, sallanan uşaqlara qışqırdı ki, qapını buraxın. Uşaqlardan biri “səhər hamı sallanır, söz demirsən, indi səsin-küyün buranı götürüb”, – cavabını verdi. Bu sözlərin sürücüyə təsiri olmadı, o, kobud səslə qapının buraxılmasını tələb etdi. Bildirdi ki, qapılar bağlanmayınca avtobus getməyəcək. Avtobusun içindəkilər də qapıdan sallananlara irad tutdular. Hərə bir söz dedi. Kimi sallanan uşaqların üstünə təpinir, kimi də sürücünü ittiham edirdi. Heç bir söz demədən sakit dayananlar da var idi. Arxa qapının yanındakı tutacaqdan yapışan iki qızdan biri sallananlara dedi ki, icazə verin biz düşək, siz rahat minin, qoy avtobus getsin. Bu sözdən sonra sallananlar sakitcə ayaqlarını yerə qoyub avtobusun qapılarını buraxdılar. Qapılar

da sanki buna bənd imiş kimi bir-birinə dəyib bərkdən şaqqıldayaraq örtüldü.

Avtobus "Araz" kinoteatrının yanından irəlilədikcə silkələnir, adamlar öz yerlərini rahatlayırdılar. Belə vaxtlar həmişə kənddə "QAZ-51" yük maşınının üstündə səhər dərsə gedəndə adamların sıxlığını xatırlayır və sürücünün yüngülcə əyləci basmaqla hamını yerbəyer etməsi yadıma düşürdü. 204 nömrəli avtobusda digər avtobuslardan, yaxud Moskva metrosundan fərqli olaraq oturacaqlardan durmamaq, yerini yaşlılara verməmək üçün üzünə qəzet, jurnal tutub özünü görməməzliyə vuran sərnişin olmazdı. Kiçiklər böyüklərə, oğlanlar qızlara yer verərdilər. Bizdən aşağı kursda oxuyan Polad görmədiyi üçün oğlanlar, lap elə qızlar da yerlərini ona verərdilər. İndi də belə oldu. Polad dinməz-söyləməz təklif edilən yerdə oturdu. Sözə baxan olduğundan tələbələrin hamısı Poladın xətrini istəyərdi. Poladın şənlik məclislərində Əli Kərimin "İki sevgi" şeirini ürəkdən deməsi uşaqları ona daha çox bağlayardı:

...Gözəl qız, sən işıqsan,
Yurduma yaraşıqsan.
Mənsə səni sevirəm
iynənin ucu boyda
İşığa həsrət qalan
göz işıq sevən kimi...

Bu minvalla avtobus M.F.Axundov bağına çatdı. Bu bağ məndə xoş təəssürat yaratmışdı, həmişə bura çatanda həmin təəssürat təzələnirdi. Ağlınıza gəlməsin ki, mən bu bağda hansısa bir qızla tez-tez görüşüb onunla eşq macərası yaşamışam. Yox, bu təəssürat heykəlin aşağısında – postamentində olan yazı ilə bağlı idi. M.F.Axundovun heykəlinin üzərində yazıçının adı latın əlifbasında yazılmışdı və bu cəhətdən o, Bakıda, bəlkə də, ölkədə yeganə heykəl idi. Mən aşağı

kurslarda oxuyanda bir neçə dəfə gəlib heykəlin postamentində yazılmış o hərflərə diqqətlə baxmışdım. Ola bilsin, bu hərflər indi dayımın əzizləyə-əzizləyə saxladığı babam Əli Tağı oğlunun köhnə pasportunda olan hərflərə oxşadığı üçün mənə doğma gəlirdi.

Bakıdakı heykəllərin çoxusu şair və yazıçıların heykəlləri idi. Elə bil onların hərəsi bir tərəfdə dayanıb gecə-gündüz Bakıya keşik çəkirdi. Amma Sankt-Peterburqda, əsasən, çarların heykəlləri var. Danimarkalılar Kopenhagendə onların dilini xilas edən dilçilərə heykəl qoyublar.

Avtobus Dadaş Bünyadzadənin indi yerində olmayan heykəlinin yanından keçib sola dönəndə yadıma Məmməd Cəfər müəllim düşdü. Məmməd Cəfər müəllim bu küçədəki "Yazıçıların binası"nda yaşayırdı. Bir dəfə o, bizi 5 nömrəli trolleybusla Akademiyanın əsas binasına, Mirzə İbrahimovun "Pərvanə" romanının müzakirəsinə aparırdı. Mən Məmməd Cəfər müəllimdən soruşdum ki, müəllim, Bəxtiyar Vahabzadənin maşını da, sürücüsü də var, siz niyə maşın almırsınız? O da gülümsəyə-gülümsəyə dedi ki, hesablamışam, maşına və sürücüyə verdiyim pulu taksiyə versəm, ömrümün sonuna qədər çatar, hələ bir az da artıq qalar.

Həmin küçəyə çatanda bizim tələbələrin yadına tamamilə başqa bir hadisə də düşürdü. Bu da ondan ibarət idi ki, bir neçə həftə bundan öncə bu küçə ilə gedən hərbi maşın yolunu azıb universitetimizin professoru İnayət müəllimgilin evinin bir divarını uçurmuş, nəinki uçurmuş, hətta mətbəxə girmişdi. İnayət müəllim sürücü əsgərdən heç bir şikayət vermədən həmin divardakı pəncərələri də ləğv edərək yeni və möhkəm bir divar çəkdirmişdi. Uşaqlar həmin divara zarafatla "İçərişəhərin qala divarı" deyirdilər.

Avtobus bir az da irəliləyib Əzim Əzimzadə adına rəssamlıq məktəbinin yanından N.Nərimanovun heykəlinə tərəf döndü. N.Nərimanovun heykəli əzəmətli idi. O, sağ əlini ürəyinin üstünə qoymuşdu. Sizə deyim ki, heykəldə əl məsələsi çətin bir məsələdir. Çox vaxt heykəltəraşlar əlləri ifadə etməyin yolunu tapa bilmirlər və əllər bayağı görünür. Amma N.Nərimanovun əli onun həyatının mənasını ifadə etməyə imkan verirdi. Həmin gün avtobusda gedəndə mən heç bilmirdim ki, professor Abbas Zamanov N.Nərimanovun heykəlinin arxasındakı binada yaşayır, indi o binaya Abbas müəllimin xatirə lövhəsi vurulub.

Avtobus N.Nərimanovun heykəlinin başına fırlanıb yuxarıya doğru istiqamət götürdü. Bura yoxuş olduğuna görə qarlı günlərdə maşınlar oranı çətin qalxırdılar. Ona görə də avtobusun nəriltisindən bəlli olurdu ki, sürücü özünü əməlli-başlı toparlayıb. Şükür Allaha, gəlib Əzizbəyovun heykəlinin yanına çatdıq. Heykəlin yanındakı bağa aid mənim xoş bir xatirəm var, amma onu indi sizə danışa bilməyəcəm, çünki avtobus oradakı dayanacaqda durmadı, sürətlə gəlib C.Cabbarlı kinoteatrının qarşısında dayandı. İndi orada "Space" televiziyası yerləşir.

Kinoteatrla üzbəüz yolun o biri tərəfindəki Dağüstü bazarın arxasında kiçik bir çayxana yerləşirdi. Biz tez-tez həmin çayxanaya gedərdik. Orada yaxşı və maraqlı ədəbi söhbətlər olardı. Politexnik İnstitutunda işləyən, "Füyuzat" jurnalının və Əlibəy Hüseynzadənin tədqiqatçısı olan Ofelya xanımın həyat yoldaşı Səlim müəllim həmin çayxananın yanından keçib evlərinə gedəndə həmişə oraya girər, bizə salam verər, içdiyimiz çayın, yediyimiz yeməyin pulunu ödəyərdi. Bəzən öz-özümüzə danışardıq ki, daha bura gəlməyək, kişini yaman xərcə salırıq. Deyirdik, amma yenə gəlirdik, yenə intizarla Səlim müəllimi gözləyirdik...

Avtobus "Ceyran" restoranının qarşısında dayananda çox adam düşdü. Restoranla üz-üzə yolun o biri tərəfində Politexnik İnstitutu yerləşirdi, onun qarşısında Çingiz İldırımın heykəlinə baxmaq istəyəndə qulağıma doğma bir səs gəldi. Kimsə avtobusdan düşə-düşə ucadan: "Mənim pulumu Məmmədağa verib", – sözlərini dedi. Məmmədağanın adını çəkdiyinə görə bildim ki, düşən bizim tələbələrdəndir. Onun kim olduğunu görmək istəyirdim, bu, mümkün olmadı, çünki həmin adam avtobusun qarşısından burulub yan tərəfə keçmişdi. Gözlərim avtobusa minmək istəyən Şamamaya sataşdı. Nə xoş təsadüf! Şamama arxa qapıdan avtobusa mindi, məni görmədi. Mənim avtobusdakı sıxlığı yarıb ona tərəf getməyim mümkün deyildi. Amma hər dəfə Şamamanı görəndə onunla hal-əhval tuturdum, çox büruzə verməsək də, hər ikimiz ürəkdən sevinirdik. Gözləyirdim ki, indi Şamama başını qaldırıb məni görəcək. Elə bu dəm yataqxanadan tanıdığım və şərqşünaslıqda oxuyan bir oğlan da sürücünün yanından astaca keçərək: "Pulumu Məmmədağa verib", – dedi və avtobusdan düşdü. Avtobusdakı tələbələrin çoxu bu sözlərə dodaqaltı gülümsündü.

Məmmədağa jurnalistika fakültəsində oxuyurdu. Bu fakültə də Baksovetin yaxınlığında – vaxtilə Nikolayevski, sonra Kommunist, indi İstiqlaliyyət adlanan küçənin o biri tərəfində –Yefim Saratov küçəsində yerləşirdi. Məmmədağa nəinki kurslarında, hətta fakültədə yaşca hamıdan böyük idi, çünki əsgərlikdə xidmət eləmiş, hələ üstəlik universitetə də üç-dörd il gec qəbul olunmuşdu. Maraqlı adam idi, öz bildiyini dədəsinə verməzdi. Çəkinmədən fakültənin yerləşdiyi küçəyə "Yetim Saratov" deyərdi. Həmişə səliqə ilə geyinərdi, əlində qara çanta gəzdirərdi. Yayın qızmar günlərini çıxsaq, demək olar ki, həmişə kostyumda olardı, qalstuk taxardı. Tələbələrin məzəmmətinə əhəmiyyət verməzdi. Məmmədağanın qalstuku, kostyumu

və çantası sonralar onun karına gəldi. Rayonların birində qəzet redaktoru oldu. Daha sonrasını bilmirəm. O vaxtlar qalstuk, kostyum qalsın bir tərəfə, tələbələr çanta da götürməzdilər. Dəftərlərini köynəklərinin altından kəmərlərinə keçirərdilər. Çox adam çanta götürməyi qəbahət bilərdi.

Məmmədağanı tələbələr arasında məşhur eyləyən başqa bir cəhət vardı. Bu da ondan ibarət idi ki, pulu olmayan tələbələr avtobusdan düşəndə pul verməmək üçün həmişə Məmmədağanın adını çəkərdilər. Bunun da səbəbi bəlli idi. Məmmədağa bir dəfə avtobusda gedəndə qruplarındakı xoşu gələn bir qızın pulunu verir. Sürücünün yanında ucadan bildirir ki, düşərsən, düşəndə de ki, Məmmədağa pulumu verib. Ondan sonra bu sözlər tələbələr arasında zərbi-məsələ çevrildi. Məmmədağa universiteti qurtarandan sonra da pulsuzların "pənahı" yenə Məmmədağa olardı. Bir az bundan qabaq tələbələrin Məmmədağanın adını çəkməsi məhz həmin vərdişin nəticəsi idi. Məmmədağanın xəyalının üstündən dönüb Şamamaya tərəf baxdım, demə, Şamama məni görürmüş. Gülümsəyə-gülümsəyə başımızla salamlaşdıq.

Avtobus Akademiyanın qarşısındakı bağın başına fırlandı. (İndi bu bağ "Cavid bağı" adlanır və orada Hüseyn Cavidin heykəli ucalır). Bağın ətrafındakı döngələr sərt olduğuna görə avtobus bir tərəfə əyildi. Adamlar bir-birinin üstünə yıxılmamaq üçün birtəhər özlərini saxlaya bildilər. Avtobus metronun indiki "Elmlər Akademiyası" stansiyasının çıxışının qabağında dayananda xeyli adam avtobusu tərk etdi. Yenə bir nəfər: "Mənə Məmmədağa bilet götürüb", – deyərək qabaq qapıdan düşdü. Onu tanıdım. Jurnalistika fakültəsində oxuyurdu. Xalasıgil dayanacaqdakı kitab mağazasının arxasındakı Xrebtovi küçəsində yaşayırdı. Yəqin yuyulmağa verdiyi pal-paltarlarını götürmək üçün gedirdi.

Avtobus universitetin binasının yaxınlığından keçəndə mən başımla Şamamaya işarə elədim ki, növbəti dayanacaqda düşək, o da razılaşdı. Həmin dayanacaq 5 nömrəli trolleybusun dayanacağı idi. Oradan yuxarıya – yataqxanalara aparan hündür pilləkənlər başlayırdı.

Avtobus indiki Mətbuat prospektinə burulub dayandı. Şamama arxa qapıya doğru getdi, mən isə qabaq qapıya tərəf irəlilədim. Ucadan Şamamaya bildirdim ki, sən düş, biletini alıram. Mən elə səslə deyirdim ki, Şamama da, sürücü də bunu eşitsin və hər ikisi eşitdi. Sürücüyə yaxınlaşıb avtobusun motorunun üstünə sərilmiş dərinin üzərinə 5 qəpik qoydum və "mənim biletimi Məmmədağa alıb", – dedim. Bunu demişdim ki, sürücü yerindən sıçrayıb mənim nimdaş qəhvəyi rəngli paltomun yaxasından yapışdı. Yaxalığımı bərk-bərk silkələyərək ucadan qışqırdı:

– Əşi, nə Məmmədağa, Məmmədağa salmısınız! Elə düşən deyir ki, mənim pulumu Məmmədağa verib.

Sürücü paltomun yaxalığını sıxmaqda davam edirdi. Mən yavaşca dedim ki, əlini çək, paltomu cırarsan! O, paltomun yaxalığını buraxmayıb dediyini deyirdi:

– Mənə o Məmmədağanı göstər görüm, kimdi o Məmmədağa?

Mən yenə yavaşca "Məmmədağa avtobusdan çoxdan düşüb, mən onu sənə necə göstərə bilərəm?" – dedim.

– Hansı dayanacaqda düşüb? – sürücü bu sualı verib paltomun yaxasını bir az boşaltdı.

– "Ceyran" restoranının yanında.

Sürücü paltomun yaxalığını buraxdı, geri çəkilə-çəkilə dedi:

– Yaxşı, gələn dəfə hökmən Məmmədağanı mənə göstərməlisən. Göstərməsən mənim avtobusuma minmə!

Mən avtobusdan düşdüm. Avtobus hirslə uzaqlaşdı. Şamama məni elektrik dirəyinin yanında gözləyirdi. O soruşdu ki, nə olmuşdu? Mən də cavab verdim ki, heç, elə-belə. Şamama çox da bənd olmadı. Biz qarın üstü ilə ehtiyatla pilləkənlərə doğru addımladıq. Pilləkənlərə bir az qalmış uşaqların su töküb dondurduğu və gəlib-gedənlər üçün tələ hazırladıqları sürüşkənlik başlayırdı. Həmin yerə çatanda təklif elədim ki, sürüşməmək üçün ona kömək edim. O razılaşdı, çünki yer çox sürüşkən idi. Hiss elədim ki, çəkmələrinin altı da, deyəsən, çox etibarsızdı, adamı böyrü üstə qoyar. Biz ilkin on pilləni qalxıb nisbətən düz yerə çatdıq. Həm Şamamanın isti təmasından, həm də bu sərt pilləkənləri çıxmaqda ona kömək edə bildiyimdən fərəh hissi keçirirdim. Böyük bir işi yerinə yetirmiş adamlar kimi sevinirdim. Özümü sərbəst aparmağa başladım. Bu sərbəstlik çox çəkmədi, qəfil ayağım sürüşdü və tir-tap yerə sərildim. Şüşə kimi hamar, sürüşkən pilləkənlərlə sürətlə üzüaşağı yumbalandım. Pilləkənlərin axırıncısına çatanda da özümü saxlaya bilmədim, sürüşkən yeri keçib dayanacağa qədər gedib çıxdım. Bu zaman pilləkənlərin başında: “Narahat olma, get, pulunu Məmmədağa verib”, – deyən Şamamanın gülüşləri ağappaq qar dənələrinə dəyib çiliklənərək ətrafa səpələnirdi.

# IV FƏSİL

## NOVRUZA BİR GÜN QALIRDI

Novruza bir gün qalırdı. Şəhərin bütün küçələri tərtəmiz idi. Onda ikinci növbədə oxuyurduq. Mən filologiya fakültəsinə çatanda bizim qrupun uşaqlarının pıçhapıçları ara vermirdi. Xüsusilə qızlar künc-bucağa qısılıb xısın-xısın danışırdılar. Əhvalatdan elə o dəqiqə mən də xəbər tutdum. Şəlalə Oruc Arazçaylının Novruz bayramı ilə əlaqədar ona aldığı hədiyyəni qəbul etməmişdi. Ən pisi bu idi ki, belə bir hadisə ikinci dəfə təkrar olunurdu. Şəlalə əvvəlki illərdən fərqli olaraq, 8 Mart ərəfəsində də bu cür hərəkət etmiş, heç kəsin gözləmədiyi halda, qanqaralıq salmışdı. Onda da, indi də hamı Şəlaləni qınayırdı. Bu barədə danışan hər kəs: "Sənə hörmət qoyublar, hədiyyə alıblar, adamı xəcalət etməzlər axı!" – deyə gileylənirdi. Şəlalə isə elə bil heç nə olmayıb kimi sus-pus dayanmışdı, bir kəlmə belə danışmırdı.

Oruc Arazçaylı ilə Şəlalənin məsələsi uzun söhbətdir. Mənə elə gəlirdi ki, onların bir-birlərini istəyib-istəməmələri özlərindən başqa heç kəsə bəlli deyildi. Amma ötən il Şəlalənin Oruc Arazçaylı üçün ovuc-ovuc "moskovski" konfetlər daşıdığının şahidiyəm. Hətta bir dəfə o konfetlərdən mənə də pay düşmüşdü. Oruc isə bu konfetləri adi bir nəzakət qaydası kimi yox, ona olan sevgi kimi başa düşürdü. Qəribədir, bu hay-hayda içimdən bir gizilti keçdi, dodaqlarıma gizli bir təbəssüm qondu və tələbə yoldaşımız Musa Ələkbərlinin yazdığı məşhur məhəbbət dastanından bir bəndi xatırladım:

Uca zirvə göy üzündən nəm çəkər,
Pürrəngi çay yana-yana dəm çəkər
Bu hicrandan fakültəmiz qəm çəkər,
Kül eyləyər darülfunu bu nalə,
Şəlalə!

Bu bəndi ürəyimdə deyib qurtarmışdım ki, qrupumuzun dilli-dilavər qızı Arzu mənə yaxınlaşdı, salamsız-kəlamsız danışmağa başladı:

– Hardasan, ay pir olmuş! Gəlib bir dəsgaha baxaydın! Dünyanın ən böyük ləzzətindən məhrum oldun. Xəbərin yoxdu, Şəlalə yenə Oruca “vız” dedi. Görmürsən, Orucun rəngi qapqara qaralıb, bıçaq vursan, qanı çıxmaz.

Arzu qəfildən heç gözləmədiyim halda, Musa Ələkbərlinin indicə xatırladığım şeirindən bir-iki misranı həvəslə, özü də bir az ucadan söylədi. Arzunun səsini eşidən yaxınlıqdakı tələbələr də ona qoşuldular. Həmin şeirdən hərə yadında qalan bir-iki misranı şövqlə deməyə başlamışdı ki, zəng vuruldu. Zəngin səsini eşidən Arzu tələm-tələsik çantasını açıb bir bloknot çıxartdı: “Bütün oğlanları təbrik etmişəm, bircə sən qalıbsan, al, bu da sənin bayram payın olsun!” – deyib bloknotu mənə uzatdı. Sonra da: “Mən Oruc-moruc, Şəlalə-məlalə deyiləm ha, götürməzsən, başına çırparam!” – dedi.

Cildinə üzlük çəkilmiş bloknotu aldım, üz qabığındakı medalyonun içərisində belinə qırmızı lent bağlanmış səməni şəkli vardı. Səməniyə baxdıqca xəyalımda ərimiş qarın altından boy verib qalxan taxıl zəmiləri canlanırdı. Arzunun isə gözləri məndə idi, yəqin nəsə deyəcəyimi gözləyirdi. Mən heç nə demədim və biz sakitcə auditoriyaya doğru irəlilədik. Auditoriyanın qapısından içəriyə keçəndə Arzu dilləndi:

– Saat 4-də yuxarı binada – Akademiya metrosunun yanı nəzərdə tutulur – Novruz bayramı ilə bağlı tədbir keçiriləcək, istəsən, birinci dərsdən çıxıb ora gedərik!

Mən başımla razılığımı bildirdim...

Biz dörd nəfər – Arzu, Çiçək, mən və nə qədər qəribə olsa da, Şəlalə birinci dərsdən sonra Universitetin yuxarı binasına gəldik. Qapının ağzında bəlli oldu ki, heç kəsi içəriyə buraxmırlar. Baksovetin yanında yerləşən filologiya, şərqşünaslıq və jurnalistika fakültələrindən gələn tələbələri isə heç yaxına qoymurdular. Amma bizim bəxtimiz gətirdi. Orada növbətçilik edənlərdən biri Çiçəyin əmisi oğlu çıxdı. O, bizi sakitcə içəri keçirdi və dedi ki, tədbir kimya fakültəsindəki böyük auditoriyada olacaq.

Bu auditoriya mənə tanış idi və Universitetin giriş qapısından xeyli içəridə – ikinci mərtəbədə yerləşirdi. Orada qəbul imtahanları zamanı fransız dilindən imtahan vermişdim. Novruz bayramı ilə bağlı tədbirin keçirildiyi auditoriyaya tərəf gedə-gedə o vaxtkı fransız dili imtahanını fikirləşirdim ki, Arzu məni düşüncələrdən ayırdı:

– Çatmışıq, tədbir burada olmalıdır!

Qapını astaca açdım. İşıqlar söndürülmüşdü, amfiteatr formasında olan auditoriya yarıqaranlıq idi. Ayaqlarımızın ucunda içəriyə daxil olduq. Hər tərəfə şamlar və səmənilər düzülmüşdü. Şamların işığı səmənilərdə bərq vurub qəribə rəng çaları yaradırdı. Sol tərəfə burulub divarın dibi ilə üzü yuxarı qalxmağa başladıq. Partalarda oturmuş qızların çoxu yataqxanada qalan Arzu ilə Çiçəyi tanıdıqlarına görə onlara və Şəlaləyə oturmaq üçün yer tapıldı. Mən isə divarın dibində ayaqüstə qaldım. Bir az keçmişdi ki, yuxarıdan bir qız divarın dibi ilə mənə yaxınlaşdı, əlimdən tutub dartaraq dedi:

– Gəl, mənim yanımda yer var!

Bu, Şamama idi. Onun bu yarıqaranlıq otaqda məni tanımasına təəccüb elədim. Sözəbaxan uşaqlar kimi Şamamanın yanına düşüb üzü yuxarı qalxmağa başladım. Biz partaların birində yanaşı oturduq. Sonra Şamama mənə işarə elədi ki, plaşımı çıxarım. Hamı plaşını çıxarıb partaların üzərinə qoymuşdu. Mənim qarşımdakı plaş Şamamanın idi. Höcətullanın evində kirayənişin qaldığımız vaxtlarda Şamama həmin qara rəngli və üstündə ağ nöqtələri olan plaşı geyinirdi. Mən ayağa qalxmadan Şamamanın köməyi ilə plaşımı soyundum. Şamama onu qatlayıb öz plaşının üstünə qoydu.

Tribunada bəstəboy kimyaçı alim danışırdı:

– Bizim xalçaların naxışları atomun quruluşunu xatırladır...

Bu sözlər məni xəyalən Bəxtiyar Vahabzadənin mühazirələrinə apardı. O, deyirdi ki, biz torpağın altından yeni bir şey tapanda o dəqiqə deyirik ki, bura bizim eradan əvvəl neçənci minillikdəsə tövlə olub, başqaları isə həmin tapıntını "kosmodrom" adlandırırlar.

Elə bu vaxt auditoriyanın qapısı açıldı. Dörd-beş nəfər içəri daxil oldu. Onlardan biri qəzəblə: "İşıqları yandırın!" – dedi. İşıqlar yandı. Həmin adam üzünü auditoriyaya tərəf tutub qışqırdı:

– Bu, nə dəsgahdır? Kim sizə icazə verib? Kimdən icazə almısınız?

Şamama səsi titrəyə-titrəyə yavaşca: "Partkomun müavinidir", – dedi.

Həmin adam səhnənin ortasında qoyulmuş iri səməniyə yaxınlaşdı, bir göz qırpımında onu təpiklə vurub dağıtdı. Yenə qışqırdı:

– Bizim universitetdə icazəsiz heç kim heç bir tədbir keçirə bilməz!

Şamama əlləri ilə üzünü ötrüb hıçqırmağa başladı. Niyə ağladığını soruşdum. O da cavab verdi ki, həmin səmənini mən gətirmişəm, on-on beş günə onu əzizləyə-əzizləyə böyütmüşdüm.

Bir azdan auditoriya boşaldı. Əllərində səməni və şam tutmuş tələbələr qızlar yataqxanasına tərəf hərəkət edirdilər. Kimyaçı müəllim də tələbələrlə bir addımlayırdı. Biz – Arzu, Şəlalə, Çiçək, Şamama və mən onlara qoşulduq. Heç kəs bikef deyildi, heç nə olmayıb kimi hamı deyib gülürdü. Birdən Şələləyə elə bil ilham gəldi. Özü də ləzzət ala-ala Musa Ələkbərlinin şeirindən bir bənd dedi:

Musa, sözü mətləbinə doğru de,
Aşiq yardan yana baxsa oğru de.
Sən vicdanın açıq danış, doğru de,
Söylə Oruc çatacaqmı vüsalə,
Şəlalə!

Heyrətlə Şəlalənin üzünə baxırdıq, nə deyəcəyimizi bilmirdik. Yaxşı ki, yataqxanaların aşağısındakı trolleybus dayanacağına çatdıq, Şəlaləni trolleybusla evlərinə yola saldıq.

Novruz şənliyi qızlar yataqxanasında xeyli çəkdi. Heç kəsin gözləmədiyi halda Xəlil Rza da oraya gəlib çıxdı. Əsl şənlik oldu. Şənlik qurtarandan sonra mən Şamama ilə yataqxananın vestibülündə – bura tələbə oğlanlarla qızların görüş yeri idi – bir tərəfə çəkildik. Şamama hələ də səməninin dağılmasını yadından çıxara bilmirdi. Ona təsəlli vermək mənasızdı. Deyirdi ki, elə bil bu səməni mənim bəxtim idi, bəxtimi vurub dağıtdılar.

Artıq vaxt çatmışdı, gecə saat 12-yə bir neçə dəqiqə qalırdı. Saat 12-dən sonra bir oğlan belə qızlar yataqxanasındakı vestibüldə qala bilməzdi. Yataqxananın gözətçisi Sura xala vestibüldəki adbaad tanıdığı oğlanlara yataqxanadan çıxmaq

xəbərdarlığını elədi. Şamama buna bənd imiş kimi: “Sabah tezdən rayona gedəcəyəm”, – dedi. Mənsə: “Bayramın mübarək!” – sözlərini yavaşca pıçıldayıb azca gülümsündüm. O isə: “Mənə heç bir sözün yoxdur?”– deyə dilləndi.

Çiyinlərimi çəkib nə deyəcəyimi bilmədim. Vestibüldə bizdən başqa heç kəs qalmamışdı. Sura xala da çox böyük intizarla mənim yataqxanadan çıxmağımı gözləyirdi. Şamama məndən iki addım uzaqlaşıb geriyə döndü: “Rayonda məni nişanlayacaqlar!”– dedi və sürətlə uzaqlaşdı.

Sura xala məni zorla yataqxanadan çıxaranda Şamamanın son sözləri beynimdə ildırım kimi təlatüm yaradırdı və qəlbimdən təsəlli kimi bir aprel aldatma günü gəlib keçirdi. Amma aldatma gününə hələ çox vardı, bayırda yazın nəfəsi duyulurdu, Novruz bayramının qədəmləri hiss edilirdi.

# V FƏSİL

## ŞAMAMA

Novruz bayramı arxada qalsa da, onun havası hələ də adamların əhvali-ruhiyyəsində yaşayırdı. İmkan tapıb qohumlarına baş çəkməyənlər gec də olsa onları təbrikə gedirlər, qırmızı yumurtalarını döyüşdürən məktəblilərin hay-küyü kəsilmir, nişanlı qızlara aparılan allı-güllü xonçaların içindəkilər dillərdən düşmür, bəzədilmiş qoçların hirsli-hirsli davranmaları nağıla dönür. Şamama isə hələ də şəhərə qayıtmırdı ki, qayıtmırdı. Ondan ayrılarkən çox həlim səslə dediyi “kənddə məni nişanlayacaqlar” sözləri həmin vaxt, yəni isti-isti mənə o qədər təsir eləməsə də, bir gün sonra ürəyimi deşməyə başlamışdı; az qalırdı içimi yeyib qurtaram. Bu ifadəni mən dəfələrlə eşitmişdim, amma onun nədən ibarət olduğunu indi dərk etdim. Orta məktəbdə oxuyarkən ədəbiyyat müəllimi deyərdi ki, atalar sözlərini yenidən yoxlamağa ehtiyac yoxdur, onlar artıq əsrlər boyu sınaqdan keçirilib. Sonra da əlavə edirdi ki, amma hər hansı bir atalar sözünün əsl mahiyyətini dərk etmək üçün gərək onu özün yaşayasan. “İçimi yeyib qurtarmaq” ifadəsi də mənim üçün məhz elədir. Onun mənasını Şamama kəndə gedəndən sonra həqiqi mənada anlamağa başladım.

Yataqxanada Şamama ilə bir otaqda qalan sarışın qız mənə xəbər göndərmişdi ki, Şamama bu gün gələcək. Amma mən onun gəldiyini dəqiq bilmədiyim üçün qızlar yataqxanasına getmək istəmirdim. Ona görə ki, hər dəfə oraya gedəndə birinci mərtəbənin dəhlizində gəzib-dolaşan gülərüz qızlardan biri dördüncü mərtəbəyə qalxıb Şamamanı çağırmalı olurdu və

mənə görə onları tez-tez bu əziyyətə salmaq doğru deyildi. Qəribədir, dəhlizdəki qızlar elə bil eyni tələbələr idilər və kimisə çağırmaqdan ləzzət alırdılar. Maraqlısı bu idi ki, həmin tələbələr kimin hansı qız üçün gəldiyini əzbər bilirdilər. Məsələn, mən vestibülə daxil olan kimi dəhlizdəki qızlardan biri üzünü mənə tutub tez: "Şamamanı çağırıram", – deyib uzaqlaşır və qaça-qaça pilləkənlə yuxarı mərtəbəyə qalxırdı. Şamamanın gəldiyini dəqiq bilmədiyim və o qızlara əziyyət verməmək üçün bu gün yataqxanaya getməməyə qərar verdim.

Həmin gün bütün gecəni yata bilmədim, elə bil yuxum ərşə çəkilmişdi. Hələ indiyə qədər Şamama haqqında bu qədər dərindən düşünməmişdim. Höcətulla kişinin həyətində kirayə qalarkən tanışlığımızdan başlayaraq bu günə qədər olan bütün hadisələr lent yazısı kimi beynimdən gəlib keçirdi. Ən dəhşətlisi bu idi ki, Şamamanın "kənddə məni nişanlayacaqlar" sözləri xəncər olub ürəyimə sancılırdı. Özü də bu xəncər "kənddə məni nişanlayacaqlar" sözləri kimi çox uzun idi və bir də xəncərin üzərində məhz həmin sözlərin yazılması məni lap dəhşətə gətirirdi. O qılınc Şamamanın əlində olsaydı, bəlkə də, vecimə almazdım və vəlvələyə də düşməzdim. Çünki Şamama məni heç vaxt vurmazdı. Bəlkə də, Şamama özü bilə-bilə qılıncın qəbzəsindən yapışmamışdı, yapışmamışdı ki, mənə əməlli-başlı dərs versin.

Sabahı gün axşamüstü sarışın qızdan xəbər gəldi. İndiyə qədər arxivimdə saxladığım və kağız üzərində yazılmış xəbər bir dastana oxşayırdı: "Şamamanı atası gətirmişdi. Yanında da bir cavan oğlan var idi. Həmin cavan oğlan Şamamanın bütün veşlərini vestibülə daşıyıb qoyandan sonra çıxıb getdi".

Bu sarışın qızdan gələn bəd xəbər məni sarsıtdı. Düşündüm ki, yəqin həmin cavan oğlan Şamamanın nişanlısıdır. Doğrudur, Şamamanın qardaşı olduğunu bilirdim, amma qarda-

şı heç vaxt Şamama ilə Bakıya gəlməzdi. Şamamanı həmişə atası gətirərdi. Fikirləşdim ki, bundan sonra yataqxananın vestibülünə getməyə dəyməz. Amma onu da bilirdim ki, bu da mümkün deyil. Birincisi, əsl həqiqəti bilməliydim, ikincisi də əgər ayrılırdıqsa, hörmət-izzətlə ayrılmalıydıq.

Mənim qəlbim bir məsələdə çox rahat idi; Şamama məni ürəkdən istəyirdi. Bunu ona görə demirəm ki, Şamama Höcətulla kişi məni kirayədən çıxardanda paltarlarımı yığışdırıb qaldığı otaqda saxlamışdı. Yaxud Universitetdə Novruz şənliyi zamanı o, alaqaranlıqda mənim əlimdən tutaraq öz yanına çəkib aparmışdı. Hələ demirəm ki, həmin vaxt mənim plaşımı öz plaşının üstünə qoymuşdu. Yox, yox! Bunlar heç bir şeydi. Bunları hər hansı bir başqa qız da edə bilərdi. Lap elə götürək Höcətulla kişinin ingilis dili fakültəsində oxuyan qızını. Elə bilirsiniz o, bunları bacarmazdı? Bacarardı, özü də Şamamadan da yaxşı edərdi. Lap elə tələbə yoldaşım Arzunun səliqə-sahmanına bütün qızlar məəttəl qalırdılar. Onun qayğıkeşliyinin əvəzi yox idi. Bunları deyirəm ki, həqiqət sizə aydın olsun. Biləsiniz ki, Şamamanın məni istəməsinin əlaməti onun paltarlarımı həyətdən götürməsi, plaşımı öz plaşının üstünə qoyması, dondurma yeyəndə şaqqanaq çəkib ürəkdən gülməsi, "məni kinoya apar" deməsi, rayondan gələndə mənə pay-puş gətirməsi, məndən sonra Höcətulla kişigilin həyətindəki kirayədən çıxması, ad günlərinin birində "mənə şeir yaz" söyləməsi, qar dizə çıxanda mən sürüşüb yıxılarkən gülüşlərinin qar dənələri kimi hər tərəfə səpələnməsi deyildi. Yox, yox, səhv elədim, elə bu sonuncusu – gülüşlərinin qar dənələri kimi çilik-çilik olması məni istəməyinin əlamətidir. Bir də əsl səbəb onun gözlərində gizlənmişdi. Şamamanın gözləri azca qonur rəngə çalırdı. Amma gözlərinin içi dupduru, saf su kimi idi. Bir az diqqətlə baxanda o gözlər dənizə dönürdü, ucu-bucağı görünməyən bir

dəryaya çevrilirdi. Amma Xəzərə oxşamırdı, heç Qara dənizə də bənzəmirdi. Bu ucsuz-bucaqsız dəryanın üzərində bir dənə də olsun ləpə yox idi. Allah, Allah, bu boyda dərya o gözlərə necə sığışmışdı? Hərdənbir o dəryada gözlərimə qayıqsız ağ yelkən görünürdü, həmin yelkən də tez yoxa çıxıb gedirdi. Bəlkə də, yelkən yox idi, onu mən özüm uydururdum. Görəsən, Şamama bilirdimi ki, onun gözləri dərya kimi əngin və dərindi? Mənim üçün ən çətin məsələ bunu tapmaq olmuşdu. Amma desəm ki, bilirdi, bəlkə də, həqiqət olmaz. Bilirsiniz niyə? Axı, Şamama güzgüyə nə qədər baxsaydı, bu dəryanı özü qətiyyən görə bilməzdi. Onu yalnız mən görürdüm. Amma tam əminəm ki, Şamama gözlərinin dərin və ucsuz-bucaqsız dəryaya döndüyünü yalnız mənim gözlərimə baxanda duya bilərdi və duyurdu, bəlkə də, məqsədi məni o dəryada batırmaq idi, mən isə batmırdım ki, batmırdım. Yox, deyəsən, hiss edirdim ki, batmağın vaxtı çatıb.

Bunları deyirəmsə, qoy hər şeyi axıra qədər açıb söyləyim. Bir dəfə Şamamanın gözlərinin düz ortasında olan şəvə kimi bəbəkləri mənim üstümə hücum çəkmişdi. Allaha and olsun, Şamamanın bəbəklərinin içindən, bəlkə də, yüz dənə ox çıxıb bədənimə sancılmışdı. Bilirsiniz o, nə vaxt olmuşdu?

Filarmoniyanın binasında böyük bir tədbir keçirilirdi. Biletlər yalnız Universitetin tələblərinə paylanmışdı. Ekstrasens Tofiq Dadaşovla görüşə getmişdik. Onda Tofiq Dadaşov çox məşhur idi. Deyirdilər ki, hüquq-mühafizə işçiləri ən ağır cinayətlərin açılmasında onun köməyindən faydalanırdılar. Hətta şahmat üzrə dünya çempionatında oyun zamanı salonun qabaq sırasında oturaraq Anatoli Karpovun rəqibinə mənfi təsir göstərirmiş.

Şamama ilə yanaşı oturmuşduq, sağ tərəfimdə isə kimya fakültəsində oxuyan tələbələr var idi. Lap mənim yanımda olan

tələbə qızı tanıyırdım, adı yadımdan çıxmışdı, bir-birimizi tanıdığımızı baxışlarımızla hiss etdirdik. Dilucu salamlaşmağımız bu baxışların yanında bir qara qəpiyə dəyməzdi. Hətta səmimiyyətlə deyim ki, onu görəndə Şamamanı elə bil bir anlıq unutdum. Görüş başlandı. Elan olundu ki, kim Tofiq Dadaşova hansı tapşırığı verəcəksə, aydın şəkildə bir kağıza yazıb səhnədə yerlərini tutmuş jüriyə göndərsin. Mən də xeyli fikirləşəndən sonra eyni bir cümləni iki kağıza yazıb Şamamanın razılığını almaqla birini Şamamanın, digərini isə həmin kimyaçı qızın çantasına qoydum. Şamamaya da dedim ki, görək, Tofiq Dadaşov kağızları tapa biləcək?

Tədbirin axırına azca qalmış məni səhnəyə dəvət etdilər. Jürinin sədri psixologiya üzrə professor Əkbər Bayramov idi. O, mənə dedi ki, indi Tofiq Dadaşov sənin əlindən tutacaq, sən ona aydın və dəqiq əmrlər ver. Həm də burada yalnız bir əmr olmalıdır. Mən də əmrləri hissə-hissə verməyə başladım. Fikir aydın idi. 14-cü sıranın 7-ci yerində oturmuş qızın çantasını aç, orada yazılmış kağızı çıxarıb oxu. Həmin 7-ci yer Şamamanın yox, kimyaçı qızın əyləşdiyi yer idi. Tofiq Dadaşov ürəyimdə fikirləşdiyim, tam səssiz və hissə-hissə verdiyim əmrləri dəqiqliklə yerinə yetirirdi. Nəhayət, biz kimyaçı qıza yaxınlaşdıq. Şamama elə düşünürdü ki, biz onun yanına gedəcəyik – o, 9-cu yerdə oturmuşdu – amma getmədik. Verdiyim bir əmrdən sonra Tofiq Dadaşov çox böyük cəldliklə kimyaçı qızın qolundan yapışıb ayağa qaldırdı və sürətlə səhnəyə doğru dartdı. Mən də onların arxasınca gedirdim, çünki tapşırıq tam yerinə yetirilməmişdi. Səhnədə o, mənə baxdı, yeni əmr gözləyirdi. Dalbadal əmrlər verməyə başladım: “Çantanı aç, çantanı aç!” Çanta açıldı, sonra davam etdim: “Kağızı çıxart, kağızı çıxart!” Tofiq Dadaşov mənim ürəyimi oxudu, amma bu tapşırığı icra etmədi, o da üzünü kimyaçı qıza tutub sərt səslə dedi: “ka-

ğızı çıxart". Qız kağızı çıxarıb Tofiq Dadaşova uzatdı, Tofiq Dadaşov isə onu jurinin sədri Əkbər Bayramova ötürdü. Kağızda bir cümlə yazılmışdı.

Əkbər müəllim məni yanına çağırıb kağızı verdi və dedi ki, al, özün oxu. Mən ortada qoyulmuş mikrofona yaxınlaşanda kimyaçı qız lap mikrofonun yanında dayanmışdı. Hamı intizarla məni gözləyirdi, mən isə onları bir az da intizarda saxlayandan sonra uca səslə oxudum: "Tofiq Dadaşovu yetirən Azərbaycan xalqına eşq olsun!" Alqış səsləri salonu yerindən oynadırdı. Amma ürəyimdə hər şey baş-ayaq olmuşdu. Uzaqda Şamamanın hansı hisslər keçirdiyini artıq hiss edirdim.

Kimyaçı qızla səhnədən düşüb yavaş-yavaş yerimizə doğru addımladıq. Məni qarşıda nə gözlədiyini yalnız Allah bilirdi. Yerimə çatanda gördüm ki, Şamama yoxdur. Mənim oturacağımda isə Şamamanın çantasından çıxarıb qoyduğu, bir növ tulladığı kağız parçası var idi.

Mən cəld geriyə qayıdıb foyeyə çıxdım. Şamama paltar asılan yerin yanında donub qalmışdı. Həə, yadıma düşdü ki, biz Şamamanın pencəyini asılqana vermişik, birka isə məndədir. Birkanı uzadıb pencəyi aldım. Sonra istədim ki, Şamama pencəyi geysin, ona görə də pencəyin yaxalıqlarından və çiyinlərindən tutub ona doğru uzatdım, amma o, çox təmkinlə pencəyi mənim əlimdən alıb sol qolunun üstünə atdı. Heç nə demədən bir anlıq dayandı və qəzəblə mənim gözlərimin içinə baxdı. Məhz onda Şamamanın bəbəklərindən elə bil yüz ox çıxıb bədənimə sancıldı.

– Mənə dedilər ki, bir əmr verməlisən, – bu sözləri güclə deyə bildim.

Şamama bir kəlmə demədən addımlamağa başladı. Giriş qapısına çatanda məni gözləmədən özü dəstəyə əl atdı. Qapı hədsiz dərəcədə ağır idi, güman etdim ki, gücü çatmayacaq.

Amma qapı Şamamanın qarşısında adi və yüngül bir qapı təsiri bağışladı. Şamamanın əl hərəkəti ilə o ağırlıqda qapı bir anın içərisində tam açıldı. Mən imkan tapıb qapının yuxarı hissəsindən tutdum. Hər ikimiz bayıra çıxdıq. Bir neçə addım atandan sonra mən yavaş səslə dedim:

– Pencəyini gey, soyuqdur!

Şamama heç nə eşitmirdi. Çox sakit addımlarla irəliləyirdi. Biz lap yanaşı gedirdik. Düşündüm ki, bəlkə, danışmasaq yaxşıdır. Hər halda Şamamanın hirsinin soyumasına müəyyən vaxt, bir də sakitlik lazım idi.

Biz gedirdik. Şübhəsiz, Şamamanın nə düşündüyünü mən çətin tapa bilərdim. Əslində elə özümün də nə düşündüyünü anlamaq gücündə deyildim. Şamama yanımdaydı, amma xəyalımda Höcətulla kişinin həyətində kirayə qalan Şamama canlanırdı. Son dərəcə məsum, təpədən dırnağa qədər səmimiyyətlə yoğurulmuş, aldatmaq və aldanmaq nə olduğunu bilməyən, məni görəndə az qala atılıb boynuma sarılmaq istəyən, – Höcətulla kişinin qorxusundan belə şeylər heç vaxt olmamışdı, – axşamdan yatmayıb mənim otağımın işığının sönməsini gözləyən, hərdən də Höcətulla kişinin qızına işarə edib mənə eyham vuran Şamama! Qaranlıq düşəndə mağazaya getməyə ona yoldaşlıq eləmək üçün məni qapının ağzındaca səsləyən, bir dəfə də olsun mənim otağıma girməyən, rayondan gələn sovqatdan mənə də pay ayıran və kəndlərindəki ayamaları olan adamlar haqqında lətifələri şirin-şirin danışıb özünü və məni güldürən Şamama! Hərdən eşidilməz səslə mənə: “köynəklərini ver yuyum”, – deyən, “şalvar ütüləməkdən zəhləm gedir” sözlərini gülə-gülə və tez-tez təkrarlayan, oxumaq üçün məndən yazıçıların əsərlərini istəyən, “Dostoyevskidən zəhləm gedir” kəlmələrini qəzəblə söyləyən, içində bir kimsənin əli toxunmayan ülvi duyğularını əzizləyə-əzizləyə gəzdirən Şamama!

Bəs indiki Şamama? Nifrətini və qəzəbini içinə salıb hayqırmaq istəsə də, hayqıra bilməyən, tanış olduğumuz vaxtdan bu günə qədər yaşadığı aylara, illərə lənət yağdıran, xəyalımda peyda olan par-par parıldayan qılıncı indi götürüb məni tikə-tikə doğramaq istəyən, bir də, bir də özünə yazığı gələn Şamama!

Bu iki Şamamanın arasında qalmışdım. Həm də fikirləşirdim ki, yox, belə ola bilməz və bayaqkı sözləri təkrar etdim:

– Pencəyini gey, soyuqdur!

Şamama dayandı, əlindəki çantanı mənə uzatdı və pencəyini geyinib çantanı aldı. Üzünü çevirib yoluna davam etdi.

Bu nədir? O mənim sözümə görəmi pencəyi geyindi? Bəlkə, payızın soyuğu ona təsir eləmişdi? Yox, yox! Bu, payızın soyuğu deyildi, hiss etdim ki, Şamamanın içi üşüyür. Mənim də içimə bir qorxu girdi. Yol boyu işıqları yavaş-yavaş söndürməyə başlayırdılar. Küçələrdən əl-ayaq çəkilmişdi.

Şamamanın qolundan tutub dayandırdım. Onun arxası divara idi. Başımızın üstündə divardan bir az küçəyə tərəf uzanan elektrik gecə lampası yanırdı. Lampanın işığı düz Şamamanın üzünə düşürdü. Şamamanın üzü, gözləri, yanaqları, sol qaşına qaynayıb qarışan xalı, bir qulağını tamam örtən ipək kimi saçları mənə açıq-aydın görünürdü. Nəsə danışmağa söz axtararkən qəfil söylədim:

– Mənə dedilər ki, bir əmr verməlisən!

Şamama heyrətedici gözləri ilə mənə baxırdı. Yəqin “məni uşaq yerinə qoymusan?” – deyə düşünürdü. Birdən deyə bilərdi ki, o bir əmri məni tapmaq üçün verə bilərdin. Allah, Allah, mən gör nə fikirləşirəm. Şamamanın dilindən o sözlər çıxsa, deməli, mən sunamidə batmışam, daha məni oradan heç kim qurtara bilməz. Tez həmin fikri özümdən uzaqlaşdırdım,

xəyalıma gəldi ki, Şamama birdən Tofiq Dadaşov kimi ürəyimi oxuya bilər.

Yox, Şamama heç nə demədi, bilirəm, mənim qəlbimi sındırmaq istəmədi.

Birdən nə görsəm yaxşıdır? Şamamanın sağ gözündən bir damla yaş süzüldü və yanağının üstündə donub qaldı. Elə bildim ki, o gözlərin mənə bəxş etdiyi ucsuz-bucaqsız dəryanın suyu bir anda qurudu, ağ yelkən də bulud kimi göylərə çəkilib yox oldu. Sağ əlimlə Şamamanın qolundan tutub sol əlimin baş barmağı ilə yanağının üstündəki bir damla yaşı silməyə başladım. Şamamanı heç vaxt belə görməmişdim. Hiss edirdim ki, bütün dünya Şamamanın başına fırlanır. Düşündüm ki, insanları yaxşı mənada da tanımaq olmur. Deyən-gülən, qışqıran-hay salan, heç vaxt zarafatlarından qalmayan, buz üstündə sürüşüb yıxılanda öz gülüşləri ilə mənə məhəl qoymayan Şamama indi başqa bir qıza çevrilmişdi. İndi o, hər məsələni təhlil etməyi bacaran, zarafatlarının içində ciddiliyini gizlədən, hər cür etinasızlığı rədd edən, yalanı nifrətlə qarşılayan, xəyanətə heç vaxt dözməyən bir Şamama idi.

Allah, Allah, bu nədir, Şamamanın dodaqları əsirdi. Elə bil alt dodağı bu dəqiqə qopub yerə düşəcəkdi. Əlimlə tutduğum sol qolundan hiss etdim ki, bədəni də titrəməyə başlayır. Şamamanın titrəməsi dəryadan təzəcə tutulmuş balığın çırpınmağına bənzəyirdi. Həyəcan onu danışmağa qoymurdu. Amma Şamama titrəyişlər içərisində qəfil danışdı:

– Sən niyə elə elədin?!

Ona sözlə cavab vermək mümkün deyildi. Artıq mən onun dodaqlarını görmür və titrəməsini də hiss etmirdim...

Bir azdan Şamama yerə düşən çantasını götürdü, mən onun əlindən tutdum və biz cəld addımlarla trolleybus dayana-

cağına doğru irəlilədik. İş gününün axırıncı trolleybusu dayanacağa bizimlə birgə çatdı.

Mən Şamamanı qızlar yataqxanasının girişindən içəri ötürəndə saat 12-yə az qalırdı. Onu da deyim ki, həmin gündən sonra Şamama o hadisəni bir dəfə də olsun dilinə gətirmədi.

Sarışın qızın mənə göndərdiyi dastanı bir də oxuyub Şamama ilə görüşməyə yollandım. Qızlar yataqxanasının qapısından içəri girən kimi dəhlizdə o tərəf-bu tərəfə gedən tələbələrdən biri üzünü mənə tutub ucadan: "Bu dəqiqə Şamamanı çağırıram", – dedi və sürətlə də uzaqlaşdı. Vestibüldə xeyli qız və oğlan var idi. Birdən lap küncdəki qızla oğlan həmin yeri tərk etdilər. Başqalarının xəbəri olmadan mən yavaşca yeriyib həmin küncdə dayandım. Bura oğlanla qızın ürəklə danışması üçün ən rahat yer idi. Əslində hamı oraya can atırdı. Vestibülün küncünü az adam görürdü. Hamını diqqətlə nəzarətdə saxlayan gözətçi Sura arvadın isə oturduğu stuldan həmin künc qətiyyən görünmürdü. Digər tərəfdən oğlanla qız üz-üzə dayananda oğlanın kürəkləri qızın qarşısını tamamilə kəsirdi və demək olar ki, görünməz olurdu. Xülasə, həmin yer bu gün bizim bəxtimizə yazılmışdı.

Arxamı küncə çevirib dəhlizə baxa-baxa qalmışdım ki, birdən həmin qız peyda oldu və heç nə demədən mənə yaxınlaşdı. İçim tamam mütiləşdi, ağlımdan keçdi ki, Şamama aşağıya enmək istəmir və həmin qız mənə çatıb onun gəlməyəcəyi xəbərini heç kəsin eşitməməsi üçün pıçıltı ilə demək istəyir. Belə bir xəbər mənim üçün suda batmaq yox, odda yanmaq kimi bir xəbər ola bilərdi. Qız mənə lap yaxınlaşdı, onun gözləri par-par yanırdı. Ağlımdan qəribə bir hiss keçdi. Bu, həmin qızla tanış olmaq hissi idi. Həmin duyğunun haradan peyda olduğunu heç özüm də dərk edə bilmədim, amma onu, nədənsə, heç ürəyimdən də qovub çıxarmadım. Düşündüm ki, əgər Tofiq

Dadaşov kimi ürəyi oxumağı bacarırsa, qoy oxusun. Həmin qızla lap üz-üzə, göz-gözə dayanmışdıq. Qız dilləndi:

– Məni tanımadın?

– Yox!

– Qəzənfərin kəndçisiyəm.

– Hansı Qəzənfərin?

– Səninlə bir otaqda qalan Qəzənfərin.

– Həə, nə yaxşı, nə yaxşı! Bəs adın nədir?

– Cəmilə.

– Hansı fakültədə oxuyursan?

– Filologiya fakültəsində. Sizdən aşağıdakı kursdayam.

– Şamama dedi ki, indi gəlirəm, – bu sözlər Cəmilənin idi.

Mən də öz-özümə pıçıldadım ki, zalımın qızı, bunu bayaqdan de də! Lap ürək-göbəyimizi yedik ki?!

Cəmilə dönüb getdi. Amma çox-çox sonralar Cəmilə mənə belə bir sual vermişdi: "Sən Şamama ilə evləndin?"

Cəmilənin üç pillə qalxıb birinci mərtəbənin dəhlizinə ayaq qoyması ilə Şamamanın görünməsi bir oldu. Şamama dodaqlarında güclə seziləcək təbəssümlə mənə yaxınlaşdı. Biz görüşüb üzümüzü astaca bir-birinə toxundurduq. Şamama artıq küncə sıxılmışdı, mənim kürəklərim onu tamamilə görünməz etmişdi. Əli əlimdə ikən onun sağ əlinə baxdım, sonra da baxışımla sol əlinə nəzər yetirdim. O, bunu hiss edirmiş kimi sol əlinin barmaqları ilə pencəyimin düyməsinə tumar çəkdi. Şamama mənim düşüncələrimə cavab olaraq barmağında nişan üzüyünün olmamasını sükutun dili ilə deyə bildi. Amma bu, hələ onun nişanlanıb-nişanlanmaması demək deyildi.

Şamama təp-təzə bir xalat geyinmişdi. Allı-güllü bir xalat idi. Yataqxananın qızları həmişə ev xalatında vestibülə düşərdilər. Az hallarda qızları təzə paltarlarını geyinmiş halda görmək olardı. Onda da vestibüldəkilərin hamısı bilirdi ki, ge-

yimdə-keçimdə olan qızlar birinci kurs tələbələri idilər. Həmin qızlarla söhbət edən oğlanlar isə, şübhəsiz, yuxarı kurslarda oxuyurdular. Birinci kursların oğlanları ayılana qədər yuxarı kurslarda oxuyanlar həmin qızlarla öz tanışlıqlarını möhkəmləndirirdilər. Amma Şamama heç vaxt geyimdə-keçimdə vestibülə düşməmişdi. Ona görə ki, mən Şamama ilə yataqxanaya köçməmişdən Höcətulla kişinin həyətində tanış olmuşdum və Şamamanı da o vaxtdan elə ev xalatında görmüşdüm.

Şamama maddım-maddım mənim üzümə baxırdı, elə bil məni ilk dəfədir görür. Gözlərində həsrətlə sevinc bir-birinə qarışmışdı, amma nə qədər həsrət, nə qədər sevinc olduğunu ayırmaq çətin idi. Şamamanın baxışında, duruşunda, hərəkətində Novruz bayramından əvvəlki görüşümüzdən əsər-əlamət yox idi. Mən də neçə gün idi ki, narahatlıq içərisində boğulub qalmışdım. Şamamanın gəlişi zamanı dəhşətli bir hadisə baş verəcəyini düşünmüşdüm, yaxud bunu özümdən uydurmuşdum.

İndi aramıza tam sükut çökmüşdü. Mən Şamamanın pencəyimin düyməsinin üzərində gəzən barmaqlarından yapışdım. Qeyri-ixtiyari olaraq sağ əlimin barmaqlarını onun sol əlinin barmaqları ilə uc-uca qoydum. Bədənimə bir gizilti çökdü. Gizilti məni harayasa götürüb aparmaq istəyirdi. İçimdə bir təlatüm yaranmışdı, elə bil bu təlatüm mənə etiraz edirdi. Bəlkə də, bu təlatüm Şamamanın özü idi, gizilti ilə bərabər içimə girmişdi. Bu təlatümdən xilas olmaq üçün gərək barmaqlarımı onun barmaqlarından ayıraydım, ya da Şamama əlini geri çəkməliydi. Yox, Şamamanın əlini geri çəkəcəyi hiss edilmirdi. Deməli, onda Şamamanın da içini gizilti bürümüşdü. Gizilti onu ofsunlayıb saxlamışdı. Birdən qəfil yadıma düşdü ki, nə vaxtsa Nizami kinoteatrında “Çalıquşu” filminə baxanda ilk dəfə Şamama ala-qaranlıqda barmaqlarını mənim barmaqlarım-

la uc-uca toxundurmuşdu. Onda da mənim bədənimi gizilti öz ağuşuna almışdı. Anladım ki, Şamama indi ona görə əlini geriyə çəkmirdi ki, həmin hadisə yadına düşmüşdü və mənim onu xatırlatmağım haqqında fikirləşir. Sonralar "Çalıquşu" filmini xatırlayan Şamama yarızarafat, yarıciddi deyirdi ki, mən Fəridəyəm. Fürsəti fövtə vermədən və gülə-gülə: "Mən də Kamranam", – söyləyirdim.

– Rayonda havalar necə idi? – Şamamaya sual verdim.

Bu, söhbəti başlamaq üçün bir bəhanə idi. O zaman qızla təzə tanış olmaq istəyən oğlanlara məsləhət bilirdilər ki, gördün çətinliyə düşmüsən, dilin-ağzın quruyub onda hava haqqında danış. İndi də televiziya kanallarında hava haqqında məlumat verilməyə başlayanda ilk olaraq tələbəliyin bu zarafatı yadıma düşür.

Şamama cavab vermədi, onu hava haqqında olan məlumatla bağlı söhbətlərdən xəbəri var idi. Həm də başa düşdü ki, indiki görüş mənim üçün ilk görüşə bənzəyir. Elə məni də dəhşətə gətirən bu idi ki, o bilə-bilə danışmırdı. Dodağına yavaşca qonmuş təbəssümü ilə mənə əzab verirdi. Elə bil nəyinsə intiqamını alırdı. Bunları düşünə-düşünə gözümü onun gözündən çəkib ağappaq sinəsinin üstündə görünən qırmızı yarpaqlara baxdım. Bu qırmızı yarpaqlar elə bil Şamamanın xalatının yaxasından ayrılıb sinəsinə qonmuşdu. Amma dəqiqləşdirə bilmədim ki, bu qırmızı yarpaqlı xalatı Şamama özü bilə-bilə geymişdi, yoxsa yox. Hər halda bunu Şamama hiss etdi və astaca dilləndi.

– Gül görməmisən?

Bu sual da hava haqqında danışmağımızın bir variantı idi. Ona görə ki, bir dəfə mən qış semestrini başa vurub qatarla kəndə gedirdim. Vaqona daxil olub yerimi tapdım. Hələlik kupedə heç kəs yox idi. Apardığım əşyaları oturacağın altına yer-

ləşdirib rahatca oturdum. Pəncərədən vağzalı seyr etməyə başladım. Bir az keçmişdi ki, uzaqdan gülüş səsləri eşidilən üç qız kupeyə daxil oldu. Mənimlə salamlaşıb əllərindəki əşyaları yerləşdirməyə başladılar. Mən də ayağa qalxıb onlara köməklik göstərirdim. Hər şey qaydaya düşəndən sonra qızlardan biri xahiş etdi ki, kupedən çıxım. Paltarlarını dəyişəcəkləri barədə məqsədlərini də söylədi. Geriyə qayıdanda həmin qız əvvəlki yerimə keçməyim üçün şərait yaratdı. Təşəkkür edib pəncərənin qarşısında oturdum. Qızlar idman formasında idilər, xarici dillər fakültəsində oxuyurdular. Söhbətə necə və haradan başlayacağımızı bilmirdik. Hiss edirdim ki, qızlar da oğrun-oğrun bir-birilərinə baxıb məni işarələyirdilər. Şübhəsiz, diqqətim qarşı-qarşıya oturduğumuz qızda idi. Bu qızın geydiyi idman formasının üstündə təyyarə şəkli açıq-aydın görünürdü və bu şəkil düz onun sinəsinə yapışmışdı. Birdən qız nə desə yaxşıdır? Dedi ki, nə çox baxırsan, təyyarə görməmisən? Bu suala hamımız güldük. Bir azdan qızların gülüş səsləri kəsildi, mən isə hələ asta-asta gülürdüm. Qız bu dəfə sualını bir az sərt formada təkrarladı:

– Həə, təyyarə görməmisən?

Mən isə çox diqqətlə ona baxıb təmkinlə cavab verdim:

– Təyyarə görmüşəm, amma elə aerodrom görməmişəm.

Hamımız təzədən gülməyə başladıq. Şamama məhz mənim danışdığım bu əhvalatı xatırlayaraq həmin sualı verirdi. O, mənim cavabı gecikdirməyimi görüb sualını bir də təkrar etdi:

– Həə, gül görməmisən?

Mən cavab verdim:

– Gül görmüşəm, amma elə dibçək görməmişəm.

Gülüşlərimiz bir-birinə qarışdı.

– Kənddə günlərin necə keçdi? – soruşdum.

Şamama cavab verdi:

– Hər şey gözəl oldu. Xonça xonçaya, pay paya qarışmışdı. Adamları heç vaxt bu cür gülərüz görməmişdim. Nənələrin üzündən-gözündən nur tökülürdü. Məni hansı arvad görürdüsə, elə qucaqlayıb öpürdü. Bibim mənə qırmızı yumurta bağışladı və həm də yavaşca pıçıldadı: "Anan səni tezliklə nişanlayacaq". Bibimin zarafatına gülərək əlimi yellədim və onun yanından uzaqlaşdım.

– Həə, nişanlanmaq məsələn necə oldu? – mən fürsət tapıb sual verdim.

Şamama elə bil bu sualı eşitməyib söhbətini şirin-şirin davam etdirdi:

– Bilirsən, gecə nə oldu? Kəndin sakit vaxtı qulaq falına çıxdım. Əvvəlcə lap qonşuluqda olan evin qapısının dalından qulaq asmağa başladım. Dilbər xalanın bir cümləsini eşitdim: "Şamama əməlli-başlı böyüyüb". Həm sevindim, həm də narahat oldum. Öz-özümə dedim ki, axı, qonşu nə üçün mənim adımı çəkir? Sonra da əmimgilin qapısını pusmağa başladım.

Əmim arvadının danışdığını açıq-aydın eşidirdim: "A kişi, fil qulağında yatıbsan? Gözün kordu? Şamamanın vaxtıdı, bir azdan gördün ki, qapılarını kəsdirdilər, Şamama da cavan, yelbeyin bir uşaq, odu haa, "hə" deyib ya nişanlandı, ya da qoşulub qaçdı. Günü sabah elçi gedib bir yaylıq aparmalıyıq". Bu sözləri dinləyib pəncərənin altından yavaşca uzaqlaşdım. Evimizə gəlib anamı bir küncə çəkib dedim: "Əmimgil bizə gəlmək istəyir, de ki, gəlməsinlər, mən nişanlanmayacağam". Beləcə nişanlanmadım.

Şamama dayandı, aramıza yenidən sükut çökdü. Bütün şübhələrim dağılıb getdi. Özümü toparlayıb astaca dedim:

– Şamama mən səni....

Şamama cəld hərəkətlə iki barmağını mənim dodaqlarımın üstünə qoyub sözümü yarımçıq kəsdi. O, danışmağımı istəmirdi.

Şamamanın gözləri ucsuz-bucaqsız dəryaya döndü, artıq o, məni dinməz-söyləməz dəryada batırırdı, nəinki batırırdı, ikiəlli boğazımdan tutub suda boğurdu.

Mən sağ əlimlə Şamamanın saçlarını qulağından bir az kənara itələdim. Barmaqlarımı əvvəlcə boynuna tərəf olan hissəsində, sonra isə azca qızartı çökmüş boynunda gəzdirməyə başladım. Barmaqlarımla boynuna-boğazına tumar çəkdikcə Şamamanın ehtirasa gəldiyini hiss edirdim, amma o, barmaqlarını mənim dodaqlarımdan çəkmirdi. Əlimi sinəsinə doğru endirib xalatının yaxasındakı qırmızı yarpaqları əzizləməyə başladım. Elə bil barmaqlarım yarpaqların üstündə kəpənəyə dönmüşdü. Şamama barmaqlarını dodaqlarımdan çəkib əli ilə mənim əlimi özündən uzaqlaşdıraraq kəpənəyi amansızcasına öldürdü və dedi:

– Qırmızı xətti keçmə!

Başımı ona tərəfə əymək istədim, əllərini sinəmə dayayıb irəli getməyimə imkan vermədi.

Bu zaman Sura arvadın səsi eşidildi:

– Vaxtdır! Bu gün qapı saat 11-də bağlanacaq. Rektorun əmridir.

# VI FƏSİL

## İMTAHAN

Qar Bakını bürümüşdü. Hər tərəf ağappaq süd kimi idi. Qarın yağması səhər üzü dayansa da, adamlarda belə bir təsəvvür vardı ki, bu yağıntı hələ bir neçə gün davam edəcək. Əslində göyün üzündən çəkilməyən və qar havasını canına hopduran buludlar da bunu deyirdi. Gecələr ay çıxmırdı, şəhərə həyat bəxş edən qarın işığıydı, közərən elektrik lampaları elə bil haradasa itib batmışdı.

Qarın belə gözlənilməz şəkildə tüğyan eləməsinə, hətta mağazalara çörəyin hərbi maşın olan BTR-lərlə daşınmasına baxmayaraq, universitetdə imtahan sessiyası davam edirdi. Tələbələr təkəmseyrək gəlsələr də, fakültənin dəhlizi yavaş-yavaş səs-küyə bürünürdü. Filologiya fakültəsinə daxil olan qızların hamısının paltolarında qar topalarının izi görünürdü. Giriş qapısının yanında sıra ilə düzülən oğlanlar əllərində kiçik qar topalarını oynada-oynada intizarla tələbə qızları gözləyirdilər. Qızlar da buna hazır idilər, onlar özlərini yalandan qorxaq göstərərək əlləri ilə üzlərini tutur, cəld içəri daxil olmağa çalışırdılar. Bu mənzərəni görəndə həmişə Şamamayla kirayənişin olduğumuz vaxtlar yadıma düşürdü. Bir dəfə qar möhkəm yağmışdı və yoldan həyətə girmək üçün qarı o tərəf-bu tərəfə dırmayıb cığır açmışdıq. Mən də küçədə darvazanın yanında dayanıb əlimdə iki qar topasını atıb-tuturdum. Bir də gördüm ki, Şamama gəlir. “Yaxşı oldu, indi bu qar topalarını onun başına vuracağam”, – deyə ürəyimdə düşündüm. O, mənə lap yaxınlaşırdı, özü də düz gözlərimin içinə baxırdı. Yaxınlaşdı, yaxınlaşdı, lap yanıma çatanda bir anlıq ayaq saxladı. Sanki mənə “niyə vurmursan, vur da!” – deyirdi. Amma əlim qalxmadı.

Bunu hiss edən Şamama “hardadı məndə o bəxt ki, məni qartopuya tutalar”, – deyib darvazadan içəri keçdi. Həmin vaxtdan qəti qərara gəldim ki, bundan sonra heç kəsi qartopu ilə vurmayacağam. Bax, indi də fakültənin girişində sıra ilə dayanan oğlanların sırasında mən yox idim.

Artıq dəhliz tələbələrlə dolmuşdu. Otaqlarda imtahanlar başlamışdı. Amma səs-küy kəsilmirdi və bu səs-küy binanı başına götürüb harayasa aparırdı. Müəllim gəlmədiyinə görə bizim qrupun imtahanı başlamamışdı. Müəllimin də bəhanəsi bu idi ki, belə qarlı havalarda mən bayıra çıxa bilmərəm, sürüşüb yıxılmaqdan qorxuram.

Doğrudan da, qorxulu idi, avtobuslar işləmirdi, yalnız trolleybuslara ümid qalmışdı, təəssüfedici bu idi ki, həmin müəllimənin evinin yaxınlığında trolleybus xətti yox idi, trolleybus xətti ilə müəllimənin evi arasında iki-üç dayanacaqlıq məsafə vardı. Müəllimənin razılığını alandan sonra qərara gəldik ki, gedib onu özümüz gətirək. Məsləhətləşmələrdən sonra dörd nəfər müəlliməgilə yola düşdü. Bu tələbələrdən biri Gülsurə adlı qız idi. Onu da elə-belə seçməmişdik. Hamımız yaxşı bilirdik ki, Rəxşəndə müəllimə Gülsurənin xətrini çox istəyir. Hətta ona öz doğma qızı kimi məhəbbət bəsləyirdi, Gülsurənin hərdən onlara gedib-gəlməsi də vardı. Bir dəfə mənimlə Gülsurə arasında dalaşmağa bənzər söz-söhbət oldu. Bu söz-söhbət gedib Rəxşəndə müəlliməyə çatmışdı. Müəllimə də dərslərin birində məni ayağa qaldırıb dedi: “Yadında saxla, mənim bu universitetdən bir nəfər tələbəni çıxartdırmaq ixtiyarım var”. Mən də Rəxşəndə müəllimənin həmin sözlərini nəinki o vaxtlar, elə indi də yadımdan çıxarmamışam. Gülsurəni ona görə göndərdik ki, müəllim birdən tərslik eləyib gəlməsə, Gülsurə onu razı salsın.

Haradansa yadıma bundan əvvəlki imtahan düşdü. Məntiqdən imtahan asan deyildi və müəllimimiz bütün dərs boyu deyərdi ki, pis oxuyursunuz, oxusanız da “zadaçanı” eləyə bilməyəcəksiniz. Doğrudan da, məntiq həm çətin idi, həm də bu fənnə aid məsələləri hər adam eləyə bilmirdi.

Bütün imtahanlarda birinci olaraq mən bilet çəkib danışardım. Dörd nəfər içəri keçdik, insafən hamımız yaxşı oxuyan uşaqlar idik. İçəri keçməmişdən öncə sinif nümayəndəmiz Qızıl mənə dedi ki, çalış, bayıra bir bilet çıxarasan. Mən də bilet çəkəndə üst-üstə yapışmış iki bilet götürdüm, birinin nömrəsini müəllimə söylədim, yerimə oturan kimi ikinci bileti pencəyimin alt cibinə qoydum. İmtahan verib çıxanda artıq çəkilməmiş bir bilet əlimizdə idi. Növbəti tələbə həmin bileti bayırda hazırlayır, hamının köməkliyi ilə məsələnin həllini də yadında saxlayıb imtahana girirdi. Bilet çəkəndə isə cibində olan biletin nömrəsini deyirdi, yerində oturandan sonra biletləri dəyişdirirdi. Beləliklə, karusel qaydası ilə hər kəs imtahanın suallarına yüksək səviyyədə hazırlaşıb içəri keçir və yaxşı cavab verirdi. Amma professor, nədənsə, şübhələnmişdi və nə qədər çalışırdısa əsl həqiqəti tapa bilmirdi. Arada tələbələrdən birinə sual verdi ki, axı sən dərsləri yaxşı oxumurdun, bəzən də dərslərə gəlmirdin, necə olur ki, sən belə yaxşı cavab verirsən? O da demişdi ki, seminar müəllimimiz qohumumdur, məni o, imtahana hazırlaşdırıb. Müəllim də bir qəribə görkəm alıb “həə” söyləmiş, sonra da dəftərçəsindəki siyahıya baxmışdı. Həmin tələbənin soyadının qarşısında, həqiqətən, seminar müəlliminin adı yazılmışdı. Müəllim ağır-ağır başını bulamış, yenə də şübhəli qalmışdı. Şübhəsinin də səbəbi bu idi ki, hamı yaxşı danışırdı və əslində çox çətin olan məsələləri eləməyən tələbə yox idi.

Sonralar Qızılı görən məntiq müəllimimiz ondan uşaqların hamısının yaxşı qiymət almasının səbəbini soruşmuşdu. Qızıl da gülə-gülə ona demişdi ki, müəllim, sizin qorxunuzdan hamımız imtahana ciddi hazırlaşmışdıq. Professor yenə də başını müəmmalı şəkildə bulaya-bulaya, yəni ona inanmadığını bildirərək uzaqlaşıb getmişdi.

Ən qəribə hadisə isə siyasi iqtisad imtahanında baş vermişdi. Dəqiq elmlərlə bağlı fakültələrdən fərqli olaraq humanitar fakültələrin tələbələri siyasi iqtisad fənninə o qədər də pis baxmırdılar. Bizdə yalnız həmin fənni öyrənə bilməyənlər: “Siyasi iqtisaddan zəhləm gedir”, – söyləyərdilər.

Biz dörd nəfər – mən, Arzu, Firəngiz, Şəfa hər gün universitetin kitabxanasına gedərdik. O zaman kitabxana 5 saylı çörək zavodunun yanında idi. Həmin binanın ikinci mərtəbəsində oxu zalı yerləşərdi. Biz isə sifariş verdiyimiz kitabları götürüb foyeyə çıxar və foyenin pəncərələrə tərəf genişlənən hissəsində qoyulmuş dairəvi stolun ətrafına toplaşardıq. Hətta günorta çörəyimizi də orada yeyər və kitabxana bağlanana qədər sualların cavablarını hazırlayardıq.

Siyasi iqtisad imtahanı ərəfəsində də hər gün imtahana hazırlığı bu qaydada davam etdirirdik. Əlimizdə olan 90 sualın hamısını bir-bir nəzərdən keçirir, sual-cavab edir, hətta Firəngiz bütün sualların cavablarını yazır, qalanlarımız isə suallar üzrə qeydlər aparardıq. Hazırlığın gedişində Şəfa dedi ki, mən bir sualı öyrənməyəcəyəm. Bu sual “Sov. İKP-nin XXIV qurultayı iqtisadi göstəricilər haqqında” adlanırdı. Həqiqətən, rəqəmlər istənilən qədər çox idi. Biz onlardan bəzilərini yadımızda saxlamağa çalışırdıq. Onu da bilirdik ki, bizə dərs deyən professor Mirağa Musayev həmin rəqəmlərin hamısını əzbər bilirdi, yəni gopla rəqəm deyib onu aldatmaq mümkün deyildi. Şəfa o rəqəmlərdən birini də əzbərləmədi və hərdən: “niyə o

sual mənə düşəcək?", hərdən də: "lap o suala görə qoy müəllim mənə iki yazsın", – söyləyirdi.

Mirağa müəllimlə mənim münasibətlərim tələbə-müəllim deyil, ata-oğul münasibəti idi. Seminarlarda yaxşı cavab verməyimdən başqa, fakültə komsomol təşkilatının katibi olmağım müəllimdə mənə qarşı müsbət əhvali-ruhiyyə formalaşdırmışdı. Hətta bir dəfə məndən yuxarı kursda oxuyan bir tələbəyə yaxşı qiymət verməsi üçün xahiş etmişdim, o isə tələbəyə "beş" yazmışdı.

Siyasi iqtisad fənnindən imtahan vermək üçün dərs keçdiyimiz auditoriyanın qarşısına toplaşmışdıq. Mirağa müəllim səhər-səhər birbaşa auditoriyaya daxil oldu və bizə dedi ki, dörd nəfər içəri gəlsin. Mən, Arzu, Firəngiz və Şəfa içəriyə daxil olduq. Mirağa müəllim çantasından biletləri çıxardaraq mənə uzadıb dedi:

– Hərəniz bir bilet götürüb hazırlayın, mən də dekanlıqdan imtahan vərəqini gətirim.

Mirağa müəllimin auditoriyadan çıxması ilə biletlərin içərisindən asanlarını seçməyə başladım. Birini Arzuya, birini Firəngizə verdim. Şəfa üçün asan bir bilet seçirdim. Qəfil rast gəldiyim bir bileti Şəfaya verdim. Elə bu dəm Mirağa müəllim içəriyə daxil oldu. Məni ayaq üstə görüb soruşdu:

– Bəs sən niyə oturmamısan?

Mən cavab verdim:

– Onlar bilet çəkiblər, amma mən sizi gözləyirəm.

– Bilet götür.

Mənim bilet götürməyimlə Şəfanın hıçqırtısı üst-üstə düşdü. O, elə ağlayırdı ki, sanki ən əziz adamını itirmişdi.

Biz narahat olduq. Onlar Şəfanın ağlamağının səbəbini bilmirdilər, amma Şəfanın biletinin suallarından birinin "Sov. İKP-nin XXIV qurultayı iqtisadi göstəricilər haqqında" olması

mənə məlum idi. Hamı təəccüblə bir-birinin üzünə baxırdı. Birdən Mirağa müəllim məndən soruşdu:

– O, niyə ağlayır?

– Mən bilmirəm, – deyə cavab verdim.

– Səndən soruşuram, qız niyə ağlayır? – deyəsən, Mirağa müəllim əsəbiləşirdi.

Mən yenə dedim:

– Bilmirəm.

Mirağa müəllim: "Əgər Şəfanın ağlamağının səbəbini deməsən, sənə iki yazacağam", – söylədi. Sonra qızlara üz tutub biletləri və qiymət kitabçalarını istədi. Onların qiymət kitabçalarına "beş" yazıb auditoriyadan çıxmalarına göstəriş verdi. Mən isə özümü didib-tökürdüm ki, Şəfanı hara ötürürsünüz, Şəfa gedəndən sonra onun ağlamağının səbəbini kim deyəcək? Mirağa müəllim mənim çığır-bağırıma əhəmiyyət vermədi və tələbələr gedəndən sonra bir daha soruşdu:

– Şəfa niyə ağlayırdı? Əgər onun səbəbini deməsən sənə "iki" yazacağam.

Bıçaq sümüyə dayanmışdı. Öz-özüm üçün bir çıxış yolu taparaq dedim:

– Mirağa müəllim, mənim də qiymətimi yazın, sonra deyim.

Mirağa müəllim mənim qiymət kitabçamı açdı və çox səliqə ilə oraya "əla" yazdı, qiymət kitabçasını mənə qaytardı:

– Buyur, indi söylə!

Mən heç bir söz demədim. Çox diqqətlə müəllimin üzünə baxdım. Müəllim artıq dəqiq bilirdi ki, günahkar mənəm. Sonra ağlına nə gəldisə, qəfildən dedi:

– Səhər-səhər çay içməmişəm. Get bufetdən mənə bir çaynik çay gətir, həm də sualımın cavabını hazırla. Sinif nümayəndəsinə de ki, dörd nəfər ayırıb bilet çəkmək üçün içəriyə göndərsin.

Mən çay dalınca bufetə getdim, amma çayı ona Şəfa apardı. Sonralar Mirağa müəllim məni harada görürdüsə, yavaşca barmağını silkələyirdi. Onun barmaq silkələməsi mənə "Əhməd haradadır?" kinosunda komendantın barmaq silkələməsini xatırladırdı.

Bizim uşaqların Rəxşəndə müəllimənin dalınca getməsindən bir saatdan çox vaxt keçirdi. Amma onlar hələ də gəlib çıxmırdılar. Görünür, yollar qaydaya düşməmişdi. Elə bunu düşünürdüm ki, dəhlizin o başından səs-küy qalxdı. Tələbələr oraya doğru axışmağa başladılar. Gülhüseyn və Bağır müəllimin dalaşmağının şahidi olduq. Bağır müəllim bərkdən qışqırırdı:

– Axı, mən sənə əvvəldən dedim ki, o qıza "iki" yaz. Niyə yazmadın, müəllim müəllimin hörmətini belə saxlayar? Dədə-babadan görmüşük ki, müəllim müəllimin sözünü tutmasa, tələbələr onun belinə minər!

Gülhüseyn müəllim yavaşca danışırdı:

– Ay Bağır, nə olub, bir hövsələni bas! Dünya dağılıb eləməyib ki! Qiymətdir də, yazmışıq!

Gülhüseyn müəllimin bu sözlərindən daha da qəzəblənən və bir növ özündən çıxan Bağır müəllim səsini daha da ucaltdı:

– Başa düşdüm eey, qiymətdir! Amma "iki" də qiymətdir. Hələ götürüb "beş" yazıbsan, bunu mənim acığıma eləmisən?!

Bu zaman fakültə dekanı onlara yaxınlaşaraq hər ikisinin qoluna girib dekanlığa apardı.

Məlum oldu ki, bundan öncəki imtahanda Bağır müəllim bir qıza "iki" yazıb. Qız da nişanlı imiş. Tələbələr qızın nişanlısını görüb Bağır müəllimdən xeyli gileyləniblər. Axırda da yarıciddi, yarızarafat deyiblər ki, müəllimin sənin nişanlından umacağı var. O da hövsələdən çıxıb, müəllimi hədələ-

yib. Tələbələr onu başa salıblar ki, müəllimlə işin olmasın, gedib onu vurarsan, səni tutarlar, nişanlını da universitetdən çıxararlar. Bunun əlacı ondan ibarətdir ki, fakültəmizdə Meybəli adlı bir oğlan var, onu tapıb dərdini danış. O da Meybəlini tapıb dərdini necə var elə də söyləyib. Bundan qəzəblənən Meybəli də həmin gün oğlanların qızları qartopuna tutduğu yerdə dayanıb Bağır müəllimin fakültənin yerləşdiyi binadan çıxmağını gözləyib. Bağır müəllim qapıdan çıxan kimi uşaqların dediyinə görə, Meybəli onu kefin istəyən əzişdirib. Dekanlıq xahiş edib ki, müəllim ondan başqa yerə şikayət etməsin, onun tədbirini özləri görəcəklər. Amma Bağır müəllimin hirsi soyumur, Gülhüseyn müəllimi tapıb ona tapşırır ki, həmin qıza "iki" yazsın, Gülhüseyn müəllim də yazmır. Bağır müəllimlə Gülhüseyn müəllim dalaşmağa başlayanda Gülhüseyn müəllim bu sözləri təkrar edirmiş: "Sən məni də döydürmək istəyirsən, sən məni də döydürmək istəyirsən!"

Birdən küncə toplaşıb yarısı stullarda oturan, yarısı isə ayaq üstə duran qrupumuzun uşaqlarının həyəcanlı səsləri ucaldı: "Urraaaa!" Bəli, Rəxşəndə müəllimə dəhlizin girişində göründü. Bütün qızlar ona tərəf qaçıb müəlliməni bərk-bərk qucaqladılar. Təngnəfəs olan Rəxşəndə müəllimə boynu mexli paltosunu çıxarıb tələbə qızlardan birinə uzatdı. Sonra isə soruşdu:

– İmtahan hansı auditoriyada olacaq?

Sinif nümayəndəsi əlini bayaq yığışdıqları küncə ən yaxın auditoriyanı göstərdi:

– Müəllimə, imtahan burada olacaq.

– Yaxşı, siz auditoriyaya gedin, mən dekanlıqdan imtahan vərəqini götürüb gəlirəm, – bunu Rəxşəndə müəllimə söylədi və tələbələrdən aralanıb dekanlığa tərəf getdi.

Tələbələr auditoriyaya doğru axışdılar. Amma Rəxşəndə müəllimənin dekanlıqdan qayıtması imtahan vərəqini götürüb gəlməsi qədər olmadı, yəni bir xeyli çəkdi. Uşaqlar artıq darıxmırdılar, müəllimənin arxasınca gedən oğlanlar isə ən yeni macəralarını danışırdılar. Şübhəsiz, bu macəralar Rəxşəndə müəllimə ilə bağlı əhvalatlar idi. Deyirdilər ki, Rəxşəndə müəllimə qarın üzərində sürüşməkdən çox qorxurdu, özü də açıqca söyləyirdi ki, sürüşüb ayaqlarım sınsa, mənə baxan olmayacaq. Bakıda heç kimim yoxdur, qızım isə çox balacadır, onun xəstəyə baxmaq vaxtı deyil. Bacım da rayondadır, müəllimə işləyir, kasıb adamdırlar, mənə baxmaq üçün gəlsə, dərslərini başqa müəllimə tapşırıb pulunu tutacaqlar. Onun maaşını da əlindən alsalar, evlərində vay-şivən qopacaq. Çünki ailənin əsas dolanışığı bacımın aldığı pulla bağlı idi.

Rəxşəndə müəllimənin ən maraqlı söhbəti əri ilə olan məhəbbətindən danışması oldu. Əslində bu söhbət tələbə oğlanlardan birinin zarafatla dediyi sualdan başlamışdı. Rəxşəndə müəllimə gülə-gülə söyləyirdi ki, indiki qızlar heç vaxt mənim tayım ola bilməz, qrupunuzdakı qızları çox yaxşı tanıyıram. Hamısı aciz, avaranın biridi. Onların hansı tanış olduğu oğlanın qarşısında söz deyə bilər? Yəni cəsarətləri yoxdur. Olsa-olsa, Gülsurə bir az diribaşdır. O da diribaşlığı ilə yanında oturduğu oğlanı qapazlayıb. Amma bilirsiniz mən nə eləyərdim. Oğlan mənim qabağımda əsgərlər komandirin qarşısında dayanan kimi “smirna” dururdu. Hələ indi də görməmişəm ki, mənim bir sözümü iki eləsin. Bizi tanıyanlar hərdən mənə deyirlər ki, sənin ərin fağırın biridir, dinmir, danışmır, lal-kardır. Mən də onlara deyirəm ki, yalansa onu fağır ilan vursun. Ərimi lal-dinməz eləyən mənəm.

Uşaqların hay-küyü təzəcə səngimişdi ki, Rəxşəndə müəllimə auditoriyaya daxil oldu. Elə o dəqiqə də uca səslə dedi:

– Nə yığışmısınız müəllimin stolunun başına. Dörd nəfər qalsın, – əli ilə mənim də qalmağıma işarə elədi, – qalanlarınız auditoriyanı tərk edin. Qalanlar qaldı, qalmayanlar isə dəhlizə çıxdılar. Rəxşəndə müəllimə stulda oturan kimi üzünü sinif nümayəndəsinə tutub dedi:

– Bura nə yaman soyuqdur, mənim paltomu gətir!

Sinif nümayəndəsi boynu mexli paltonu gətirib müəllimənin çiyninə saldı. Müəllimə də paltonun ətəklərini ayaqlarının üstünə qatlayıb stulda oturdu. Hamımız bilet çəkəndən sonra o, üzünü mənə tutub dedi:

– Sənə hazırlaşmaq lazım deyil, vaxtımız da yoxdur! Əyləş, biletin suallarını danış!

Mən tələbələr üçün qoyulmuş stulda oturandan sonra biletin suallarını nəzərdən keçirməyə başladım. Ağzımı açıb birinci sualla bağlı danışmaq istəyirdim ki, müəllim soruşdu:

– Səhər-səhər burada nə baş verib?

Mən cavab verdim:

– Yəqin Bağır müəllimlə Gülhüseyn müəllimin dalaşmağını deyirsiniz?

– Həə.

Həmin əhvalatı əvvəldən axıra qədər sakit-sakit müəlliməyə danışmağa başladım. Müəllimə də çox böyük heyrətlə mənə qulaq asırdı. Auditoriyaya girən olsaydı, uzaqdan elə bilərdi ki, biletin suallarına cavab verirəm. Müəllim qəfil mənim danışığımı kəsib soruşdu:

– Səncə, kim haqlıdır?

Mən sakitcə dayandım. Müəllim də çox diqqətlə üzümə baxıb cavab gözləyirdi. Dinmədiyimi görüb dedi:

– Səni burada asıb-kəsən yoxdur. Cavabın da sənin qiymətinə təsir etməyəcək. Həə, kim haqlıdır?

Mən cavab verdim:

– Gülhüseyn müəllim!

O, başının işarəsi ilə mənim sözlərimi təsdiq etdi. Sonra dedi:

– Buyur, danış!

Mən birinci sualı oxudum: "M.F.Axundovun "Hacı Qara komediyası". Müəllimə bu sualı eşidib yenə mənim danışmağıma imkan vermədən soruşdu:

– "Hacı Qara" komediyası neçə məclisdən ibarətdir?

– Beş

– Birinci məclis kimin sözləri ilə başlayır?

– Heydər bəyin.

– Heydər bəy nə deyir?

– Heydər bəy deyir: "Pərvərdigara, bu necə əsrdir? Bu necə zəmanədir? Nə at çapmağın qiyməti var, nə tüfəng atmağın hörməti var! Sabahdan axşamadək, axşamdan sabahadək arvad kimi gərək dustaq alaçığın içində oturasan. Dövlət dəxi haradan olsun, pul haradan olsun!? Ah, keçən günlər! Keçən dövrlər!.."

– Yaxşı, bəsdir, bilirsən, "pərvərdigarə" nə deməkdir?

– Allah deməkdir.

– Bəs deyirsiniz Axundov ateist olub?

– Yox, müəllimə, biz demirik, Qədim müəllim deyir.

– Qədim müəllim kimdir?

– Elmi ateizm müəllimi.

– Kül onun başına! Raykom işləyib, pul yığıb, indi də gəlib universitetdə müəllim olub, ağlı nə kəsir, onu danışır.

– Yaxşı, ikinci pərdə kimin sözləri ilə başlayır?

– Hacı Qaranın.

– Hacı Qara nə deyir?

– Hacı Qara deyir: "Allah kəssin belə bazarı! Belə alış-verişi!.."

Əli ilə mənim sözümü kəsib dedi:

– Bəsdir, gördün Hacı Qara da Allahdan danışır. Həə, sözün var?

– Yox!

– Bəs deyirsiniz Axundov Allahı tanımır. Allahı tanımayan heç Allahdan danışar? Ateizm müəlliminizin adı Qədimdir, yaxud da Yenidir bilmirəm, görəndə ona deyərsən ki, Axundovu təzədən oxusun.

– Yaxşı, müəllimə, mütləq deyərəm.

– Beşinci məclis kimin sözləri ilə başlayır.

– Heydər bəyin.

– Qısaca de görüm, Heydər bəy nə deyir?

– Deyir ki, Allah, kəråminə şükür!

– Həə, buna sözün nədir? Bəlkə, bir cavab verəsən?

– Müəllimə, deməyə elə bir sözüm yoxdur!

– İndi başa düşdün?

– Nəyi, müəllimə?

– Yox, heç nə başa düşmədim. Elə mənim dalımca danışanlar da kəmsavaddırlar. Özlərindən o qədər müştəbehdirlər ki, şişib-şişib bir gün partlayacaqlar. Nədi o, ateizm müəlliminin oğlu, adı da yadımdan çıxıb, sizdən bir kurs yuxarıda oxuyur. Bir-iki nəfəri də başına yığıb ağızlarına gələni danışırlar. Deyirlər ki, Rəxşəndə müəlliməyə bax, imtahan vaxtı tələbələrdən soruşur ki, "Hacı Qara"nın birinci pərdəsi hansı sözlə başlayır, ikinci pərdəsi hansı sözlə başlayır, üçüncü, dördüncü, beşinci pərdəsi hansı sözlərlə başlayır. Sonra da əlavə edirlər ki, gör nə savadsız müəllimədir, tələbədən də elə şey soruşarlar?! Bilirəm, bu, onların öz sözləri deyil, böyüklərinin sözü-

dür. Amma nə olsun ki, ağızdan-ağıza düşüb ki! Hələ bilirsən keçən il nə olmuşdu? Məni qəbul imtahanına salmamışdılar. Gedib dekanlığa bir qırğın saldım ki, gəl görəsən. Axırda dekan nə desə yaxşıdır? Dedi get rektorun yanına, sənin adını siyahıdan o çıxarıb. Mən də eləməyib tənbəllik, gəldim rektorun qəbuluna, dedim ki, bu işin axırına çıxacağam və çıxdım da! Nə olsa, yaxşıdır? Rektor deyir ki, ay müəllimə, sən tələbələrə əsərin hansı sözlə başlaması, hansı sözlə qurtarması barədə suallar verirsən, bu cür imtahan götürmək olmaz. Belə suallar sizin haqqınızda yaxşı fikir yaratmır.

Sənə açığını deyim ki, özümü pis hiss eləməyə başladım. Hətta rektor içmək üçün mənə su gətirtdirdi. Handan-hana özümə gəldim. Sonra da sənin indi dediklərini bir-bir ona danışıb izah elədim. Rektor imanlı adam idi, deyirdilər babası axund olub, 37-ci ildə güllələyiblər. Mənim sözlərimdən sonra o da tutuldu, rəngi bir az da qaraldı, özü də bir stəkan su istədi. Azca fasilədən sonra telefonun dəstəyini qaldırıb dekana zəng vurdu, məni qəbul imtahanlarına saldılar.

Rəxşəndə müəllimə bilet çəkib hazırlaşan qızlara hirsləndi:

– Siz maddım-maddım nəyə baxırsınız? Niyə hazırlaşmırsınız? İndi buraya gələndə diliniz topuq çalacaq!

Müəllimənin hirslənməsindən belə başa düşdüm ki, qızlar bizim sual-cavabımıza qulaq asırlar. Müəllimənin mənə verdiyi suallar ən asan suallar idi, çünki bütün tələbələr onları əzbər bilirdilər. Amma əsl mahiyyəti indi aydın oldu.

Rəxşəndə müəllimə bileti məndən alıb dedi:

– Bəsdir, bilirsən. Assistentim gəlməyib, gəl otur yanımda imtahan kitabçalarını yaz.

İmtahan qaranlıq düşənə qədər davam elədi.

# VII FƏSİL

## KONFRANS

Yaz aylarından biri idi. Oyanan təbiət adamların duyğularını da oyatmışdı. Universitetdə dərslər öz qaydasında davam edir, tələbələr şit və şirin zarafatlarından qalmır, müəllimlər təriflədiklərini tərifləyir, danlamaq istədiklərini danlayırdılar.

Yazın ətri tələbələrin iki-iki, üç-üç dərsdən qaçmalarına da şərait yaratmışdı. Dərsdən qaçanların sayı yuxarı kursda oxuyanların arasında çox idi. Onlar buna vərdiş eləmişdilər, dekanlıq tərəfindən sıxışdırıldıqda isə özlərinə məxsus çıxış yolları tapa bilirdilər. Hətta bir dəfə sözü bir yerə qoyub kiminsə nənəsinin yas yerinə getdiklərini söyləmişdilər, dekanlığın nümayəndəsi buna əməlli-başlı inanmışdı. Sonra da tələbələr bu əhvalatı xatırlayır, doyunca gülürdülər.

Elmi işlərə maraq göstərmək məsələsində yuxarı kurs tələbələrinin marağı aşağı kurslarda oxuyanlardan çox idi. Görünür, burada ötən illərin təcrübəsi xüsusi rol oynayırdı. Belə ki, dördüncü, beşinci kurslarda təhsil alanlar bir neçə fəndən, – istər Azərbaycan dili, istərsə də ədəbiyyat olsun, – kurs işi yazmış, tədqiqat aparmağın yollarını müəyyən qədər öyrənmişdilər.

Tələbə olduğumuz dövrdə Moskvada ədəbi tənqid haqqında qərar qəbul edildi. Bu, elm adamları arasında, yaradıcılıq təşkilatlarında çox böyük əks-səda doğurdu və onun təsiri ilə Universitetin filologiya fakültəsində ədəbi tənqidlə bağlı xüsusi kurs təşkil edildi. Bu kursun ilk aparıcı müəllimləri professor-

lar Qulu Xəlilov və Mehdi Məmmədov oldular. Doğrudur, ədəbi tənqid dərsləri, əsasən, birinci və ikinci kurs tələbələrinin proqramına daxil edilmişdi, biz həmin dərsləri keçmədik, amma məşğələlərdəki müzakirələrin ab-havası sürətlə bütün fakültəyə yayılırdı. Məsələn, Qulu Xəlilov xüsusi kurs keçən tələbələri “dekabristlər” adlandırır və onları ədəbi tənqidə, lap elə açığı əsərləri birbaşa tənqid etməyə həvəsləndirir, cürətli olmağa, əsərlərin müəlliflərindən qorxmamağa çağırırdı.

Biz də bundan ruhlanıb fakültədə “Düyünlər” adlı ədəbi dərnək yaratdıq. Dərnəyin adı xeyli mübahisələrə səbəb oldu. Bəziləri “Tənqid”, bəziləri “Ədəbi tənqid”, hətta bəziləri də “Ədəbi həqiqət” qoymağı təklif edirdilər. Amma “Düyünlər” adı cəlbedici və orijinal olduğuna görə onun üzərində dayandıq. Mən dərnəyin rəhbəri oldum. Ayda 1-2 dəfə yığışıb ədəbi tənqid sahəsindəki məqalələrimizi müzakirə edirdik. Hətta qərarlaşdırdıq ki, arabir şair və yazıçıları da dəvət edək, həmin tədbirləri bir az geniş auditoriyada keçirək.

İşlərimiz qaydasında idi. Üzvlərimiz yavaş-yavaş çoxalırdı. Dərnəyə marağın artması bizim nüfuzumuza də müsbət təsir göstərirdi. Bunu mən xüsusilə hiss edirdim. Müəllimlərin diqqət mərkəzində idim, rastlaşanda onlar məni saxlayır, hal-əhval tutur, dərnək barədə soruşurdular. Bəzən “orada nə işlə məşğul olursunuz” deyə kinayəli suallar da verənlər olurdu. Mən təmkinimi pozmadan dərnək haqqında məlumat verir, planlarımız barədə danışırdım. Bu vaxta qədər fakültədə yalnız poeziya dərnəyi vardı və ədəbi tənqidə aid belə bir dərnəyin yaradılması, xüsusən də onun tələbələr tərəfindən təşkil edilməsi bəzi müəllimlərdə təəccüb, bəzilərində də şübhə doğururdu.

Tələbələr arasında bizə qoşulmaq istəyənlər mənə ayrıca müraciət edirdilər. Onların heç birini geri qaytarmırdıq: bir

çoxunu üzv qəbul edir, bir çoxunu isə azad dinləyici kimi siyahımıza yazırdıq. Azad dinləyici məsələsi ağlıma qəfil gəlmişdi. Belə ki, Bəxtiyar Vahabzadənin mühazirələrində başqa ali məktəblərdən, ayrı-ayrı müəssisələrdən, tanımadığımız-bilmədiyimiz yerlərdən xeyli azad dinləyici iştirak edirdi. Dekanlıq bu dinləyicilərin sərbəst şəkildə və dərs başlamamışdan əvvəl auditoriyaya girməsinə icazə verirdi. Amma onların heç biri boş olan partalarda otura bilməzdilər, azad dinləyicilər divar boyu ayaq üstə durub mühazirələrə qulaq asırdılar. Özü də onların sayı biz tələbələrin sayından xeyli çox olardı. Kimsə partada otursaydı, şübhəsiz, onu gələn dərs auditoriyaya buraxmayacaqdılar, çünki sinif nümayəndəsi onların hərəkətlərinə nəzarət edir, hər dərsdən sonra dekanlığı məlumatlandırırdı. Hətta azad dinləyicilər müəllimə sual da verə bilməzdilər. Amma bu məsələdə israrlı olan azad dinləyicilər sualı ehtiyatla tələbələrdən birinə ötürər və tələbə həmin sualı özününkü kimi Bəxtiyar müəllimə ünvanlayardı. Bizim dərnəkdə o cür sərt qaydalar yox idi, sual vermək, çıxış etmək arzusunda olan sərbəst şəkildə istəyini həyata keçirə bilərdi, hətta aşağı kurs tələbələrini danışmağa, sual verməyə həvəsləndirirdik.

Sonra qərara gəldik ki, dərnəyin orqanı kimi "Düyünlər" adlı divar qəzeti buraxaq. Üç vatman kağızını birləşdirib həcmcə böyük bir qəzeti formalaşdırdıq. Bir neçə gündən sonra qəzet artıq hazır idi. Səhər tezdən gəlib qəzeti dəhlizin baş hissəsindəki divardan asdıq və bu elə bir hündürlükdə idi ki, tələbələrin əli ora çatmırdı, yəni qəzetin üstündə nəsə yazmaq, yaxud bir tərəfini cırmaq mümkün deyildi. Birinci tənəffüsdə qəzetin qabağına toplaşan tələbələr auditoriyalara getmək istəmir, materialların hamısını oxumağa çalışırdılar. Gop olmasın, buradakı bəzi məqalələri qəzetlərdə rahatca çap etmək olardı. Nəhayət, dekanlığın nümayəndəsinin çığır-bağırı ilə tələbələr

divar qəzetinin qarşısından çəkilib auditoriyalara dağılışdılar. İkinci tənəffüsə çıxanda artıq "Düyünlər" qəzetini divarda görmədik. Onu çıxarıb ilk partiya təşkilatının otağına aparmışdılar. Mən oraya getdim, qəzeti niyə çıxartdıqlarını soruşdum. Stolun üstünə sərilmiş qəzeti mənə göstərib: "Niyə bəs "Düyünlər?" – deyə sual etdilər. Mən bildirdim ki, burada qorxulu heç bir şey yoxdur. Sadəcə olaraq, təhlillər aparıb bədii əsərlərdəki hadisələrlə, ziddiyyətlərlə, obrazlarla bağlı düyünləri açmaq istəyirik, bu, sırf ədəbi tənqidlə əlaqədar məsələdir. Nə qədər çalışdımsa xeyiri olmadı, yəni qəzeti yenidən divara vura bilmədik.

Bundan beş-on gün sonra fakültədə elmi konfrans təşkil etmək qərarına gəldik. Əslində bu təşəbbüs bir növ "Düyünlər" qəzetinin acığını çıxmaq məqsədi daşıyırdı. Müxtəlif mövzularda məruzələr hazırladıq. Konfransın dəvətnaməsini çap etməkdə bizə universitetin "Lenin tərbiyəsi uğrunda" qəzetində əməkdaşlıq edən bir tələbə yoldaşımız köməklik etdi. Çox qəribədir, həmin konfransın dəvətnaməsi indi də professor Yaşar Qasımbəylinin arxivində qalır. O, məruzələri mənə xatırlatdı: Muxtar İmanov "Nəbi Xəzrinin təbiət lirikası", Vəli Nəbioğlu "Yusif Vəzir Çəmənzəminlinin yaradıcılığı", Nizaməddin Babayev "Dağlar dilə gəlib" (Rəsul Həmzətovun "Mənim Dağıstanım" əsəri haqqında), Akif Bağırov "Məmməd Arazın poeziyası", Yaşar Qasımbəyli özü isə "Rəsul Həmzətovun şeirlərində sənətkarlıq xüsusiyyətləri" mövzularında məruzələrlə çıxış etmişdilər. Konfransın gündəliyinə Rəsul Həmzətov haqqında iki məruzə daxil etməyimiz təsadüfi deyildi. O vaxtlar Rəsul Həmzətovun bir çox şeirlərində rejimin əleyhinə üstüörtülü misralar vardı, "Durnalar" şeirinə mətbuatdan kənar xüsusi rəng verilirdi, "Mənim Dağıstanım" kitabındakı "Keçmişinə tapança atanı gələcək topa tutar" epiqrafı tələbələrin dillər əzbəri olmuşdu.

Konfrans başlamazdan əvvəl professor Pənah Xəlilov bizə bir irad tutdu ki, konfrans barədə divara vurduğunuz elan səliqəsizdir, bilirəm, siz düşünürsünüz ki, əsas məzmundur, amma formanı formalizmdən ayırmağı bacarmaq lazımdır, onları bir-biri ilə qarışdırmaq olmaz, hər yerdə forma mühüm şərtlərdən biri hesab olunur, necə ki bədii əsərlərdə forma ilə məzmunun vəhdəti zəruri tələblərdəndir. Pənah müəllimin bu iradını tez də qəbul etdik, ona görə ki, elanın səliqəsizliyi məsələsinə, doğrudan da, əsas məzmundur deyə o qədər də fikir verməmişdik.

Konfransı mən aparırdım, sağ tərəfimdə professor Abbas Zamanov, sol tərəfimdə isə professor Pənah Xəlilov oturmuşdu. Onları konfransa dəvət edən kimi razılıq vermişdilər, "Düyünlər" qəzetinin divardan çıxarılmasından sonra müəllimlər arasından özümüzə dayaq axtarırdıq, indi onlar bizə dayaq idilər, daha heç kəs bizi çağırıb "orada nə dəsgah açmışdınız" deməyəcəklər. Konfrans fakültəyə səs saldı, indi artıq bizim aramızda günahkar axtarmırdılar.

Tələbəlik dövrümüzünn ən mürəkkəb konfransı komsomol təşkilatının hesabat seçki konfransı olmuşdu. Mən 600-dən çox tələbəsi olan fakültə komsomol təşkilatının katibi idim. Universitet komsomol komitəsindən bildirmişdilər ki, qarşıdakı ildə sizin təşkilat katibi yarımştat pullu olacaqdır. Bunu eşidən fakültə dispetçerinin qardaşı oğlu həmin vəzifəyə öz dostunu seçdirmək istəyirdi. Biz isə iclasda həmin tələbənin büroya düşməsinə etiraz etdik. Bir neçə dəfə açıq səsvermə təşkil edilsə də, həmin tələbə büro üzvlüyünə keçə bilmədi. Konfransda fasilə yarandı. Təxminən yarım saatdan sonra fakültə partiya təşkilatının büro üzvlərinin əksəriyyəti iclasa gəldilər. Çox böyük təbliğat kompaniyası başlandı. Müəllimlər xüsusilə birinci kurs tələbələrinin üzərinə hücuma keçdilər ki, siz hamıya səs

verməlisiniz, ona görə ki, universitetə təzəcə gəlmisiniz, heç iki-üç həftə keçməmiş adamları necə tanıya bilərsiniz? Rəyasət heyətində oturduğuma görə mənim səs verməyimi məhdudlaşdırdılar: partkom mənə dedi ki, ya hamıya səs verəcəksən, ya da heç kəsə səs verməyəcəksən. Uzun müzakirələrdən sonra həmin tələbə büroya üzv seçildi və sonra da fakültə komsomol təşkilatının katibi oldu.

Konfransdan iki gün, yəni şənbə və bazar günləri keçəndən sonra məni dekanlığa pedaqoji şuranın iclasına çağırdılar. Bütün kafedra müdirləri, professorlar, aidiyyəti şəxslərin hamısı orada idilər. Gündəliyə yalnız bir məsələ daxil edilmişdi: mənim universitetdən xaric olunmağım.

Mən qapının sağ tərəfində dayanmışdım. Elə bil kimisə gözləyirdilər. Əslində nə baş verdiyini o qədər də yaxşı başa düşmürdüm. Komsomolun konfransı olub, tələbələr səviyyəli çıxışlar ediblər, bir ildə gördüyümüz işlərin yaxşı və pis cəhətləri təhlil olunub, hətta universitet komsomol komitəsinin nümayəndəsi də fəaliyyətimizi yüksək qiymətləndirib. Doğrudur, seçki prosesində müəyyən problemlər yaranıb, bu da təbiidir. Hər halda nəticə olaraq konfrans öz işini yekunlaşdıra bilib. Mənim universitetdən çıxarılmağım üçün elə bir əsas yox idi. Bu qarmaqarışıq anda ağlıma bircə atam gəlirdi. Bilirəm, atam məni çox istəyirdi, universitetdən çıxıb getsəydim, üzümü danlamayacaqdı, amma bir cümlə söz deyəcəkdi: “Universiteti oxuyub qurtara bilmədin”.

Tutaq ki, məni universitetdən çıxartdılar, mən də kəndə getdim. Əsgərliyə aparmayacaqdılar, ona görə ki, hələ yaşım çatmırdı, orta məktəbi tez qurtarmışdım. Kənddə nə iş görəcəkdim? Ot biçmək, ot daşımaq, su suvarmaq, naxıra növbəyə getmək, biri dam-daş tiksəydi ona kömək eləmək – bundan başqa kənddə nə vardı ki! Bu vurhavurda bir məsələ də ağlımdan vıy-

ıltıyla keçdi. Belə ki, onuncu sinfi qurtarhaqurtarda qonşunun tut ağacının üstünə çıxıb həm tut yeyir, həm də ucadan danışırdıq. Yolla gedən Rufan kişi bizim səsimizi eşidib dayandı və mənə dedi ki, sən ki dərslərini oxumayıb bu tut ağaclarının başından düşmürsən, instituta çətin qəbul olarsan! Mən heç bir cavab vermədim, sonra da bu sözlər yadımdan çıxdı. Universitetə qəbul olub Bakıya gəldim, yataqxanada yerləşdim. Bunun üstündən iki-üç ay keçmişdi ki, döyülən qapımızı açanda gözlərimə inanmadım, qarşımda Rufan kişini gördüm. Qucaqlaşıb öpüşdük, neçə vaxtdır darıxa-darıxa kəndə olan həsrətimi bir az ovundurdum. Çay içdik, kənd barədə xeyli söhbət etdik. Birdən Rufan kişi dedi ki, bilirsən nə üçün gəlmişəm? Cavabımı gözləmədən sözünə davam etdi:

– Yadındadır, sən ağacın başında tut yeyəndə demişdim ki, instituta qəbul olmayacaqsan. Həmin sözlər səni həvəsləndirmək üçün idi, yaxşı ki, qəbul oldun, səni təbrik edirəm.

Bunları fikirləşə-fikirləşə elə bil başıma bir vedrə qaynar su tökdülər. Sonra diksinən kimi oldum. Baxdım ki, Şura üzvlərinin əksəriyyəti məndən sol tərəfdə – pəncərələrin qarşısında oturmuşdular. Otağa tam sükut hakim kəsilmişdi. Bəlkə də, bu sükutu yalnız mən hiss edirdim, yəni, ola bilsin, yanaşı oturanlar pıçıltı ilə bir-birləri ilə söhbətləşirdilər, amma mən eşitmirdim. Ya da bu məsələni eşidəndə qulaqlarım kar olmuşdu. Amma oradakıların çöhrəsində çox böyük narahatlıq hiss olunurdu. Yəqin ki, məsələdən xəbərdar olanlar heç vaxt belə hadisə ilə qarşılaşmamışdılar. Hətta bəzilərinin mənə yazığı da gələ bilərdi. Oradakıların əksəriyyəti mənə dərs demişdi, amma kiminsə durub məni müdafiə edəcəyi qətiyyən ağlıma gəlmirdi. Ona görə ağlıma gəlmirdi ki, əgər belə bir müəllim olsaydı bu məsələni eşidən kimi məsələnin iclasa çıxarılmasına imkan verməzdi. Hər halda əminliyim yox idi və deyəsən, tamamilə

təklənmişdim. Nə baş verəcəyini kəsdirə bilmirdim, nəticənin necə olacağı barədə də heç bir təsəvvürüm yox idi. Fikirlərimin belə çəlpəşik vaxtı dekan müavininin səsi (dekanımız xaricə elmi ezamiyyətə getmişdi) məni xəyaldan ayırdı:

– Bilirsən, bu iclas nə üçün çağırılıb? Yəqin bilməmiş olmazsan. Hansı müəllimdən soruşuram, sənin haqqında yaxşı sözlər danışır. Deyirlər, savadlıdır, tərbiyəlidir, salam-kəlamlı tələbədir. Mən də elə həmişə o cür düşünmüşəm. Vaxtilə sənin fakültə komsomol təşkilatının katibliyinə namizədliyni verəndə də müsbət keyfiyyətlərinə arxayın olmuşduq. Amma indi vəziyyət xeyli mürəkkəbləşib, səni universitetdən xaric etmək istəyirik.

Fasilə yarandı, mən yalnız dekan müavininin üzünə baxırdım. Nə danışacağımı da aydınlaşdıra bilmirdim. Yenə atam gözümün qabağına gəldi və məni xəyal apardı. Yenə dekan müavininin səsi eşidildi:

– Həə, bilirəm günahkarsan, ona görə danışmaq istəmirsən.

Mən dilləndim:

– Nədə günahkaram?

Dekan müavini üzünü Şuranın üzvlərinə tutdu:

– Görürsünüz, heç nəyi heç kəsin boynuna qoymaq olmur. Ağıllarına gələn işi törədirlər, bir-iki gün keçəndən sonra and-aman eləyirlər ki, bu işdən bizim xəbərimiz yoxdur. Bu uşaqlara kommunizmin əxlaq kodeksini nə qədər öyrədirsən, öyrət, heç bir faydası yoxdur. Sonra üzünü mənə tərəf tutdu:

– Doğrudan, nə iş gördüyünü bilmirsən?

Onun bir az kinayəli, bir az da sözləri uzada-uzada deməsi məni təbdən çıxarırdı, ona görə də bir qədər sərt şəkildə dedim:

– Yox!

Dekan müavini yenə üzünü müəllimlərə tutub dedi:

– Görürsünüz, necə danışır, az qalır gəlib burda məni vurub öldürsün.

Güclə eşidiləcək səslə dedim:

– Mən adam öldürən deyiləm.

Bu sözdən sonra qəzəblə dedi:

– Sən fakültə komsomol təşkilatının konfransında demokratiyaya zidd hərəkət etmisən. İndiki zamanda bu, çox böyük cinayətdir, komsomol təşkilat katibi kimi öz məsuliyyətini dərk etməmisən.

Mən qəti şəkildə bildirdim:

– Xeyr, ola bilməz. Mən komsomol işini yaxşı bilirəm, həm də Zaqafqaziya Komsomol Məktəbini fərqlənmə diplomu ilə bitirmişəm. Bütün qaydalar mənə aydındır və konfransda da heç bir qanun pozuntusuna yol verməmişəm. Əgər yol versəydim universitet komsomol komitəsinin nümayəndəsi nəzərimə çatdırardı, axı, belə bir şey olmayıb.

Dekan müavini:

– Yol verməmisən?

Mən:

– Bəli.

Dekan müavini stolun siyirməsini çəkib iki vərəq kağız çıxartdı və onları stolun üstü ilə mənə tərəf tulladı:

– Götür, oxu!

Mən irəli addımlayıb vərəqləri götürdüm və geriyə öz yerimə çəkilib sakitcə oxumağa başladım. Otağda milçək uçsaydı eşidilərdi. Diqqətlə oxuyur və oxuduqca da atamın mənə deyəcəyi sözləri xatırlayırdım: “Universiteti oxuyub qurtara bilmədin”. Hər iki vərəqdə tələbələr yazmışdılar: komsomol təşkilat katibi iclasdan əvvəl bizi təlimatlandıraraq demişdi ki, konfransda səsvermə zamanı mən əlimi qaldıranda siz də qaldı-

rırsınız, qaldırmayanda yox. Hər iki tələbə – biri qız, digəri isə oğlan idi. Onlar qərarlaşdığımız parol barədə düz yazmışdılar, amma bu barədə mən özüm heç bir nümayəndəyə bir kəlmə də söz deməmişdim. Həmin təlimatı uşaqlara komsomol fəalları çatdırırdılar. Birdən gözlərim təzədən tələbələrin ad və familiyalarına sataşdı. Onlar mənə dərs deyən müəllimlərin qızı və oğlu idi. Bunu bilən kimi atamın həmin sözlərini eşitməmək üçün hücuma keçməyi qərarlaşdırdım. İrəli yeriyib dekan müavininin əksinə olaraq, çox böyük hörmət və nəzakətlə vərəqləri dekan müavininin stolunun üstünə qoydum. Geriyə qayıdıb qapının sağ tərəfində dayandım.

Dekan müavini sanki çətin bir döyüşdən qalib çıxdığı kimi çiynini silkələyərək məmnunluq hissi ilə dedi:

– Həə, indi sözün nədir?

Təmkinimi pozmadan fikir və düşüncələrin içərisində boğula-boğula sakit səslə dilləndim:

– Mən də elə bunu deyirəm!

Dekan müavini:

– Nəyi deyirsən?

Atam və onun deyəcəyi sözlər yadımdan çıxmışdı. Artıq qalib gələcəyimə özümdə əminlik yarada-yarada danışmağa başladım:

– Məlumunuz olsun ki, fakültə komsomol təşkilatının bürosu ötən bir ildə qarşıya qoyduğu vəzifələrin hamısını müvəffəqiyyətlə həyata keçirmişdi. Abunə kompaniyasını uğurla başa çatdırmış, Azərbaycan bölməsində oxuyan tələbələrin hamısını "Azərbaycan gəncləri"nə, rus bölməsində oxuyanları isə "Komsomolskaya pravda" qəzetinə illik abunə yazdırmışıq. İki dəfə bilik yarışı keçirmişik. Tələbələrin Sabir poeziya günlərində və yeni fəaliyyətə başlayan "Altyor evi"ndəki yaradıcılıq

gecələrində iştirakını təmin etmişik. Mədəni-kütləvi tədbirlərimiz tələbələr tərəfindən maraqla qarşılanmışdır.

Dekan müavini sözümü kəsdi:

– Onları bilirik, sən o vərəqlərdəkindən danış.

Mən cavab verdim:

– Baş üstə. Hesabat ilində büromuzun qarşısında duran vəzifələrdən biri də bu idi ki, fakültə tələbələrinin kimliyini müəyyənləşdirək. Təhlil zamanı aydın olub ki, fakültə tələbələrinin yarıdan çoxu ya müəllimlərin uşaqları, qohumları, ya da universitetə müxtəlif məqsədlərlə qəbul elətdirdikləri tələbələrdir. Amma heç ağlımıza gəlməzdi ki, müəllimlər öz uşaqlarını universitetə ona görə qəbul elətdirirmişlər ki, lazım gəldikdə onları savadlı tələbələrin üzünə dirəndirib universitetdən çıxartdırsınlar. Çox təəssüflənirəm, yalandan üzümə duran həmin tələbələr mənə dərs deyən müəllimlərin övladlarıdırlar. İndi isə istəyirəm ki, nə edəcəyimizi biləsiniz. Biz sizə aid olan tələbələrin siyahısını hazırlamışıq. İki gündən sonra Azərbaycanın KP MK-nın növbəti plenumu olacaq. Həmin siyahını öyrənmək üçün plenuma göndərəcəyik.

Daha heç nə demədim. Dekan müavini əllərini bir-birinə şappıltı ilə vurub “vay səni” deyib kresloya çökdü.

Dekanlıq dəhşətli bir sükut içərisində qaldı. Sükutu kimin pozacağı bəlli deyildi. Amma bir həqiqəti bilirdim ki, atamın deyəcəyi sözlər xəyalımdan tamamilə silinmişdi.

Nəhayət, professor Fərhad Zeynalov ayağa qalxdı. Özünəməxsus təmkinlə danışmağa başladı:

– Bu tələbəni çox yaxşı tanıyıram. Ona dərs demişəm, imtahanda beş alıb. Mən də uzun müddət universitetin partiya təşkilatının katibi olmuşam. Buna bənzər hallar başqa fakültələrdə də baş verib və verir. Gəlin belə qərara gələk ki, bu cavan oğlanı universitetdən çıxarmayaq, o da bu işlərindən əl çəksin.

Sonra üzünü mənə tərəf tutub dedi:

– Razısanmı?

Mən də tərəddüd etmədən cavab verdim:

– Bəli.

Fərhad müəllim:

– Onda sən gedə bilərsən.

Dekanlıqdan dəhlizə çıxdım. Məni xeyli tələbə gözləyirdi. İlk olaraq Akif Bağırov mənə yaxınlaşıb həyəcanla soruşdu:

– Səni Universitetdən çıxartdılar?

– Yox.

– Çox pis! Gərək çıxardaydılar, – deyib hirslə uzaqlaşdı.

# VIII FƏSİL

## YATAQXANA

– Həmişə təmizlikdə.
– Həmişə təmizlikdə.
– Həmişə təmizlikdə...

Universitetin 3 saylı yataqxanasının ikinci mərtəbəsindəki dəhlizə açılan üzbəüz otaqlardan çıxan tələbələr növbə ilə həmin sözləri asta, sakit tərzdə, bir az da rişxəndlə söyləyirdilər. Həmin sözlər ağır və ləngər görünüşlü Cəbiyə deyilirdi, düzünə qalsa, onun əsl adı Cəbrayıl idi, otaq yoldaşı Rəşid bu adı beləcə kəsib doğramışdı, artıq yataqxana uşaqları onu bu cür çağırmağa vərdiş eləmişdilər. Bir bazar günü hamamdan gələndə Cəbinin yataqxanaya yaxınlaşdığını pəncərədən görən Rəşid bu oyunu Cəbi üçün qurmuşdu. Oyun deyəndə ki, yataqxanada belə hadisələr tez-tez olurdu, amma səhər-səhər bu oyuna düşən Cəbinin çırtma vursaydın qanı çıxmazdı, buna baxmayaraq, o, özünü tox tutur və bəzilərinə "çox sağ ol" deyirdi. Eyhama bulaşmış bu "çox sağ ol" kəlmələri Cəbinin ağzından sürüşüb yerə tökülürdü.

Rəşidlə Cəbi eyni vaxtda universitetə qəbul olmuşdular, eyni otaqda qalırdılar, şəhərə-bazara gəzməyə bir yerdə çıxırdılar və yaxşı da zarafatları vardı. Elə səmimi və mehriban zarafatları olurdu ki, heç kəs zarafatı onlar kimi bacarmazdı. Cəbinin yalnız Rəşidlə deyil, başqa uşaqlarla yumorlu danışmağından da inciyən olmazdı. Aşağı kurslarda oxuyan tələbələr Rəşidlə Cəbinin zarafatlarından ləzzət alırdılar, dediklərinə görə

hər ikisinin xətrini çox istəyirdilər. Rəşidin öz kurs yoldaşları arasından bir qarayanız qıza aşiq olmasına Cəbi hərdən dodaq büzürdü. Bu dodaqbüzmənin Rəşidə bir qramlıq təsiri olmazdı. Hətta Rəşid öz niyyətində möhkəm durduğunu iki misralıq şeirlə də demişdi ki, həmin misralar dillərdə əzbər olmuşdu:

Mənə tənə edib qara deyən dost,
Dünyanın yarısı qara deyilmi?

Qış semestrində auditoriyaların soyuq olduğu vaxtlarda ədəbiyyatdan imtahan verən diribaş bir tələbə həmin misraların Bəxtiyar Vahabzadənin şeiri olduğunu deyərək müəllimi aldatmış və "əla" qiymət almışdı. Sonralar isə bu şeir haqqında iki versiya yaranmışdı. Birinci versiya onun ürəkdən sevilən qarayanız bir qıza yazıldığı haqqındakı fikirdir ki, bunun həqiqət olduğunu yataqxanada yaşayan uşaqlar, ya da Rəşid və Cəbi ilə tələbə yoldaşı olanlar yaxşı bilirdilər. İkincisi isə bu misraların Bəxtiyar Vahabzadə tərəfindən yazıldığı ilə bağlı yeni yaranan versiyadır ki, onun nə dərəcədə həqiqət olduğu da elə yataqxana uşaqlarına bəlli idi. Amma ikinci versiya həmin misraların daha da məşhurlaşmasına səbəb olmuşdu, hətta yuxarı binada, – Bakı Dövlət Universitetinin indiki binası nəzərdə tutulur, – oxuyan tələbələrə də gedib çatmışdı. İki nömrəli yataqxanadakı bir ad günündə şeir həvəskarı olan riyaziyyatçı tələbə kefi saz olandan sonra həmin misraları Bəxtiyar Vahabzadənin çap olunmamış şeiri kimi ləzzətlə söyləmişdi.

Yataqxana dəhlizinin uzunluğu qədər olan bu zaman, nəhayət ki, Cəbi üçün başa çatır, o, otaqlarının qarşısında dayanır, ani və ağır nəzərlərlə geriyə baxır, "mənim işim bunlarla deyil, Rəşidlədir" fikrini xəyalından keçirir və sonra otağa daxil olur. Otaqdakılar heç nə olmayıbmış kimi Cəbini gülərüzlə və "həmişə təmizlikdə" sözləri ilə qarşılayırlar. Cəbi isə Rəşidin üzünə tərs-tərs baxır və heç bir söz demədən və heç nə

olmayıbmış kimi əlindəki iri torbadan yuyulmuş alt paltarlarını çıxarıb dəmir çarpayısının ağ nikelli başına sərir. Torbanı qatlayıb şifonerin alt gözünə qoyur və əldən düşmüş adamlar kimi çarpayısına uzanaraq dərindən nəfəs alır.

Biz Cəbigilin otağı ilə yanaşı otaqda qalırdıq, yəni el dili ilə desək, onlarla divar qonşusu idik. Divar qonşuluğunun bir gözəlliyi ondan ibarət idi ki, rayondan pay-püş gələndə bizə də nəsə düşürdü, yəni mer-meyvəyə, şor-kərəyə, kənd yumurtasına bizi tamarzı qoymazdılar. Hərdən biz də əvəzini qaytarardıq, amma onlara çata bilməzdik. Divar qonşuluğunun bir əhəmiyyəti də onda idi ki, çox vaxt bir-birimizlə divarı döyməklə danışırdıq. Məsələn, divarı tez-tez döyəndə ya mənim "Veqa" markalı radiomun səsini aşağı salmalıydıq, ya da səs-küyümüzü azaltmalıydıq. Universitetə qəbul olanda atam mənə dedi ki, ürəyin nə istəyirsə de, onu sənə alım. Mən də əl radiosu istədim və otuz beş manat verib "Veqa"nı aldım. "VEF" radiosunu özüm istəmədim, çünki çox böyük idi. Sonralar mənə aydınlaşdı ki, "Azadlıq" radiosunu, "Qolos Amerika"nı "VEF"lə daha yaxşı tutmaq olurmuş. Buna baxmayaraq, bütün tələbəlik illərimdə "Veqa" mənim sirdaşıma çevrildi, doğrudan, onu çox istəməyə başladım. Ən maraqlısı odur ki, hər bazar günü saat ikidə özümüzün hazırladığımız günorta yeməyini ləzzətlə yeyəndən sonra mən otaq yoldaşlarımla birgə çarpayılarımızda uzanaraq muğamat konsertinə qulaq asırdıq. Radionun səsinin çox, ya da az olmasından asılı olmayaraq, həmin vaxtlar divarımız bir dəfə də olsun döyülmədi.

Bizim otağımız şən bir otaq idi. Bəzi dostlarımız boş vaxtlarında, yaxud elə söhbət eləmək istəyəndə otağımıza qonaq gələrdilər. Hamımız həmin qonaqların bizə təşrif buyurmasını canla-başla istəyərdik. Hərdən yaxşı yeyib-içmək də olurdu. İçmək deyəndə ki, otaq yoldaşlarımızdan birinin əmisi

Sumqayıtda kimya zavodunda işləyirdi və bu zavod zəhərli olduğuna görə orada işləyənlərə dezinfeksiya üçün müəyyən normada "pişevoy" spirt verərdilər. Otaq yoldaşımız lazım olan vaxtları, – məsələn, ad günlərində, bayramlarda, – həmin spirtdən gətirər, biz də ona müəyyən qədər su qatıb qarışdırar və içərdik.

Yeridir deyim ki, mən kəndə əmimgilə gedəndə o da içməyimiz üçün spirtdən araq düzəldər və deyərdi ki, indi bundan təmizi və yaxşısı yoxdur. Kəndimizə sarımtıl rəngli ilk "Jiquli"ni gətirən əmim isə spirti işlədiyi Daşarx dəmiryolu stansiyasının yanındakı çaxır zavodundan alardı.

Digər divar qonşumuza aid otaq əsl aşıq məclisi idi, çal-çağır meydanından fərqlənmirdi. Yataqxanada uşaqlar zarafatla deyərdilər ki, Zəlimxan Yaqub aşıqlığı bu otaqda öyrənib. Zəlimxan Yaqub dostları ilə gələr və orada əsl aşıq deyişməsi, aşıq hərbə-zorbası olardı. Hərdən gecə saat ikiyə-üçə qədər çalıb-oxumaq qurtarmazdı, əsl dastan axşamlarından ləzzət alardıq. Gec olduğuna görə qonaqların hərəsi bir otaqda yatıb qalardı.

Otaqda "Qapı" adlı divar qəzeti buraxırdıq və onu içəridən qapının üstünə asardıq. Tələbə olduğumuz vaxtlar şərəf lövhələri kimi divar qəzetləri də dəbdə idi. Hər fakültənin şərəf lövhəsi və divar qəzeti vardı. Onların bircə fərqi bundan ibarət idi ki, şərəf lövhəsinə aid şəkillər şüşənin altında olardı, divar qəzetlərinin üstü açıq qalardı. Buna görə də həvəsə düşüb otaqda bir divar qəzeti buraxmağı qərara aldıq. Yəni bu, o qədər də problemli məsələ deyildi, amma otaq yoldaşlarımızın hamısının razılığına ehtiyac var idi, ona görə ki, başqa uşaqlar gəlib onu bizim otağımızda oxuyacaqdılar, yəni işimizə mane ola bilərdilər. Onun da çarəsini tapdıq, qəzetlə tanış olmağın günlərini və saatlarını yazıb qapının dəhlizə olan hissəsindən asdıq.

Yoldaşlarımızdan birinin yaxşı xətti olduğu üçün bütün yazıların üzünü o köçürür, hazır materialı Vatman kağızının üzərinə yapışdırırdıq. Qəzetin tərtibinə xüsusi fikir verirdik, yazılarla bərabər, tərtibi də önəmli hesab edirdik. Bu məsələdə mənim müəyyən qədər təcrübəm var idi, çünki orta məktəbdə oxuyanda xeyli məqaləm çıxmışdı və qəzetlərdəki səhifələrə, xüsusilə də şəkillərin yerləşdirilməsinə az-çox fikir vermişdim. Böyük və kiçik həcmli məqalələrin tərtibində yeni-yeni üsullar axtarır və yazılar da həmin həcmə uyğun olaraq köçürülürdü.

Əvvəlcə qəzeti ayda bir dəfə buraxırdıq, sonra isə 15 gündən bir çıxarmağa başladıq. Bunun da səbəbi məqalələrin çoxluğu idi. Belə ki, qəzet aylıq çıxanda onun yazılarını ancaq biz özümüz yazırdıq. Bir müddət sonra qonşu otaqlardan da məqalələr, şeirlər, şəkillər gəlməyə başladı və otağımız əsl redaksiyaya çevrildi. Otaq yoldaşlarımızdan biri, – bizə içmək üçün "pişevoy" spirt gətirən dostumuz, – sonralar Sumqayıtdakı kimya zavodunun çoxtirajlı qəzetinin baş redaktoru oldu. Biz bunu divar qəzetimizin xeyiri kimi mənalandırırdıq. Başqa bir xeyiri ondan ibarət idi  ki, sözlərin yazılışında problem çıxdığı üçün orfoqrafiya lüğətinə ehtiyacımız oldu. Ona görə də mağazalardan həmin lüğəti axtarmağa başladıq, amma tapa bilmədik. Çünki həmin lüğət 20 il qabaq çap olunmuş və satışda qurtarmışdı. Düşündük ki, universitetin kitabxanasından götürüb sonra qaytaraq. Bu halda birincisi, kitabı on-on beş gündən bir qaytarıb yenidən götürməliydik; ikincisi də kitab kimin adında olsaydı və semestr qabağı təhvil verilməsəydi, şübhəsiz, onu semestr imtahanlarına buraxmayacaqdılar. Onda  qərara gəldik ki, kitabı birdəfəlik götürək və kitabxananın qaydasına əsasən qiymətini on qat ödəyək. Mən 5 saylı çörək zavodunun yanında yerləşən və foyesində imtahanlara hazırlaşdığımız universitetin kitabxanasına gəldim. Həm oxu zalında oturub oxu-

yanlara, həm də evə kitab verən iki qadın tanıyırdım. Onlardan biri iş təcrübəsi çox olan yaşlı qadın, digəri isə universitetin kitabxanaçılıq fakültəsini qurtarıb təzəcə işə götürülən cavan qız idi. Qabaqcadan düşündüm ki, yaşlı qadınla dil tapmaq heç cür mümkün olmayacaq. Cavan qız isə kitab verməkdən qorxsa, işimiz mürəkkəbləşəcəkdi. Başqa yol yox idi, cavan qızı foyeyə çağırdım, güman etdim ki, yaşlı qadın nədənsə şübhələnəcək, amma bunun fərqinə varmadım. Mən niyyətimi ehtiyatla qıza dedim, qız isə qəflətən nə desə yaxşıdır, dedi ki, sən Şamamanın qohumusan? Bu sual məni xeyli yüngülləşdirdi. Mən də tez soruşdum: "sən bunu haradan bilirsən?" O: "mən yataqxanada qalırdım, sizi yataqxananın vestibülündə görmüşəm", – deyə cavab verdi. Ürəyimdə düşündüm ki, burada Şamamanın bizə xeyiri dəyəcək. Elə bu an qız: "fonddakı "Orfoqrafiya" kitablarının sayına baxım, sonra sizə xəbərim dəyər", söylədi. Mən foyedə gözləməli oldum. Handan-hana qız gəlib "düzələn işdir", dedi. Sabah səhər-səhər mən burada tək olacağam, gələrsən, həll edərik. Bir məsələdə də rahatlıq tapdım: təcrübəli qadın mənimlə bağlı nəsə soruşsa, bu cavan qız onun başını Şamamayla qatacaq.

Səhər saat onda kitabxanaçı qızın yanında idim. O, mənə dedi ki, sən iki kitab üçün sifariş yaz və mən sifarişləri yazdım. Bir neçə dəqiqədən sonra qız üç kitab gətirdi. Onlardan biri "Orfoqrafiya" lüğəti idi. Sonra dedi ki, bunu qeydə almıram, heç cildinə yerləşdirilmiş qeydiyyat kağızını da çıxartmıram, fondda onların sayı çoxdur, heç istifadə eləyən də yoxdur. Apar istifadə elə, ürəyin nə vaxt istəsə qaytararsan. O biri kitabları da qapının ağzında duran Bənövşə xalanın gözündən yayınmağın üçün sifariş verdirdim. Mən qıza "sağ ol" deyib xudahafizləşəndə o da mənə: "Şamamanı görsən, deyərsən ki, Şəbnəm sənə salam göndərirdi, – söylədi". Zənnim məni heç

aldatmamışdı, əslində bu kitabı Şamamanın hesabına əldə etdik. Həmin "Orfoqrafiya" lüğəti hələ də məndədir, kitabı qaytara bilmədim, çünki Şəbnəm ailə qurandan sonra kitabxana işindən ayrılıb getmişdi.

Qəzetdə şeirlər, kiçik hekayələr, məqalələr, şəkillər verir, hətta bəzi tələbələrin ad günlərini də təbrik edirdik. Amma marağımız daha çox o dövr üçün "şipetilni" yazılara idi. Belə yazılar uşaqlarda maraq yaradır, onlar bu barədə digər fakültələrin tələbələrinə də danışırdılar. Hətta bir dəfə riyaziyyat fakültəsində oxuyan və 2 saylı yataqxanada qalan iki tələbə qəzeti oxumaq üçün bizə gəlmişdilər. Həmin vaxt divar qəzetində Yuri Qaqarin haqqında məqalə vermişdik. Bu məqalənin məzmununu Moskvada oxuyan kimyaçı bir tələbə danışmışdı, yəni bu söhbət Moskvadan gəlib çıxmışdı.

Məqalənin adını belə qoymuşduq: "Yuri Qaqarinin uçmasını Xruşşovun qızı xahiş etmişdi". Xruşşov kosmosa uçmaq üçün hazırlıq keçən adamların siyahısını və şəkillərini gətirməsini akademik Korolyova tapşırır. Akademik Korolyov həmin şəkilləri Xruşşova çatdırır və Xruşşov da onları axşam evlərinə aparır. Ailə üzvləri kosmonavt olacaq adamların adlarını və şəkillərini bir-bir nəzərdən keçirirlər. Yuri Qaqarinin gülümsər sifəti Xruşşovun qızının xoşuna gəlir, o da atasına deyir ki, mən istəyirəm birinci Yuri Qaqarin uçsun. Səhərisi gün Xruşşov akademik Korolyovu çağırıb ona tapşırır ki, kosmosa ilk olaraq Yuri Qaqarin uçmalıdır. Beləliklə, kosmosa ilk olaraq Yuri Qaqarin uçur. Sonralar akademik Sergey Korolyov öz xatirələrində yazmışdı ki, kosmik mərkəzdə Yuri Qaqarini ilk uçacaq kosmonavt kimi elan etmək mənim üçün çox çətin idi. Çünki hazırlıq keçənlər xəbərsiz olsalar da, yuxarı heyət yaxşı bilirdi ki, birinci German Titov uçmalıydı. Mən xeyli fikirləşəndən sonra çıxış yolu tapdım. Yuxarı heyəti yığıb müşavirə

keçirdim. Müşavirə başlayan kimi birbaşa dedim: mən qərara gəlmişəm ki, kosmosa ilk olaraq German Titov yox, Yuri Qaqarin uçsun. German Titov uçsa, bütün dünya söyləyəcək ki, kosmosa ilk uçan adam almandır. Heç gözləmirdim, hamı razılaşdı.

Riyaziyyatçı tələbələr üçün çay süfrəsi düzəltdik. Xruşşov barədə, kosmos haqqında xeyli söhbət elədik və onlar bizdən razı getdilər.

Divar qəzetinin çox maraqla qarşılanan materiallarına qəzetdə verdiyimiz bir şəkil və onun altındakı yazı da daxil idi. Şəkli qəzetin düz ortasında yerləşdirmişdik, çalışmışdıq ki, qəzetə baxanlar birinci onu görsünlər və istəyimizə nail olmuşduq. Hamı ondan danışır, hətta bunu haradan əldə etdiyimiz barədə bizə suallar da verirdilər, şübhəsiz, biz onu gizli saxlayırdıq. Həmin şəkli jurnalistika fakültəsinin tələbələrindən biri vermişdi və deyirdi ki, Amerika qəzetlərində çap olunub, Misirdə təcrübə keçən şərqşünas tələbələrdən biri gətirmişdi. Şəkil Özbəkistana aid idi: məktəbli qız qozaları ağappaq açılmış və ucu-bucağı görünməyən ağ güllər dənizinə bənzəyən pambıq tarlasının ortasında dayanmışdı, şəkil möhtəşəm idi, yüksək peşəkarlıqla çəkilmişdi. Şəklin altında şərqşünas tələbənin jurnalist oğlana dediyi və Amerika qəzetlərindən götürülmüş sözləri yazdıq: “Sovet İttifaqında uşaq əməyinin istismarı”. Etiraf edim ki, orta məktəbdə oxuyanda biz də iki-üç ay pambıq yığımına gedirdik, amma heç vaxt ağlıma gəlmirdi ki, bu, uşaq əməyinin istismarıdır.

Şübhəsiz, belə bir şəklin çapı və onun altındakı yazı çox riskli addım idi. Çünki bir neçə ay bundan əvvəl yataqxanada yaşayan tələbələrdən birini KQB-yə çağırmışdılar. Həmin tələbə Lenin haqqında kefi istədiyini danışırmış. KQB-də onun aşının suyunu, duzunu verib, qayıdıb gələndən sonra Leninin şə-

ninə 4-5 şeir yazdı. Hətta şeirlərdən birini divar qəzetimizdə vermək istəsə də, razı olmadıq. Bu hadisə göstərirdi ki, məktəbli özbək qızının pambıq tarlasında çəkdirdiyi şəklə görə bizim də başımız ağrıya bilər. Amma heç bir söz-söhbət olmadı. Yeni qəzet hazır olanda şəkli götürüb həmin jurnalistə qaytardım. Bir xeyli bundan qabaq ağlıma haradan gəldisə həmin jurnalisti axtarmağa başladım, şəklin qalıb-qalmamasını ondan soruşmaq istəyirdim. Amma dedilər ki, həmin jurnalist Ərzurumda oxuyan oğluna baş çəkməyə gedərkən yolda avtomobil qəzasına düşərək həlak olmuşdu.

Divar qəzetində maraqlı lətifələrə də yer ayırırdıq. Şübhəsiz, bu lətifələrdə mümkün qədər jarqon sözlərin işlənməməsinə çalışırdıq. Yenə də "şipetilni" lətifələr ağlımızdan keçirdi. Hətta bir dəfə qəzetin lap aşağı küncündə açıq-saçıq görünməsin deyə kiçik bir siyasi lətifəyə yer ayırmışdıq. Lətifə SSRİ Nazirlər Sovetinin sədri Kosıgin haqqında idi. Düzü, bu lətifəni ilk növbədə Kosıginin, sonra isə geniş mənada Sovet hökumətinin xeyirinə yazı hesab etmək olardı. Lətifədə deyilirdi ki, bir gün Kosıgin tanınmış iki görkəmli rəhbər işçini yanına çağırır. Çay süfrəsi düzəltdirir və onlarla birgə çay içir. Kosıgin onlara deyir ki, özünüzü tam sərbəst şəkildə – öz dostlarınızla oturmuş kimi apara bilərsiniz, elə təsəvvür eləyin ki, öz dostlarınızla oturmusunuz. Elə bu sözə bənd imişlər kimi məmurların hər ikisi siqaret çəkməyə başlayırlar. Kosıgin də siqaret qutusunun içindən birini götürüb yandırmaq istəyir. Bu zaman məmurlardan biri əlindəki siqareti, digəri isə tez yandırdığı kibriti Kosıginin siqaretinə tərəf uzadır. Çay süfrəsindən sonra Kosıgin həmin məmurlarla kabinetinə gəlir, onun siqaretini kibritlə deyil, siqaretlə yandıran məmuru iqtisadiyyat naziri təyin edir və deyir ki, iqtisadiyyat naziri qənaətcil olmağı bacarmalıdır.

Qəzetin guşələrindən birini də şeirlər təşkil edirdi. Məzəli şeirlərə, yumoristik misralara daha çox üstünlük verirdik. Hətta bəzən biz bütün şeiri yox, bir misranı, bir beyti, bir bəndi də qəzetə yerləşdirirdik. Bu şeirlərin də həvəskarları çox idi. Rəhmətlik Şamxal Rüstəmin şeirləri isə daha maraqla oxunurdu. Hətta onları uşaqlar əzbərləyir, bəziləri də kağıza köçürüb ayrı-ayrı fakültələrin qızlarına paylayırdılar. Ən maraqlısı budur ki, keçən günlərdə jurnalist dostlarımdan birinə zəng vurub dedim ki, Şamxalın şeirlərindən yadda qalanı varsa birini desin, onlardan ötrü darıxmışam. O da aşağıdakı bəndi söylədi, biz həmin nümunəni qəzetdə vermişdik:

Alıb göndərişi çıxdım otaqdan,
Düşdüm əl-ayağa mən Zinyət üçün.
Dağlara sığmayan şair vüqarım
Əyildi önündə bir qiymət üçün.

Hərdən Rza Nasirin də şeirlərini verirdik. Ona görə hərdən deyirəm ki, onun əksər şeirləri sevgi-məhəbbət mövzusundaydı. Özü də: "Şeirlərimi çox vaxt qoşma, gəraylı formasında yazıram, qəzetlər çap eləməsələr də, qoy tamadalar toy məclislərində söyləsinlər, yoxsa çətin məşhurlaşaram", – deyirdi. Qəzetə bir az yumorlu, gülüş doğuran şeirlər lazım idi. Belə şeirlər həm tez yayılır, həm də tez yadda qalırdı.

Rza Nasir şeir yazmağına baxmayaraq, özünə Nasir təxəllüsünü götürmüşdü, bu da onun familiyasından irəli gəlirdi, familiyası Nəsirov idi. Bir gün qərara gəldik ki, Rza Nasirin yaradıcılıq gecəsini keçirək. Yataqxanada əməlli-başlı hazırlıq işləri görülməyə başladı. 17 nömrəli otaq təmizlənib qaydaya salındı. Döşəmə yuyuldu, çarpayıların üstü düzəldildi, hətta pəncərələrin şüşələri də silindi. Bu otaq qızlar yataqxanasına tərəf baxdığına görə oradakı qızların çoxusunun gözləri buraya dikilmişdi. Üzü bizə tərəf olmayan otaqların qızları isə mət-

bəxə yığışır, nəsə deyir və gülüşürdülər. Təmizlik tədbiri kənd yerlərində Novruz bayramından qabaq qız-gəlinin gördükləri yır-yığış işlərinə oxşayırdı. Amma Novruz bayramı arxada qalmışdı, indi may ayının lap əvvəli idi. Samir səhər-səhər kiminsə alıb gətirdiyi və içi su ilə dolu vazaya qoyulmuş gül buketini stolun üzərindən götürüb Rza Nasirin çarpayısının yanındakı tumbanın üstünə qoydu, bir az da gileyləndi: "Neçə dəfə dedim ki, bu gül buketini stolun üstündən yığışdırın! Hərə öz kefindədir! Bəs yemək-içməyi hara qoyacağıq? Axı, buraya süfrə salınacaq, qablar düzüləcək! Çörəyə, xörəyə yer tapmayacağıq ki! Hələ gülləri də ortalığa qoyursunuz!" Onun da danışığına heç kəs fikir vermirdi, hərə öz işini görürdü. Bu dəm qapı açıldı, Sahib güclə gətirdiyi torbaları şifonerin qabağına qoydu. "Bazarlığa daha bundan sonra özünüz gedin, məni həlak elədiniz axı", – deyib cibindən çıxardığı dəsmalla alnının tərini sildi. Samir dilləndi:

– Pahooo! Böyük iş görübsən. Sənin tayların indi kənddə ot biçir, şələ daşıyır. Nə böyük iş olub ki! Beş kilo kartof, iki kilo da soğan alıbsan. Nənəm onları bir çeçələ barmağı ilə fırlayıb qonşunun həyətinə tullayardı. Yazıq Güləsərin halına! Sənin kimi bivec adamla ömrünün axırına qədər necə yaşayacaq?

– Yaxşı, yaxşı, dilini dinc qoy! Başın girmədiyi yerə bədənini soxma! – bu  sözləri Sahib dedi.

Rza Nasirin atası ferma müdiri idi. Ona görə də ara-sıra Rza üçün ət, yağ, pendir göndərərdi. Bir-iki gün qabaq xeyli pay gəlmişdi. Əslində Rza Nasirin yaradıcılıq gecəsinin keçirilməsi fikrini də bu pay-püşdən xəbəri olanlar ortaya atmışdılar. Doğrusu, mən o qədər pay-püşün gəlməsinə inanmırdım, hətta deyirdilər ki, bütöv bir heyvan da göndərmişdilər. İnanmırdım, çünki bizim mərtəbədə soyuducu yox idi və o qədər də əti,

yağı, pendiri saxlamaq mümkün deyildi. Bu söhbəti Məhsəti türklərindən olan və bizimlə bir kursda oxuyan Xuseynə (əsl adı Hüseyn idi) dedim. O da pıçıltıyla mənə bildirdi ki, sənin dünyadan xəbərin yoxdur, Rza evdən göndərilən əti, yağı, pendiri yataqxananın komendantı Zeynəb arvadın otağındakı soyuducuya qoyur, otağın bir açarını da Zeynəb arvad Rzaya verib. Özü də təkcə indi deyil ki, neçə illərdir ki, belədir. Mən: "Doğrudan da, dünyadan xəbərim yox imiş!" – deyib əlimi əlimə vurdum.

Uşaqlar müxtəlif cür yemək hazırlayırdılar. Bunlardan danışmazdan əvvəl deyim ki, yataqxanada baş verən ən məzəli hadisələr sırasına ümumi mətbəxdə bişən xörəklərin başına gətirilən oyunlar da daxil idi. Yəni bir də görürdün ki, kiminsə bişirdiyi xörək qəflətən yoxa çıxdı, başqa bir otaqda qalan tələbələr xörəyi götürüb evlərinə aparıblar. Daha onun dalına düşməyin faydası yox idi, həmin gün pendir çörəklə kifayətlənmək lazım gəlirdi. Ona görə ki, xörəyi tapmaq mümkün olmayacaqdı. Onu aparanın qapısını lap sındırsaydın belə qapı açılmayacaqdı. Amma insanlar ya həmin gün, ya da sabahısı xörəyin bişdiyi qabı-qazanı, yaxud skvarotkanı tərtəmiz yuyaraq gətirib mətbəxə qoyardılar. Yenə sağ olsunlar, yeni qab-qacaq almağa ehtiyac olmazdı. Rza Nasirin yaradıcılıq gecəsi üçün hazırlanan yeməklərə tam nəzarət var idi. Birincisi, 17 nömrəli otaq mətbəxlə üz-üzə yerləşmişdi, ikincisi də mətbəxdə çox adam olduğuna görə belə bir hal mümkün ola bilməzdi.

Axşam yeməyi vaxtı məclis tam hazır vəziyyətə gətirildi. Balaca bir otağa 20-25 adam sığışmışdı. Məclis elə təzəcə başlamışdı ki, Zəlimxan Yaqubla Aşıq Aydın da oraya gəlib çıxdılar.

Rza Nasirin otaq yoldaşı əvvəlcə qonaqların hamısına "xoş gəldin" dedi, sonra onun yaradıcılığı haqqında qısa məlu-

mat verdi. Rza Nasirin xalqın həyat və güzəranını əks etdirən bir şair kimi gələcəkdə xalq şairi olacağına inamını bildirdi.

Ən maraqlısı çıxışların müxtəlif dillərdə olması idi. Samir fars dilində, Sahib ingilis dilində, Oruc alman dilində, mən isə fransız dilində Rza Nasirin yaradıcılığını təhlil elədik. Bunlar xarici radiostansiyalara ötürülən məlumatlar kimi təqdim olunurdu. Sonra yemək-içmək başladı, axırda isə Zəlimxan Yaqubla Aşıq Aydının deyişməsi məclisi dastan axşamına çevirdi. Gecə saat 3-ə qədər bu məclis davam elədi. Zəlimxan Yaqubla Aşıq Aydın həmin gün yataqxanada gecələməli oldular.

Səhərisi Şamama məndən soruşdu ki, gecə yataqxananızdakı o vurhavur nə idi? Mən də bu əhvalatı başdan-ayağa ona danışdım.

# IX FƏSİL

## GÖRÜŞ

Azneft meydanının bulvar hissəsində bir kölgəlik tapıb gözləməyə başladım. Kölgəlik də sən deyən rahat bir yer deyildi. Yolun kənarındakı elektrik dirəyinin özü kimi uzanan kölgəsinə pənah gətirmişdim. O tərəf bu tərəfə yalnız kölgə boyu getmək olardı, amma mən hərəkət eləmirdim, tərləyəcəyimdən qorxurdum. Günəş yavaş-yavaş qüruba enirdi və bir azdan kölgə də yox olub gedəcəkdi. Bu yolüstü məkanda elə də çox gözləmədim. Kürəyimə yavaşca bir əl toxundu:

– Eeey.., kimi gözləyirsən? – bu, Şamamanın səsi idi.

Bir dəfə o, görüş yerinə məndən tez gəlmişdi. Kənardan gördüm ki, əməlli-başlı darıxır. Yavaş-yavaş gəlib əllərimlə onun gözlərini örtüb: “Bu kimdir?” – deyə sual verdim. Şamama belə etmədi; görünür, isti öz təsirini göstərirdi. Yavaşca arxaya çevrildim, Şamama mənim kimi düz uzanan kölgənin üstündə dayanmışdı, bir qarış belə kölgədən kənara çıxmamışdı. Elə bil bu kölgəlik bizim üçün cəza evi idi. Şamama kimano bir don geyinmişdi, hava rəngində olan paltarın üstündə sarı rəngli gül ləçəkləri həkk olunmuşdu. Donunun ətəyi dizindən bir az yuxarıda idi. Qol hissəsi qara rəngli dairəvi və nazik lentlə örtülmüşdü. Bu qara rəng onun ağappaq bədəni ilə təzad yaratmışdı. Bəlkə də, modelyer onu bilə-bilə düşünmüşdü. Amma Şamamanın bu cür paltar seçməsi mənə qəribə gəldi. O, bunu hiss etdi və fikrimi dəyişmək üçün dedi:

– Həə, kimi gözləyirdin?

Şamamanın dodaqları qaçdı, mən də azca gülümsəyərək cavab verdim:

– Daha heç kimi!

Qucaqlaşdıq. Tez də geri çəkildik, çünki ətraf tünlük idi, gediş-gəliş bir an belə səngimirdi, tüğyan edən istinin də hərarəti bədənimizə çökmüşdü.

Dayandığımız kölgəlik Şamamaya ləzzət verirdi. Hiss edirdim ki, Şamama buradan çəkilmək istəmir. Günəşin istisindən yayınmağa xidmət edən bu yer, bəlkə də, onun və mənim həyatımın sonuncu romantikası idi. Şamama əli ilə donunu göstərib dedi:

– Niyə "mübarək" demirsən?

– Həə, mübarəkdir, mübarəkdir, – deyə mən dedim.

– Artıq gecdir, – o, cavab verdi, – bunu mən deməmiş görməliydin.

Gülüş səslərimiz bir-birinə qarışdı.

– Elə burada dayanacağıq, bəlkə, gedək? – mən soruşdum.

– Yox, heç yerə getməyəcəm, – Şamama cavab verdi.

Qəribədir, istidən yaxa qurtarmaq üçün bu uzun kölgəni mən tapmışdım, amma Şamamaya daha çox ləzzət verirdi. Elə bil Şamama neçə illər idi ki, bu yeri axtarırdı, ona görə də heç yana tərpənmək istəmirdi. Yenə mən dilləndim:

– Getsək yaxşıdır, yoxsa burada çox dursaq, isti bizi də yandıracaq.

Əslində bunu ona görə deyirdim ki, bu kölgəliyin adı kölgə idi, özü bir qəpiyə dəyməzdi. Sadəcə, günəşin özündən gizlənirdik, bu kölgəlik öz hərarəti ilə günəşin düşdüyü yerlərdən azca fərqlənirdi. Mən yenə sözümə davam elədim:

– Bax, bir az da dayansaq, qapqara qaralacaqsan, qaralmaqdan qorxmursan? Əslində mən onun bədəninin ağlığına işarə edirdim.

Şamama cəld dilləndi:

– Qorxmuram, mən heç kəsdən qorxmuram. Bir də qaralsam, uzaqbaşı sənin kimi olacağam.

Biz yenə gülüşdük və mən onun əlindən tutub kölgəlikdən kənara çəkmək istədim, o, uşaq kimi ayaqlarını möhkəm-möhkəm yerə dirəyib müqavimət göstərirdi. Mənə təəccüblü gələn o idi ki, Şamama ətrafdakı adamları qətiyyən hiss etmirdi. Qəfil və çox inamla dedim:

– Gəl gedək, sənə dondurma alım!

Şamama gözlənilmədən: "aldatmırsan, gedək", – dedi və biz kölgənin sehrindən qurtardıq.

Elektrik dirəyinin kölgəliyindən bir neçə metr dənizə tərəf olan məkan istirahət yeri idi. Buraya "Məhəbbət bağı" da deyirdilər ki, orada bir-birindən aralı və bir neçə sıranı əhatə etməklə skamyalar qoyulmuşdu. Həmin skamyalarda, adətən, təzəcə bir-birlərini sevənlər əyləşirdilər. Bulvarı gəzən yaşlı adamlar "Məhəbbət bağı"nın sərhəddinə qədər gələr, oraya gözucu baxsalar da, yavaşca geri qayıdardılar, heç kəs oradakıların xətrinə dəymək istəməz və onları narahat etməmək üçün bu bağa ayaq basmazdı. "Məhəbbət bağına" tam yaxınlaşdıq, ağac kölgələrinin üstünü örtdüyü skamyalar cavanlar tərəfindən tutulmuşdu. Biz bu tanış məkanda vaxt keçirməyi ağlımıza gətirmirdik, sadəcə, bulvar boyu gəzmək, söhbət etmək istəyirdik. Qəribədir, kinoya baxmaq fikrimiz də yox idi. Mən dünən Şamama ilə kino barədə danışanda o, tərəddüd etmədən: "qaranlıqdan zəhləm gedir", – dedi.

Artıq günəş yox olmuşdu, amma onun istisi hələ də asfaltın üstündə hiss edilirdi. Biz bulvarın mərkəzinə doğru hərə-

kət etdikcə keçmişləri xatırlayır, yadımıza düşən maraqlı əhvalatları danışırdıq. Düzünə qalsa, danışmaq üçün Şamama mənə heç imkan vermir, özü isə söhbət eləməkdən yorulmurdu. Birdən qarşımıza tabaşirlə çəkilmiş ağ xətlər çıxdı. Bu, uşaqların "klas-klas" oynamaları üçün çəkdikləri xətlər idi. Şamama tənbəllik eləməyib "klas-klas" oynamağa başladı. O, bir ayağı ilə tullana-tullana xətləri keçir və başa çatdıqdan sonra geri qayıdırdı. Yanımızdan ötən adamlar diqqətlə Şamamaya baxır, bəziləri məmnunluq hissi ilə gülümsəyir, bəziləri ağız büzürdülər. Məmnunluq hissi ilə gülümsəyənlər onun "klas-klas" oynamağının mahiyyətini başa düşürdülər; ən azı ona görə ki, mən onun yanındaydım və bu oyun sevgi hissinin nəticəsi idi. Yoxsa o qədər gəlib-gedənin yanında kim tək ayaqla bulvarın ortasında "klas-klas" oynayardı. Ağız büzənlər isə yəqin "bu yekəlikdə qızın hoppanıb düşməyinə baxın", – deyə ürəklərində onu qınayırdılar. Amma ağız büzənlər haradan biləydilər ki, bu gün Şamama ilə mənim Bakıda bir-birimizi gördüyümüz, bir-birimizlə belə rahat gəzdiyimiz, tələbəlik illərinin ən xoş çağlarını xatırladığımız axırıncı gün idi. Mən sabah səhər Şamamanı avtovağzaldan evlərinə yola salacaqdım.

Şamama düz qarşımda dayandı, zabitəli görkəm aldı, – bu görkəm ona heç yaraşmırdı, – sonra da amiranə səslə dedi:

– Bəs sən niyə oynamırsan?

Mən heç nə deməyib gülümsəyərək ona baxırdım. Şamama ciddiləşmişdi. Bu fikrin onun ağlına haradan gəldiyini təsəvvür eləyə bilmirdim. Şamama elə bil mənimlə dava edirmiş kimi hirslə dilləndi:

– Oynamayacaqsan?

Başımı bulayaraq "yox" dedim. Şamama qızışdı:

– Nə olar, oynama! Mənimlə oynamağı özünə sığışdırmırsan. Amma hamı yataqxanada danışırdı ki, keçən həftə Ar-

zunun toyunda ortadan çıxmırdın. Qızlarınızı bir-bir ortaya çağırıb oynadırdın. Nə olar, məni özünə yaraşdırma, indi həmin qızlardan biri burada olsaydı, adam-madam saymayıb bu asfaltın üstündə sındırardın.

Vəziyyətin həddindən artıq tündləşdiyini hiss edib Şamamanın qolundan azca silkələyərək dedim:

– Sənə nə olub belə? Sən nə danışırsan?

– Mən olub keçənləri danışıram, bəlkə, düz danışmıram? Yəqin bu söhbət sənə xeyir eləmir, yaxşı, qurtaraq getsin, – bu sözləri Şamama deyə-deyə qolunu əlimdən çəkdi.

– Şamama, səni başa düşdüm, di gəl gedək, – bunları deyib addımlamağa başladım. Şamama da səssiz-səmirsiz mənim yanıma düşüb yoluna davam elədi.

Xeyli söhbət eləmədik, aramıza dərin sükut çökmüşdü. Adamlar bizə ya ilk dəfə görüşən, ya da dalaşan cavanlar kimi baxırdılar. Lap dəqiqi desəm, Şamamaya diqqət kəsilənlər bunu ilk görüş kimi dəyərləndirə bilərdilər. Çünki onun geyimi, incə davranışı, sakit təbiəti onu diqtə edirdi. Amma mənə baxanlar bizi dalaşan kimi təsəvvür edərdilər. Buna klassik formanı xatırladan paltarlar – əynimdəki şalvar və köynək əsas verirdi, üstəgəl ki, idmançı ayaqqabısı deyil, qara tufli geymişdim.

Qarşımıza dənizdən 10-15 metr kənarda stol və stulları düzülmüş kafe çıxdı. Bu kafe hərəkət etdiyimiz yoldan bir neçə pilləkən aşağıda idi. Hündürdən dedim:

– Həə, axı mən sənə dondurma alacaqdım, gəl aşağı düşək.

Bu sözlərdən sonra onun əlindən tutub pilləkənləri aşağı endik. Dodağının altında: "yaxşı ki yadına düşdü", – deyən Şamamanın bir həftəlik hirsi hələ də soyumamışdı.

Kafenin müştərilər üçün nəzərdə tutulmuş stollarının düzüldüyü yerdən bir az kənarda – salxım söyüdün altında ayrıca qoyulmuş bir stola yaxınlaşdıq, – güman ki, bu stol kafenin sahibinin idi, – kimdənsə icazə almaq üçün o tərəf-bu tərəfə baxsaq da, heç kəsi görməyib stulda oturduq. Mənim üzüm dənizə tərəf idi. Gediş-gəliş hələlik sıxlaşmamışdı, dənizdən uçuşan qağayıların səsi eşidilir və canımıza yayılan yüngül meh gəlirdi. Kafedə işləyən cavan bir oğlan bizə yaxınlaşdı, oturduğumuz yer barəsində bir kəlmə də danışmadan soruşdu:

– Buyurun, eşidirəm.

– Hərəmizə 150 qramlıq dondurma gətir, üzərinə də qızılgül mürəbbəsi tökərsən, – deyə cavab verdim.

Bu sözlərdən sonra Şamamanın əhvali-ruhiyyəsi dəyişərək xeyli yaxşılaşdı, gözlərinə xəfif bir gülüş qonduğunu da hiss etdim. Nəsə demək istəyirdi, amma dinmirdi. Son vaxtlar onda qəribə bir inadkarlıq yaranmışdı. Bunun nədən yarandığını heç cür müəyyənləşdirə bilmirdim. Vəziyyəti bir az yüngülləşdirmək üçün dedim:

– İstəyirsən, sənin ürəyindən nə keçdiyini söyləyim.

Şamama cəld cavab verdi:

– Həə, ürəyimdən keçəni söyləyərsən, bunu bilirəm, kimyaçı qızın da ürəyini yaxşı oxuyurdun!

Bu cavabı Şamamadan heç gözləmirdim. Mən vəziyyəti sadələşdirmək istəyirdim, əksinə söhbətimiz daha da mürəkkəbləşdi. Kimyaçı qız haradan Şamamanın ağlına gəldi. Düşündüm ki, yəqin "ürəyini oxumaq" ifadəsi Tofiq Dadaşovun seansları ilə assosiasiya yaratdı. Bir az da gileyli şəkildə dedim:

– Ay Şamama, bunlar sənin ağlına hardan gəlir? Bu gözəl günümüzü niyə zəhərə döndərirsən?

– Mən döndərirəm, yoxsa sən? – bu, Şamamanın mənə tuşladığı silah idi.

Aramıza sükut çökdü. Daha bir-birimizin üzünə baxmırdıq, yönümüzü ayrı-ayrı tərəflərə çevirmişdik. Yəqin ki, ayrı-ayrı məsələləri də fikirləşirdik. Bəlkə, Şamama bu günü bizim son görüşümüz hesab edirdi. Yəqin düşünürdü ki, arzularımız həyata keçməyəcək. Amma bu, mənə o qədər də inandırıcı görünmürdü. Ona görə ki, mən kəndə gedəndən bir-iki həftə sonra Şamamagilə elçi göndərəcəyəm, sentyabra qədər toyumuz olacaqdı.

Elə bu vaxt dondurmalarımız gəldi. Cavan oğlan çox səliqə ilə əvvəlcə Şamamanın, sonra da mənim dondurmamı qarşımıza qoydu. Əlavə salfet gətirmişdi.

Əvvəlcə mən yönümü düzəltdim. Gözümün altı ilə Şamamaya baxa-baxa lap qarşısında olan dondurmasını əlimlə bir az da ona tərəf sürüşdürüb mehribanlıq göstərərək: “dondurmanı soyutma”, – dedim. Bu sözdən sonra Şamama yönünü düzəltdi, çay qaşığını götürüb dondurmanın üstündəki qızılgül mürəbbəsini o tərəf-bu tərəfə yaymağa başladı və heç gözləmədiyim halda azca gülümsəyərək dedi:

– Sən oxuya bilmədin, indi mən sənin ürəyini oxuyum?!

Əlimə fürsət düşmüşdü, onu fövtə vermək olmazdı, tez sevincək: “həə, oxu görüm”, – dedim. Eyni zamada fikirləşdim ki, nə desə canla-başla təsdiq edəcəyəm. Hələ üç-dördünü də üstünə qoyub deyəcəyəm ki, sən əməlli-başlı görücüsən. Amma Tofiq Dadaşovun adını çəkməyəcəm, yoxsa yadına başqa əhvalatlar düşər.

– Mən bilirəm ki, sən niyə dondurmanın üzərinə qızılgül mürəbbəsi tökdürmüsən, – Şamama dedi.

Onu daha da həvəsləndirmək və kiçik qanqaralığı aradan qaldırmaq üçün “inanmıram” mənasında gözümü bərəldib, bir az da başımı o tərəf-bu tərəfə yırğalayaraq, “həə, de gö-

rüm!" təəccübümü ifadə etdim. Sonra da göz-qaşla dediyimi dillə söylədim ki, inanmıram, çətin taparsan.

Şamama yenə dilləndi:

– Deyirsən ki, mən tapa bilmərəm, yəni məni bu qədər aciz hesab edirsən? Mən yaxşı bilirəm ki, kişilər qadınları "zərif məxluq" adlandırmaqla əslində onların zəif, gücsüz olmaqlarına işarə edirlər. İndi vur-hay qəzetlər yazır, radio, televizor bar-bar bağırır ki, qadınların beyni kişilərinkindən kiçikdir, yəni onlar az şey bilirlər. Tolstoyun da yekə beynini gözümüzə soxurlar. İnsanın beyni haqqında mən çox şey oxumuşam, müəllimlərim də çox şey danışıblar. Bilirəm ki, insan öz beyninin çox cüzi hissəsindən istifadə edir, əgər hamısından istifadə etsəydi onda gör kişilər nə fəlakətlər törədərdi!

– Yəni demək istəyirsən ki, müharibələr çox olardı? – mızıldanaraq söhbətə qoşuldum.

– Yox, ora-bura yozma, mən kişiləri deyirəm, onların fırıldaqlarını, yalançılıqlarını, qızları şirin dil ilə aldatmalarını nəzərdə tuturam. Yataqxanada neçə-neçə qızı ağlar görmüşəm, aldadıb atıblar, qızların arzularını puç eləyiblər, onların ahı oğlanları tutacaq. Bundan sonra qızlar kimə inansınlar, kimlə ailə qursunlar, ailə qurduqları adama necə etibar etsinlər?

Bir dəfə o aferist oğlanlardan birini fakültədə görüb soruşdum ki, niyə belə elədin, ayıb deyil? Nə cavab versə yaxşıdır, dedi ki, o başqa rayondandır, elçi getməyə imkanımız yoxdur, ailəmiz kasıbdır. Mən də ərkyana üstünə qışqırdım ki, yalansa səni kasıb ilan vursun, bəs ona eşq elan eləyəndə, sevirəm deyəndə, dalısıca sürünəndə rayon yadına düşmürdü? O da qızara-qızara yanımdan uzaqlaşıb getdi. Bax, mən həmin kişiləri deyirəm, bəs sən nə deyirsən?

Cavab verdim ki, mən də elə sən düşündüyünü fikirləşirəm. Bir az fasilə yarandı. Düzü, Şamamanın öz nitqini qurtar-

masını təsəvvür eləmirdim. Amma, deyəsən, qurtarmışdı, çünki qımışa-qımışa dedi:

– Bu qızılgülü ona görə sifariş vermisən ki, biz kirayədə qaldığımız vaxt bazarın yanındakı kafedə dondurma yeyəndə onun da üstünə qızılgül mürəbbəsi tökdürmüşdün, hətta ev sahibi bizi görmüşdü və sənin həyətdən çıxarılmağın da bununla bağlı idi.

Mən: "Tamamilə doğrudur, əhsən", – deyib əlimi uzadıb barmağımla yavaşca onun burnuna toxundum. Bununla həm də onun tapıntısı ilə əlaqədar sevincimi bildirmək istəyirdim.

Şamama dilləndi:

– Həə, mən bilirəm, sən niyə yavaşca burnuma toxundun?

Mən üz-gözümü turşudub başımın hərəkəti ilə demək istədim ki, nəyi bilirsən?

Şamama cavab vermədi, elə bil öz sualı özünün yadından çıxdı. Amma o qədər diqqətlə mənə baxırdı ki, ya elə bil məni təzəcə görmüşdü, ya yenicə tanıyırdı, ya da gözləmədiyi halda sanki ona sevgi elan olunmuşdu. Hər halda duyğularım məni aldatmırdı, amma Şamama donuq vəziyyətə düşmüşdü. Necə deyərlər, çırtmıq vursaydın qanı çıxmazdı. Sonra yavaş-yavaş özünə gəldi və danışmağa başladı:

– Genetika çox mühüm elm sahəsidir. Biologiya müəllimimiz mühazirələrdə bizə bu barədə xeyli danışıb. Həmçinin tez-tez qeyd edirdi ki, bu elmi Stalin qadağan eləmişdi, indi onun ölümündən 20 il sonra bu sahəni yenidən dirçəltmək istəyirlər. Əgər müəyyən fasilə yaranmasaydı, sovet elmi bu sahədə çox böyük uğurlar qazanardı. Amma təəssüf, bu, hələlik mümkün deyil. Çünki, 37-ci ildə həmin elmlə məşğul olanların hamısını güllələmişdilər.

Bir az fasilə yarandı və sonra mənim danışmadığımı görüb Şamama fikrini davam etdirdi:

– Biologiya müəllimimizin genetika barədə söylədikləri heç vaxt yadımdan çıxmaz və mən uşaqlara dərs deyəndə bu barədə onlara ətraflı danışacağam. Həə, bir də müəllimimiz Hacıbəyovlar nəslini nümunə gətirərdi. Bu nəsildən olan bəstəkarların, musiqiçilərin adını çəkər və sübut etmək istəyərdi ki, genetikanı öyrənməyin böyük əhəmiyyəti var.

Mən də dedim:

– Müəlliminiz düz deyir, Bethovenin nəsli də belədir. Bu nəsildə qırxa qədər musiqiçi var. Əksəriyyəti də şedevr yaradan sənət adamlarıdır.

Bu sözlərin dalısınca: “istəyirsən, sənə çox maraqlı əhvalat danışım”, – deyib Şamamanın nə cavab verəcəyini gözləmədən söhbətə başladım:

– Bilirsən ki, mən hər yayı kəndimizdə oluram. Yay günlərinin birində axşamçağı evimizdən çıxıb əmimgilə gedirdim. Bizim evlə əmimgilin evi bir-birindən o qədər də uzaq deyil və bu yol məktəbin yanından keçir. Elə məktəbin yanına çatmışdım ki, Məşədi Vəli kişi məni çağırdı. O, kürəyini məktəbin divarına dayayıb tut kötüyün üstündə oturmuşdu, əlində kəhrəba təsbeh var idi. Hal-əhvaldan sonra məndən soruşdu:

– Sənin qarşında gedən o uşağı tanıdın?

– Düzünə qalsa, yox!

– Bilmədin kimin burnundan düşüb?

– Tanıya bilmədim. Ona görə ki, mənim kəndlə elə əlaqəm yoxdur. O cür uşaqları mən necə tanıya bilərəm?

– Yaxşı, heç nəm-nişanından bir şey başa düşmədin?

– Vallah, yox!

– O uşaq mənim rəhmətlik qardaşımın ya nəvəsi, ya da nəticəsidir.

– Bəs sən haradan bildin?

– Yaxşı fikir versəydin görərdin ki, o uşaq sağ çiynini ata-ata gedirdi. Kəndimizdə bircə mənim qardaşım yolda-izdə sağ çiynini ata-ata gedərdi. Bax, mən bundan bildim. Görürsən, Şamama, bu, əsl genetikadır. Yaşlı kişi genetikanın nə olduğunu bilmir, amma zənni onu qətiyyən aldatmırdı.

Şamam gülə-gülə dedi:

– Əvvəlcə mənim nənəm, sonra da anam qoşulub qaçıb, bax, bu da genetikadır. Genlərin öyrənilməsi həm də xəstəliklərə qarşı mübarizə aparmaq imkanlarını genişləndirəcək. İndi düşünürsən ki, Şamama bunları niyə danışır?

Mən cavab verdim:

– Yox, yox, qətiyyən! Əksinə, başqa məsələ haqqında fikirləşirəm. Fikirləşirəm ki, mən xoşbəxtəm, çünki sən bizim kənddə müəllimə işləyəndə bunları məhz bizim kəndin uşaqlarına öyrədəcəksən.

Şamama "inşallah" deyib söhbətini davam etdirdi:

– Həə, qaldı barmaqla burnuma çırtma vurmaq. Bilirsən, bu nədir? Xatırlayırsan, biz üçüncü kursda oxuyanda "Bilik" kinoteatrında "Milyon il bundan əvvəl" adlı kino verilirdi. Yəqin yadından çıxmayıb, həmin kinoteatra ancaq cavanlar gedirdilər, – o, diqqətlə gözünü üzümə zilləyib başını bir-iki dəfə sağa-sola hərəkət etdirdi, – biz də gedib həmən kinoya baxdıq. Necə baxdıq, onu da bilirsən. Kinodan çıxanda sən bayırda barmağınla mənim burnuma toxundun. Bax, indi sən onu təkrar etdin. Buna genetik yaddaş deyirlər.

Əlimi əlimə vurub ucadan gülməyə başladım, sonra dedim:

– Şamama, mən səni tanımamışam. Dünyada sənin tayın-bərabərin yoxdur. Bunları sən necə yadında saxlamısan?

– Ona görə yadımda saxlamışam ki, vaxtı gələndə unutduqlarını sənə xatırladım.

Mən özüm də bilmədən lap ucadan dedim:

– Yox, yox! Sən burada məni ittiham edə bilməzsən! Ən azı ona görə ki, bu, mənim genetik yaddaşımdır!

Səsimi eşidib bizə qulluq edən oğlan stolumuza yaxınlaşdı. Yəqin o düşünürdü ki, biz dalaşırıq. Mən də fürsətdən istifadə edib çay sifariş etdim, qızılgül mürəbbəsi gətirməyi də tapşırdım.

Bir-birimizə baxıb gülümsədik. Ürəyimdən keçdi ki, deyəsən, hər şey qaydasına düşür.

Söhbətimizdə fasilə yarandı. Tam qaranlıq çökmədiyindən dəniz uzaqdan mənə çox qəribə görünürdü, növbə ilə gah dənizə, gah da Şamamaya baxırdım. Şamama barmağı ilə stolun üzərində xəyali xətlər çəkir, özü üçün nəsə qururdu. Sükutu mən pozdum:

– Şamama, fikirləşirəm ki, insanın həyata gəlişi təsadüfi deyil. Kitab sözü olmasın, hərənin bu dünyada bir missiyası var. Həmin insan o missiyanı yerinə yetirməlidir. Və qəribədir ki, insanların heç biri dünyaya hansı missiya ilə gəldiklərini bilmirlər, ancaq özləri hiss etmədən yavaş-yavaş ona doğru gedirlər. Elələri var ki, missiyanı yerinə yetirdikdən sonra ölürlər, elələri də var ki, Allahın bəxşişi kimi bir az da artıq yaşayırlar. Həə, Allah dedim yadıma bir maraqlı əhvalat düşdü. Mən riyaziyyat fakültəsində oxuyan tələbələrin yataqxanasına tez-tez gedirdim. Orada mənimlə orta məktəbdə oxuyan uşaqlar qalırdılar. Bir dəfə həmin uşaqlarla bir otaqda yaşayan tələbə dostumuz özündən xeyli böyük olan qardaşının macərasını danışdı. Qardaşı universitetdə oxuyurdu və söyləyirmiş ki, mən orta məktəbdə ikən hamı bir-birindən soruşurdu: “Allah var, ya yox?” Kim nə deyirdi, yadımdan çıxıb, amma mən “yox”

deyirdim və bu mənə xeyir eləyirdi, yəni əlaçı olurdum. Hətta orta məktəbi medalla qurtardım və məktəb direktorumuz medalı təqdim edəndə soruşdu: “Allah var, ya yox?” Mən cəld cavab verdim: “yox!”

Elə birinci ili universitetin tarix fakültəsinə qəbul oldum. Gələcəkdə raykom katibi olmaq istəyirdim, ona görə ki, tarix fakültəsini qurtaranların əksəriyyəti yüksək vəzifələrdə işləyirdilər. Bunu mənə dayım başa salmışdı. Universitetdə birinci dərsdən tənəffüsə çıxan kimi hamı bir-birinə sual verirdi ki, Allah var, yox? Mən də “yox” deyirdim, bu, mənə çox xeyir eləyirdi, hiss edirdim ki, universitetdə də xeyrini görəcəyəm. Gördüm də, universiteti fərqlənmə diplomu ilə bitirdim. Dövlət imtahan komitəsinin sədri akademik Firudin Köçərli haradansa ağlına gəldisə mənə belə bir sual verdi: “Allah var, yox?” Bu, mənim üçün illər uzunu eşitdiyim sual idi, tez də cavab verdim: “yox!” Onda Firudin müəllim dedi ki, payızda gəl, səni aspiranturaya götürək. Payızda gəlib sənədlərimi Akademiyanın aspiranturasına verdim və qəbul oldum. Elmi ateizmdən mənə mövzu verdilər. İki il yarıma müdafiə etdim və məni akademiyaya işə götürdülər, maaşım da 135 manat oldu. Bir ildən sonra Firudin müəllimin yanına gedib soruşdum ki, bəs mənim maaşım nə vaxt artacaq, əslində evlənmək istəyirdim və bu pulla ailə saxlamaq mənə çətin olardı, yoxsa maaşdan ötrü kiminsə zəhləsini tökmək mənim təbiətimə uyğun deyildi. Firudin müəllim dedi ki, indi sən kiçik elmi işçisən, sonra elmi işçi, böyük elmi işçi olduqca maaşın artacaq. Firudin müəllimə heç nə deməyib otaqdan çıxdım və onda hiss etdim ki, demə, Allah mənim belimi qırırmış. Bunu ona görə danışdım ki, Allah var və hər bir insanın missiyasını da yalnız o müəyyənləşdirir. Şamama, bax, sənin missiyanı Allahdan aşağı mən bilirəm.

– Həə, de görək, nədir? – Şamama dilləndi.

– Sənin missiyan bizim kənddə biologiya müəllimi olub, özün dediyin kimi, uşaqlara onun sirlərini öyrətməkdir.

– Yaxşı da, zarafat eləmə! Bəs onda sənin missiyan nədir? – Şamama soruşdu.

– Missiyam səni mənə verməsələr, səni götürüb qaçırmaqdır.

İkimiz də xeyli güldük. Arada Şamama "qırmızı xətti keçə bilməzsən" – deyib bu sözləri mənə tərəf fırlatdı.

Ara sakitləşəndən sonra dedim:

– Sən qızılgül mürəbbəsinin, burnuna çırtmıq vurmağımın sirrini açdın. Mən indi niyə məhz bu cür don geyməyimin mənasını izah edim, onda bax ki, mən necə görücüyəm!

– Həə, həə... maraqlıdır, de görək!

Şamama əlini əlinə sürtməyə başladı, üzünə əvvəli-axırı görünməyən sevinc qondu. Bəlkə də, Şamama ilə tanış olduğum vaxtdan onun belə bir sevinc yaşadığının şahidi olmamışdım. Şamama yüngülləşmişdi, az qalırdı çırtmıq çalıb oynasın.

Bu vaxt cavan oğlan bizə çay gətirdi. Çox böyük nəzakətlə armudu stəkanları, çayniki, limon doğranmış nəlbəkini və qızılgül mürəbbəsi ilə yanaşı qənddanı da stolun üstünə qoydu. O, elə ağır-ağır hərəkət edirdi ki, az qalırdı Şamamanın ürəyi partlasın. Hətta "çaylarınızı süzümmü" deyəndə Şamama tez cavab verdi ki, yox, yox, çox sağ ol, özümüz süzərik.

Oğlan uzaqlaşan kimi Şamama tez-tələsik dilləndi:

– Həə, nə oldu, de görək!

Mən özümü bilməməzliyə vurub cavab verdim:

– Nəyi deyirsən?

– Yaxşı da, dolama, – bu sözləri Şamama dedi və hiss elədim ki, doğrudan da, inciyə bilər. Ona görə söhbətimi davam etdirdim:

– Yadımdan çıxmayıbsa, ad günlərində, bayramlarda mən sənə tək bir qırmızı gül alıb gətirərdim. Sən də onu əzizləyər, ətrini ciyərlərinə çəkərdin. Həmişə də deyərdin ki, gətirdiyin bu güllə elə bil dünyanı mənə bağışladın.

– Sən məni lap kövrəldirsən, indi ağlayacağam, – bu sözləri Şamama içini çəkə-çəkə söylədi. Mən yenə danışmağa başladım:

– Bir dəfə Tarqovı küçəsi ilə tək-tənha gedirdim. Gördüm ki, mağazaların birində uzun növbə var, hətta növbədə dayanan adamlar küçə boyu da düzülmüşdülər. Soruşdum ki, burada nə satırlar, "şərf", – deyə cavab verdilər və alanlardan birinin əlində onu gördüm, qalın yun şərf idi və qırmızı, yaşıl rəngləri vardı. Bekarçılıqdan növbəyə dayanıb birini almaq istədim. Növbəm çatanda ikisini istədim. Amma bu mümkün olmadı və satıcı mənə dedi ki, ikinci bir başqa paltar ala bilərsən. Şərfin yanında qadınlar üçün hava rəngli köynək var idi, üzərində də sarı çiçəklər. İndi sən məhz o köynəyə görə belə bir don tikdirmisən, hava rəngli don, üzərində də sarı çiçəklər.

Sözümü qurtarmışdım ki, Şamama "indi səni boğub öldürəcəyəm", – deyib ayağa qalxdı və stulunu da götürüb mənə tərəf gəldi. Başqalarına elə gələ bilərdi ki, o, bu dəqiqə stulu mənim başıma çırpacaq. Amma elə olmadı. Stulu yavaşca mənim stulumun yanına çəkdi, oturdu və başını əyərək sinəmə qoydu. O, bərk-bərk mənə sıxılmışdı, mən də sol əlimlə onun çiynindən yapışdım, özümə tərəf çəkməyə ehtiyac yox idi, çünki Şamama mənim sinəmə elə qısılmışdı ki, öz tərəfimə çəkməyə daha yer yox idi. Tam sükut çökdü, Şamama elə bil ağla-

yırdı, gözlərini görməyə saçları imkan vermirdi. Səsi gəlmirdi, ağlasa da içində ağlayırdı.

– Şamama, nə oldu sənə? – yavaşca pıçıldadım.

O, handan-hana dilləndi:

– Qorxuram.

– Nədən qorxursan? – təəccüblə soruşdum.

– Bilmirəm, yaman qorxuram.

Barmaqlarımla onun saçlarını daramağa başladım. Elə bu vaxt qaranlıq düşdüyünə görə kafenin işıqlarını yandırdılar.

– Qorxma, Şamama, mən buradayam.

– Məni bərk-bərk qucaqla, – bunu titrək səslə Şamama dedi...

Sabahı gün səhər saat doqquzda mən Şamamanı avtovağzaldan rayonlarına yola saldım. Özüm də axşamüstü qatarla kəndimizə getdim.

# X FƏSİL

## QATARDA

Qatarın axşamçağı yola düşməsinə bir-iki saat qalırdı. Bütün əşyalarımı yığışdırıb qaydaya salmışdım. İlboyu aldığım kitabları qış və yay tətilləri vaxtı kəndimizə apardığım üçün yığışdırdığım əşyalar içərisində onlar azlıq təşkil edirdi. Bu dəfəki səfərimdə əsas yeri hədiyyələr tuturdu. Yaxınlarıma gücüm çatan qədər və onların zövqünə uyğun hədiyyələr almışdım. Ən çox pul aparan Şövkət xalam üçün aldığım 12 metrlik çit parça olmuşdu. Bunun da səbəbi ondan ibarət idi ki, Şövkət xalamın tumanı 12 taxtadan – hissədən ibarət olurdu. Anaları balaca uşaqların üstünə hirslənəndə həmin uşaqlar qaçıb Şövkət xalamın tumanının taxtaları arasında gizlənərdi.

Qəfildən ağlıma qəribə bir fikir gəldi: Höcətulla kişigilə gedib bu ailə ilə xudahafizləşmək lazımdır. Tez tələsik ayağa qalxıb onların evlərinə yollandım. Yol boyu bircə onu fikirləşirdim ki, görəsən, Höcətulla kişi nə deyəcək? Darvazadan içəri girəndə ilk olaraq Höcətulla kişinin qızı ilə qarşılaşdım. O, mənim gəlişimə inanılmaz dərəcədə sevindi, səsi həyəti bürüdü. Höcətulla kişi də, arvadı da həyətə çıxdılar. Arvadı mənə "xoş gəldin" dedi, əli ilə də Höcətulla kişini mənə sarı itələdi. Höcətulla kişi də onun him-niminə quzu kimi qulaq asıb mənə tərəf gəldi və biz səmimi şəkildə görüşdük. Görüşən kimi də üzünü qızına tərəf tutub ucadan dedi, ay bala, bir çay hazırla. Biz həyətdəki ağacın altına qoyulmuş stolun ətrafında əyləşdik. Sonra arvadı və qızı da gəlib oturdular. Olub-keçənlərdən xeyli söhbət etdik. Mən ayağa durub getmək istəyəndə Höcətulla kişinin qızı dedi ki, sənin Şamamaya verdiyin hədiyyə elə onun

otağında qalıb, istəyirsən gəl, bax. Mən içəri keçdim, divarın lap yuxarı hissəsində böyüdülmüş tut ağacının şəkli vurulmuşdu. Bu tut bizim həyətdəki tut idi, amma onun böyüdülüb divara vurulması Şamamanın işi idi. Qız araya salıb soruşdu ki, Şamama necədir? Mən də onun səhər tezdən rayonlarına getdiyini bildirdim.

Höcətulla kişigildən ayrılıb sürətlə evə gəldim, amma düşündüm ki, qatarın yola düşməsinə az qalırdı, vağzala getsəydim çata bilməyəcəkdim. Ona görə də Biləcəri stansiyasına getməyi qərarlaşdırdım və oraya çatandan bir neçə dəqiqə sonra qatar gəldi. Vaqona qalxıb mənə aid kupeyə girəndə gördüm ki, kupedə üç nəfər yaşlı adam var. Onlardan ikisi kişi, biri isə qadın idi. Mənim biletim aşağı yerə olduğuna baxmayaraq, yuxarıda yatacağıma tam əmin oldum. Kişilərdən biri qalxıb əşyalarımın yerləşdirilməsinə şərait yaratdı.

Xeyli söhbət etdik. Mənə müxtəlif suallar verdilər, xüsusilə universitetdə necə oxuduğumu soruşdular. Yaşlı kişilərdən biri imtahanları necə verdiyimlə maraqlandı və boş-bekar olduğumuzdan imtahanla bağlı maraqlı bir hadisə danışmağımı istədi. Mən də elə bunu gözləyirmişəm kimi "Elmi kommunizm" fənnindən verdiyim dövlət imtahanını xatırladım.

Səhər saat 9-a az qalırdı. İmtahan otağı tam hazır vəziyyətə gətirilimişdi. Dövlət imtahanı olduğuna görə bizdən imtahanı komissiya götürəcəkdi. Nəhayət, komissiya üzvləri gəldi. İmtahan başlayan kimi mən gedib bilet çəkdim və hazırlaşmağa başladım. Düzünə qalsa, beşinci kursun sonu idi və mən də daxil imtahana ciddi şəkildə hazırlaşan olmamışdı. Birinci sualım qanunlar haqqında idi, özümdən bir tərif düzəldib dedim. Fənn müəllimimiz professor Həsən Şirəliyev əlini əlinə vurub ayağa qalxdı və komissiya üzvlərinin arxasında var-gəl eləmə-

yə başladı. Sonra onun sol tərəfində oturan Mir Cəlal müəllimə yaxınlaşıb ucadan dedi:

– Ağa, cəddin haqqı, özündən düzəldir, belə tərif yoxdur!

Sonra da sağ tərəfində oturan Abbas Zamanova yaxınlaşdı:

– Ağa, cəddin haqqı, heç yerdə belə tərif yoxdur, özündən quraşdırır!

Bu zaman Abbas müəllimin sağında oturan Bəxtiyar Vahabzadə ayağa durub Həsən müəllimlə üz-üzə dayandı:

– Həsən müəllim, doğrudan özü düzəldib?

– Bəli, Bəxtiyar müəllim!

Bəxtiyar müəllim: "Yaxşı, onda bu tələbədən imtahanı mən özüm götürəcəyəm", – deyib Həsən müəllimin stulunda mənimlə üzbəüz oturdu. Mənə beş-altı sual verdi, amma heç biri "Elmi kommunizm" fənnindən deyildi. Mən bu tələbəyə "beş" yazıram. Həsən müəllimin astaca səsi eşidildi:

– Elə sən də onun tayısan.

Nəhayət, hamısı razılaşıb mənə "beş" yazdılar, Bəxtiyar Vahabzadə də çıxıb getdi.

Bu əhvalata kupedəkilər xeyli gülüşdülər. Mən yorulduğumu deyib yatmaq üçün yuxarı mərtəbəyə qalxdım. Amma yata bilmədim, haradansa pedaqoji təcrübə keçdiyim günlər yadıma düşdü.

Beşinci kursun birinci semestri idi, dərslər başlanandan bir-iki həftə sonra pedaqoji təcrübəyə yollandıq. Əvvəlki kursda on beş günlük təcrübə keçmişdik, hamı ona "passiv praktika" deyirdi. Yəni orta məktəblərin birinə getdik, siniflərlə tanış olduq, dərslərə qulaq asdıq, müəllimlərin tövsiyələrini dinlədik, sonra da yenə universitetdə dərslərə davam etdik.

Amma dərs demədik, yəqin "passiv praktika" ifadəsi də buradan yaranmışdı.

Beşinci kursun iki aylıq pedaqoji təcrübəsi "aktiv praktika" idi, yəni açıq dərslər deyəcəkdik. Bizim qrupun tələbələri 160 saylı orta məktəbdə pedaqoji təcrübə keçəcəkdilər. Tələbələri Azərbaycan dili və ədəbiyyatı müəllimləri arasında bölüşdürərkən mən Sosialist Əməyi Qəhrəmanı Zərbəli Səmədovun sinfinə düşdüm. Zərbəli müəllimi sinifdən əvvəl müəllimlər otağında tanıdım. O danışır, hamı qulaq asırdı və birdən qəzəblə dedi:

– Mən ərəbləri əməlli-başlı adam bilirdim. Bu boyda ərəb ölkələri bir İsraillə bacarmır. Vuruşun şirin yerində düşmənə deyir ki, dayanın namazımı qılım sonra yenidən başlayaq.

Bir neçə gün Zərbəli müəllimin dərslərini dinləyəndən sonra o, mənə söylədi ki, sabahkı dərsi sən deyəcəksən, mövzunu götür və yaxşı-yaxşı hazırlaş. Bu, açıq dərs deyildi, sadəcə olaraq, müəllimin öz təşəbbüsü ilə olan bir iş idi. Dərsi dedim və həmin gündən sonra Zərbəli müəllim 10-cu sinifdə olan bütün dərslərini mənə tapşırdı. Tənəffüsdə şagirdlər mənim ətrafıma toplaşar, çoxlu suallar verərdilər. Onları ən çox maraqlandıran peşə seçimi məsələsi idi. Mənim dərslərim uşaqların müəllimliyə həvəsini xeyli artırmışdı. Amma şagirdlərdən biri – Gülnar adlı qız mənə başqa-başqa suallar verirdi: Müəllim neçə yaşınız var? Bakıda yaşayırsınız? Universiteti qurtarandan sonra harada işləyəcəksiniz? Müəllim, nişanlınız var? Axırıncı suala hamı gülürdü.

Növbəti bazar günü məktəbin bütün kollektivi İlyas Əfəndiyevin "Unuda bilmirəm" tamaşasına baxmaq üçün Dram Teatrına gedəcəkdi. Məktəb direktoru tapşırıq vermişdi ki, təcrübə keçən tələbələr də teatra gəlsinlər. Bütün şagirdlər yerlə-

şəndən sonra müəllimləri və təcrübəçi tələbələri sıraların əvvəlində oturtdular. Bu tədbir tamaşa zamanı uşaqların səs salmaması üçün idi. Mənə də dərs dediyim şagirdlərin sırasında yer ayırdılar. Elə təzəcə oturmuşdum ki, sıranın ortasında olan Gülnar ayağa durub mənə tərəf gəldi və yanımdakı qızı öz yerinə göndərib mənim yanımda oturdu. O, gözlərimin içinə düz baxıb səmimi şəkildə gülümsəyirdi. Üstü qızılgüllərlə bəzədilmiş sarı rəngli və astarı olan tülfason bir don geyinmişdi. Don ona çox yaraşırdı, bəlkə də, bunu teatr tamaşası üçün almışdı. Hər gün məktəbli formasında olan Gülnarı, sadəcə, tanımaq çətin idi, tamam dəyişmişdi, o da ola ki, onun qımışa-qımışa mənə verdiyi ilk sual belə oldu: müəllim, nişanlınız var?..

Tamaşa qurtaranda çox maraqlı bir hadisə baş verdi. Gülnar mənə yavaşca bu sözləri dedi:

– İçirəm sənin sağlığına, Kam!

Bu sözləri "Unuda bilmirəm" tamaşasında Nərmin bir neçə dəfə Kamrana demişdi.

Tamaşadan üç gün sonra həmin sinifdə mənim açıq dərsim oldu. Mövzu Q.B.Zakirin "Durnalar" şeiri idi. Universitetin Ədəbiyyat kafedrasının əksər müəllimləri açıq dərsdə iştirak edirdilər. Mən də çox həvəslə hazırlaşmışdım. Vaqifin, Vidadinin və Zakirin "Durnalar" şeirlərinin müqayisəli təhlilini apardım. Amma dərs ürəyimcə olmadı və dərsi vaxtından 5 dəqiqə əvvəl bitirdim. Bunun da əsas səbəbi ondan ibarət idi ki, lap qabaq partada oturan Gülnar bütün dərs boyu iki əlini ağzının hər iki tərəfinə tutub astaca "İçirəm sənin sağlığına, Kam!" sözlərinin təkrar-təkrar, özü də ara vermədən söyləyərək mənə mane oldu. Müzakirəsi zamanı müəllimlər mənə sual verdilər ki, dərsi sən özün necə dəyərləndirirsən? Cavab verdim ki, mən dərsi bir dram kimi planlaşdırmışdım, amma axırda faciə alındı.

Bunları düşünə-düşünə nə vaxt yuxuya getdiyimi bilməmişəm. Gecənin bir vaxtı kupedə olan kişilərdən biri məni oyadıb dedi ki, biz artıq düşürük, sən düşüb aşağıda yat. Yavaşca aşağı endim, yalnız balıncımı dəyişib aşağıda yatdım.

Vaqon bələdçisi məni yuxudan durğuzanda artıq hamı qatarı tərk etmişdi. Yır-yığış eyləyib vaqondan düşdüm. Məni Əngiəyri Şəmil qarşıladı. Cibimdə nə qədər dəmir pul var idi hamısını onun yarıya qədər bükülü qalan ovcuna tökdüm.

Perrondan aşağıda taksilər gözləyirdi.

# EPİLOQ

Mühazirəmi qurtarandan sonra evə getmək üçün universitetin həyətinə çıxdım. Bir neçə addım atmışdım ki, iki tələbə qızın söhbətini eşitdim. Bir qız o birinə deyirdi:

– Şamama, həmin oğlan heç sənin adını bilmir.

O biri qız cavab verdi:

– Yaxşı, indi baxarsan, elə eləyərəm ki, həmin oğlan mənim adımı ömürlük beyninə yazar.

Qızlarla lap yanaşı idim. Birdən ayaq saxlayıb soruşdum:

– Şamama hansınızın adıdır?

– Müəllim, mənim adım Şamamadır, – duruşuna nizam verən tələbələrdən biri dedi.

Həyətdəki hovuzun qırağına çəkiləndən sonra soruşdum:

–Sizin ailənizdə Şamama adında başqa bir adam var?

–Bəli, var, – dedi. – Nənəmin adı Şamamadır, öz adını mənə qoyub, bax, bu paltarı da o tikib, – əli ilə üstü sarı çiçəklərlə bəzədilmiş hava rəngli donunu sığalladı.

– Mən sənin nənəni tanıyıram, eyni vaxtda universitetdə oxumuşuq.

– Həə, nənəm mənə bu barədə söyləyib. Hətta deyirdi ki, əmioğlum məni qaçırıb bütün arzularımı puç elədi. İndi sizi calaşdıraram danışarsınız.

Arxa cibindən telefonunu çıxardı. Tez də danışmğa başladı:

– Nənə, təbrik edirəm! Sevgilini tapmışam! Kəndə gələn kimi babama deyəcəyəm!

Uzaqdan gələn səs eşidilirdi:

– Ay qız, kəs səsini, şeytan-şeytan danışma!

– Telefonu verirəm, sevgilinlə danış, – deyib tələbə gülə-gülə telefonu mənə uzatdı. Mən telefonu alıb danışmağa başladım:

– Salam, Fəridə, necəsən?

Cavab gəlmədi. Mən danışığımı davam etdirdim:

– Fəridə, mənəm, tanımadın?

Cavab gəlmədi və telefon kəsildi. Təəssüfümü bildirərək telefonu tələbəyə verib yoluma davam etdim. Arxadan tələbənin qəribə səsi eşidildi:

– Müəllim, nənəmin adı Şamamadı, Fəridə deyil.

# MÜNDƏRİCAT

Proloq ........................................................................ 3
I Fəsil. Qəbul.............................................................. 10
II Fəsil. Dağlı məhəlləsi .......................................... 30
III Fəsil. 204 nömrəli avtobus ................................. 39
IV Fəsil. Novruza bir gün qalırdı ............................ 48
V Fəsil. Şamama ........................................................ 54
VI Fəsil. İmtahan ....................................................... 70
VII Fəsil. Konfrans .................................................... 83
VIII Fəsil. Yataqxana ................................................ 95
IX Fəsil. Görüş ......................................................... 108
X Fəsil. Qatarda ........................................................ 124
Epiloq ....................................................................... 130

**Kamran İmran oğlu Əliyev**

# Qırmızı xətt

## *Qeyd üçün*

***«Elm və təhsil»* nəşriyyatının direktoru:**
***Professor Nadir MƏMMƏDLİ***

Dizayn: **Kamran İbrahimov**
Texniki redaktor: **Rövşanə Nizamiqızı**
Kompüterdə yığdı: **Aysel Cəfərova**
Korrektor: **Nigar İmaməliyeva**

Çapa imzalanmış **16.09.2020**
Şərti çap vərəqi **8,5.** Sifariş № **506**
Kağız formatı **60x84 1/16.** Tiraj **200**

*Kitab* ***"Elm və təhsil"*** *nəşriyyat-poliqrafiya müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur.*
***E-mail: nurlan1959@gmail.com***
*Тел: 497-16-32; 050-311-41-89*
*Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.*